HÜSEYNQULU SARABSKİ

# KÖHNƏ BAKI

"ŞƏRQ-QƏRB"
BAKI-2006

*Bu kitab "Hüseynqulu Sarabski. Köhnə Bakı"*
*(Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı, Bakı, 1958)*
*nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Rəsmlərin müəllifi: **Əzim Əzimzadə**

Redaktoru: **Ənvər Quliyev**

**398.2'094754-dc21**
**AZE**
**Hüseynqulu Sarabski. Köhnə Bakı.** Bakı, "Şərq-Qərb", 2006, 144 səh.

Azərbaycan opera sənətinin görkəmli nümayəndələrindən biri, ölkəmizin teatr sənətinin inkişafında böyük xidməti olan istedadlı aktyor, özünü həm də ədəbi yaradıcılıq sahəsində də sınamış və bir neçə dram əsəri, eyni zamanda müxtəlif mövzularda oçerklər yazmışdır.

1938-ci ildə yazılmış "Köhnə Bakı" əsərində keçən əsrin əvvəlindəki Bakının həyatı və məişəti ilə bağlı müxtəlif hadisələr müəllifin şəxsi müşahidələrinin süzgəcindən keçərək rəngarəng bədii boyalarla təsvir edilmişdir.

**ISBN10 9952-34-008-7**
**ISBN13 978-9952-34-008-2**

© "ŞƏRQ-QƏRB", 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## İNSTİTUTDAN[1]

Azərbaycan milli opera sənətinin banilərindən biri – Hüseynqulu Məlik oğlu Rzayev (Sarabski) 1879-cu ildə Bakı şəhərində dənizçi ailəsində anadan olmuşdur.

Atası faciənə surətdə həlak olduqdan sonra o, çox ağır və acınacaqlı həyat keçirmiş və kiçik yaşlarından işləməyə başlamışdır. Gənc Hüseynqulu papaqçı şəyirdi, gəmidə yunqa, tikintilərdə palçıqdaşıyan, daşyonan işləmiş və nəhayət, su satmaqla məşğul olmuşdur.

H.Sarabski 1903-cü ildən həvəskar artistlərin təşkil etdiyi dram cəmiyyətlərinin işində iştirak etməyə başlayır. Burada o, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Cahangir Zeynalov, Hüseyn Ərəblinski, Mirzağa Əliyev, daha sonra Üzeyir Hacıbəyov, Müslüm Maqomayev və Zülfüqar Hacıbəyovla tanış olur və onlarla dostluq etməyə başlayır.

1903-cü ildən 1908-ci ilədək o, dram tamaşalarında bir sıra rollarda çıxış edir və 1906-cı ildə təşkil olunan "Nicat" maarif cəmiyyətinin işində uzun illər fəal iştirak edir.

Gözəl səsi olan H.Sarabski 1908-ci il yanvarın 12-də (25-də) tamaşaya qoyulmuş Azərbaycanın birinci milli operası – dahi bəstəkarımız Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının ilk tamaşasında Məcnun rolunda çıxış edir. O vaxtdan başlayaraq, Hüseynqulu Sarabski opera sənətinin ustadlarından biri kimi tanınmağa başlayır. Məcnun, Şeyx Sənan, Şah Abbas, Zöhrab, Kərəm, Aşıq Qərib, Şah İsmayıl, Mərcan bəy, Sərvər, tacir Əsgər rollarında məharətlə çıxış edir, onların ölməz obrazını yaradır.

Bundan başqa o, rejissor kimi bir çox opera, operetta və dram tamaşalarına quruluş verir.

Azərbaycan xalqının istedadlı oğlunun məlahətli səsi 40 ildən artıq bir müddət ərzində Azərbaycan opera səhnəsindən eşidilir.

Azərbaycan klassik musiqi sənətinin ustadlarından biri olan Sarabski, eyni zamanda "Dağlar" və "Muğan" kimi populyar mahnıların müəllifidir.

Sonralar H.Sarabski Azərbaycan Dövlət Opera və Balet Teatrında səhnə fəaliyyətini davam etdirir və eyni zamanda Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında muğam sənətindən dərs deyir. Respublikamızın

[1] Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu



artist və xanəndələrinin bir çoxu H.Sarabskinin tələbəsi olmuşdur. O, ömrünün son illərində Respublika Xalq Yaradıcılığı Evinə rəhbərlik etmişdir.

H.Sarabski 1934-cü ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvü, 1938-ci ildə isə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilir. O, Azərbaycan SSR Ali Sovetinin əfv komissiyasının üzvü idi. H.Sarabski dəfələrlə Azərbaycan SSR Ali Məhkəməsinin xalq iclasçısı seçilmişdir.

İncəsənət sahəsində uzunmüddətli və səmərəli fəaliyyətinə görə H.Sarabskiyə 1922-ci ildə Azərbaycan SSR əməkdar artisti, 1932-ci ildə isə Azərbaycan SSR xalq artisti fəxri adı verilmişdir. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündən sonra H.Sarabski "Qırmızı Əmək Bayrağı" ordeni ilə, Böyük vətən müharibəsi illərində isə "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif olunur.

H.Sarabski 1945-ci il fevralın 16-da vəfat etmişdir.

H.Sarabskinin hərtərəfli istedadı ədəbi yaradıcılıq sahəsində də özünü göstərirdi. Onun yazdığı "Cəhalət", "Axtaran tapar", "Nə doğrarsan aşına, o çıxar qaşığına" dram əsərləri hələ inqilabdan əvvəlki dövrdə Azərbaycan səhnəsində tamaşaya qoyulmuşdu. O, "Azərbaycan milli kostyumu", "Azərbaycan teatr tarixinin oçerkləri", "H.Ərəblinskinin tərcümeyi-halı" və 1926-cı ildə çap olunmuş "Bir aktyorun xatirələri" adlı əsərlərin müəllifidir.

H.Sarabski, oxuculara təqdim edilən "Köhnə Bakı" əsərini 1938-ci ildə yazmışdır. Kitabda inqilabdan əvvəlki Bakının həyat və məişət tarixinin bəzi məsələləri öz əksini tapmışdır. Bu və ya digər məsələnin işıqlandırılmasında müəllif etnoqrafik materiallardan istifadə etmişdir. Kitab, müəllifin şahidi olduğu hadisələr haqqında xatirələrdən ibarətdir. Orada verilmiş materiallar kapitalist Bakısı tarixinin və şəhər əhalisinin etnoqrafiyasının öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

H.Sarabskinin "Köhnə Bakı" kitabının yeni nəşri görkəmli aktyor, ictimai xadim və sənətkarın unudulmaz xatirəsinə dəyərli hədiyyə və xalqımızın tarixi keçmişinin öyrənilməsinə yardımçı olacaqdır.

## ÖN SÖZ

XX əsr Azərbaycan milli musiqi mədəniyyətinin parlaq şəxsiyyətləri sırasında öz yeri, öz mövqeyi olan sənətkar. Adı əsrin yeniləşən, dəyişən, müasirləşən sənət aləminin simvollarından birinə çevrilən, əsrin səsinə səs verən, sənət fədailərindən biri. O, səhnəmizin əfsanəvi Məcnunudur. Sənətini musiqi incisi – "Leyli və Məcnun" operasından başlayan Hüseynqulu Sarabski bütün ömrünü bu zirvənin məsuliyyətini, onun ucalığını dərk edərək yaşamış, sənətinə, peşəsinə vurğunluğu ilə nəsillərə nümunə olmuş və olacaqdır.

Hüseynqulu Sarabski 1879-cu ildə Bakıda anadan olmuşdur. Onun taleyi də, sənət yolu da daxilən bütöv, mətin, qarşısına qoyduğu məqsədə gedən yolda hər cür maneələri dəf edən, ən əsası isə sevdiyi işinə, peşəsinə vurğunluğunu ömrünün son anınadək saxlayan böyük bir aktyorun və böyük bir şəxsiyyətin həyat tarixçəsidir.

Uşaqlıqdan Hüseynqulu Sarabski musiqiyə böyük həvəsi və məlahətli səsi ilə seçilirdi. Özünün xatirələrində yazdığı kimi, "Məhərrəmlik vaxtında dini havalar oxuyar, mərsiyə deyər, münacat çəkər, eyni zamanda el şənliklərində, toyda-bayramda muğamlara, mahnılara qulaq asar, öyrənərdi". 12 yaşlı Hüseynqulu ilk dəfə teatr tamaşasına baxır: bu həvəskarların ifasında "Xan Sarabi" adı ilə qoyulmuş Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyası idi. Əsil soyadı Rzayev olan Hüseynqulunun sonralar götürdüyü səhnə təxəllüsü – Sarabski də bu güclü təəssüratın əks-sədası oldu. Elə o gündən teatr və musiqi onun arzu və xəyallarında qoşalaşdı. Azərbaycanda milli dramaturgiyanın əsasını qoymuş Mirzə Fətəli Axundzadənin əsəri Azərbaycanın ilk opera artistinin taleyində onu əbədiləşdirən ada təkan verdi.

Hüseynqulu Sarabski teatra çətin bir dönəmdə gəlmişdi. Teatrı "şeytan əməli", aktyorluğu isə "kişiyə yaraşmaz peşə" hesab edənlərin tənəsinə, bəzən də hədə-qorxusuna sinə gərərək öz arzuları və xəyallarına doğru inamla gedirdi. Kiçik yaşlarından ağır zəhmətə qatlaşan – dəmirçi, daşyonan, fəhlə işləyən Hüseynqulu yeni əsrin səsini eşidirdi. O oxumaq, təhsil almaq istəyi ilə özünü oda-közə vurur, qazandığını kitaba, dəftərə verirdi. O, ziyalı, müəllim, təhsilli insanları özünə nümunə seçirdi, onlara bənzəmək istəyirdi. İlk dəfə gördüyü teatr tamaşası isə onun həyat seçimini bircə anın içində dəqiqləşdirdi. O, həmişəlik səhnəyə bağlandı. Hüseynqulu Sarabskinin teatra gəlməsində, aktyorluq sənətini seçməsində, püxtələşməsində teatr xadimlərindən, tanınmış ziyalılardan Nəriman Nərimanovun, Əbdürrəhimbəy Haqverdiyevin, Rəhimbəy Məlikovun, həmkarları – Cahangir Zeynalovun, Hüseyn



Ərəblinskinin və başqalarının böyük rolu olmuşdur. İlk dəfə 1902-ci ildə N.Nərimanovun "Dilin bəlası" pyesində Rəsul rolunu oynayan Hüseynqulu sonralar teatr səhnəsində M.F.Axundzadənin, Ş.Şamilin, N.Vəzirovun, Ə.Haqverdiyevin dram əsərlərində bir sıra müxtəlif xarakterli obraz yaradır. O, yalnız milli repertuarda deyil, Şekspirin, Heynenin, Şillerin, Qoqolun Azərbaycan dilinə tərcümə edilmiş əsərlərində də çıxış edirdi. Məhz Henrix Heynenin "Əlmənsur" pyesində ərəb səyyahının rolunda çıxış edərkən oxuduğu təsiredici "Hicaz" muğamı onu Azərbaycan mədəniyyətinin yeni bir aləminə – musiqili teatra, operaya gətirdi. Məhz bu tamaşa zamanı Sarabski, o zamanlar Azərbaycanın və Şərqin ilk operası olan "Leyli və Məcnun" üzərində işləyən Üzeyir bəy Hacıbəyovun diqqətini cəlb etdi. Bu, zirvəyə gedən yolun başlanğıcı oldu. Üzeyir Hacıbəyov məlahətli səsə malik, muğamlara bələd olan aktyor kimi də təbii və canlı Hüseynqulu Sarabskinin opera artisti kimi potensialını hiss edərək onu öz operasında baş rola – Məcnun roluna dəvət etdi. Bu rol ilə Hüseynqulu Sarabski, sözün əsil mənasında, ümumxalq məhəbbəti qazandı. Bu rol bəlkə də aktyorluq sənətinə hələ də "oyunbazlıq" kimi baxanların teatra münasibətini kökündən dəyişdirən təkan oldu. Aktyorun özünün yazdığı kimi, "vaxtı ilə onu barmaqla göstərən, ona tənə ilə baxanlar indi onu Məcnun deyə çağıraraq alqışlayır, hörmətlə qarşılayırdılar". O, səhnədə 30 ildən artıq bir müddətdə 400 dəfə bu rolun sehrini yaşadı. Azərbaycan səhnəsinin əfsanəvi, təkrarolunmaz Məcnunu kimi tanındı. Əziz Şərif, Sarabskinin Məcnunu haqda yazırdı: "Sarabskinin oyunu misilsiz idi. Onun nəğmələri bulaq kimi axır... Ağlaya-ağlaya, inildəyə-inildəyə öz məhəbbətindən, öz Leylisindən Füzulinin qəzəlləri ilə ölməz muğam üstündə danışır, insan qəlbinin ən incə damarlarına işləyən musiqi mənə o qədər təsir edirdi ki, hönkürtümü çətin boğa bilirdim. Lakin göz yaşlarım durmadan axırdı. Qəlbimi isə qəribə hisslər doldururdu. Zavallı, uğursuz, divanə Məcnun! Sarabski öz rolunu böyük məharətlə oynadı. O, Məcnun surətini səhnədə tam mənası ilə canlandırdı".

Dünya opera sənətinin unikal bir səhifəsi olan Şərqin və Qərbin musiqili teatr ənənələrinin kəsişdiyi muğam operasının tarixini Hüseynqulu Sarabskisiz təsəvvür etmək mümkün deyil. O, milli opera tarixində Ü.Hacıbəyovun opera və operettalarında – Kərəm ("Əsli və Kərəm"), Şeyx Sənan ("Şeyx Sənan"), Şah Abbas ("Şah Abbas və Xurşidbanu"), Söhrab ("Rüstəm və Söhrab"), Sərvər ("O olmasın, bu olsun"), Mərcan bəy ("Ər və arvad"), Əsgər ("Arşın mal alan"), M.Maqomayevin "Şah İsmayıl"ında Şah İsmayıl, Z.Hacıbəyovun "Aşıq Qərib"ində Aşıq Qərib rollarının ilk ifaçısı kimi ad qoydu. Hər bir obraz üçün Hüseynqulu Sarabski təravətli, fərqli boyalar tapırdı. Məcnunu ifa edərkən tamaşaçılar göz yaşlarını saxlaya bilmirdilər. Şah İsmayılı oynayanda məğrurluğu, əzəməti ilə tamaşaçıları riqqətə gətirir, Kərəm obrazını yaradanda yandırıb-yaxırdı... O, Üzeyir Hacıbəyov, Müslüm

Maqomayev, Zülfüqar Hacıbəyovla birlikdə çiyin-çiyinə yeni musiqi tarixini yaradanlarından biri idi.

Hüseynqulu Sarabskinin şirin, məlahətli səsinin bənzərsiz çalarları var idi. Müasirlərinin yazdığına görə bu səs həmişə həzin və yumşaq səslənərdi. Sanki ürəyidağlı Məcnunun pərişan qəlbinin yanğısı həmişəlik Sarabskinin səsinə hopmuşdu. Təsadüfi deyil ki, o, muğamlardan "Hicaz"ı, "Bayatı Şiraz"ı, "Segah"ı, "Şüştər"i, "Şikəsteyi fars"ı, xalq mahnılarından "Üçtelli durna" və "Sona bülbüllər"i ifa etməyi xoşlardı. Operada fəaliyyəti onun müğənni-xanəndə kimi ifa tərzinə özünəməxsus cəhətlər aşılamışdır. Səhnədən gələn cəhətlər-aydın diksiya, tələffüz, dinləyici auditoriyasını hiss etmək, səs diapazonu yüksək olmasa da məlahətli səsə malik Sarabskini musiqisevərlərə ürəkdən sevdirirdi. Eyni zamanda Sarabskinin bəstələdiyi "Muğan", "Dağlar", "Laylay" mahnıları da böyük sənətkarın musiqi yadigarlarıdır.

"Müsəlman opera truppası" və "Müsəlman dram truppası"nın yaradıcılarından biri olan H.Sarabski rejissor kimi Ü.Hacıbəyovun "Rüstəm və Söhrab" operasına, "Ər və arvad", "Arşın mal alan" operettalarına, C.Məmmədquluzadənin "Ölülər" komediyasına quruluş vermişdir. H.Sarabski dramaturgiya sahəsində də qələmini sınamış, 1906-cı ildə onun "Axtaran tapar", 1908-ci ildə "Cəhalət" pyesləri tamaşaya qoyulmuşdur. Aktyorun arxivində "Nə doğrarsan aşına, o çıxar qaşığına", II dünya müharibəsi dövründə yazıldığı təxmin edilən "Sayıq olmalı" dram əsərləri vardır.

Bakıda "Şərq konsertləri"ndə, Azərbaycanın hüdudlarından kənarda keçirilən konsertlərdə çıxış edən Sarabski mədəniyyət xadimi kimi də müəyyən işlər görürdü. O, 1932-ci ildə Respublika xalq yaradıcılığı evinin təşkilində yaxından iştirak etmiş və ömrünün axırına kimi onun rəhbəri vəzifəsində işləmişdir.

Öz sənətinin sirlərini gənclərə öyrətməyi, müəllimliyi şərəfli peşə kimi sevən Hüseynqulu Sarabski Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası), A.Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində (indiki Musiqi Kolleci) muğam sənətindən dərs demişdir. Azərbaycanın tanınmış müğənniləri və xanəndələri – Hüseynağa Hacıbababəyov, Məmmədtağı Bağırov, Əlövsət Sadıqov, Həqiqət Rzayeva, Şövkət Ələkbərova, Sara Qədimova, Tükəzban İsmayılova onun yetirmələri olmuşlar.

H.Sarabski 1945-ci il fevralın 16-da ölüm yatağında olarkən sənət dostları Qurban Pirimovu və Leyli rolunun ifaçısı müğənni Həqiqət Rzayevanı yanına çağırmış və gözlərini Qurbana dikərək titrək səslə deyir: "Qurban çal, son dəfə Leylini dinləmək istəyirəm". Qurbanın tarını, Həqiqətin səsini eşidən müğənni əbədi olaraq gözlərini yumur...

H.Sarabskinin öz dövrü haqqında xatirələri – "Köhnə Bakı", "Bir aktyorun xatirələri" kitabları da XX əsr Azərbaycan mədəniyyət tarixini öyrənmək üçün dəyərli, unikal məlumatlarla zəngin qiymətli mənbələrdir.



XX əsrin əvvəllərində Azərbaycan tarixinin çeşidli olaylarını – kiçik bir ailədən tutmuş, böyük bir şəhər həyatına kimi həmin dövrün müasirinin gözü ilə əks etdirən əsərlər o qədər də çox deyil. "Köhnə Bakı" sadəcə bir aktyorun xatirələri, onun diqqətini çəkən və maraqlandıran məqamların, hadisələrin cəlbedici, əsil bestseller üslublu təqdimatı deyil. Bu kitab Bakının ən əlamətdar, möhtəşəm tarixə dönmüş həyatının sanki "güzgüsüdür". Hüseynqulu Sarabski Bakının, özünün adlandırdığı kimi, "köhnə Bakının" rəngarəng, təkrarolunmaz boyalarla işlənmiş tarixi, bədii, kulturoloji-etnoqrafik səciyyəsini verir. Köhnə Bakı sanki yüz min bucaqdan işıqlandırılır: kitabı vərəqlədikcə, oxucu özünü səriştəli bələdçinin müşayiəti ilə virtual bir gəzintidə hiss edir. Köhnə Bakının, artıq həm adları, həm də özləri tarixə çevrilmiş darısqal, dolanbac küçə və döngələrini, bazar və binalarını gəzir, İçərişəhəri dolaşır. Burada yaşayan insanlarla görüşür. Onların həyatı, məişəti, dərdləri, sevincləri, zarafatları, işi-peşəsi ilə tanış olur. Bir sözlə, Bakının XX əsrin əvvəllərindəki tarixini, həyatını yaşayır.

Hüseynqulu Sarabski sənət adamı idi. Qüvvətli müşahidəçilik qabiliyyəti ilə Bakıda qeyd olunan bayramları, mərasimləri etnoqrafik təfərrüatları ilə çatdırır. H.Sarabskinin gözündən adi bakılı ailəsinin məişəti, olayları da yayınmır. Burada o, artıq ədib-yazıçı kimi çıxış edir: onun qələmə aldığı əhvalatlar kiçik hekayə-novellaları xatırladır.

Bütün dəbdəbəsi, rəngarəngliyi ilə ətraflı təsvir edilən Novruz bayramının ənənələri də böyük maraq doğurur, bayram şirniyyatlarının bişirilməsinin təsviri diqqəti cəlb edir. Süfrəsinin çeşidləri, uşaq və yeniyetmələrin əyləncələri, "Cızıq turnası" oyunu, bu oyun zamanı oxunan mahnılar, "Qələndər, ay qələndər" oyunu, axır çərşənbələr, səməni bişirmə...

Kitabda Bakı həyatının spesifik səhifələri – bağa köçmə, bağ məişəti, bağ oyunları ("Tağı külah, Nağı sər" oyunu), qocaların bağ məşğuliyyətləri və s. öz əksini tapır. Kitabın qəhrəmanları – Kəblə Novruzqulu, onun oğlu Kərim, Nurcahan xala, Gülpəri, qocalardan suraxanılı Əlbəndə oğlu Vəhşi, Qaraçı, maştağalı Ağa Nur Qəni, qalabəyi Qasım bəy, Prator adlı rüşvətxor pristav, qaçaq Bahadır oğlu Xanbala, qaçaq Ağa Rəhim nəvəsi Hüseynqulu, qaçaq Candadaş, Məşədi Püstə bacı kimi insanlar maraq doğurur. Köhnə Bakının böyük bir toy mərasiminin silsiləsi də elə gənc Gülpərinin taleyi baxımından açılır: qızı görmə, məşvərət, elçilik, kəbinkəsmə, cehiz, nişan, qız toyu, nəhayət oğlan toyu... Bütün bu mərhələləri H.Sarabski maraqlı bir həmsöhbət kimi incələyir. Adaxlıbazlığın maraqlı bir cəhəti də oxucunun diqqətini çəkir: "Suraxanıda, ümumiyyətlə, Azərbaycanda evlənmək adətlərində belə bir dəb var idi ki, adaxlı oğlan axşamlar qızı görmək üçün adaxlıbazlığa gedər, onunla söhbət edər, görüşər, yaylıqdakı şirnidən, qoğaldan verər və qayıdardı". Bu misralar Ü.Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasında

Məşədi İbadın adaxlıbazlığının bir el adəti olduğuna şahidlik edir. Bakı kəndlərində bəzən adamların həyatını əsil cəhənnəmə döndərən ədavət və qısqanclığın nümunəsi kimi H.Sarabskinin söylədiyi əhvalatlar da köhnə Bakı həyatının bir səhifəsi idi. H.Sarabski, ümumiyyətlə, Bakı kəndlərini – Suraxanı, Zabrat, Maştağa, Şüvəlan əhvalatlarını, o kəndlərin sakinlərini də qələmi ilə tarixin yaddaşına yazır. Adi sakinlərin həyat tarixçələrini, söz-söhbətlərini oxuduqca köhnə Bakının sanki əhvali-ruhiyyəsini hiss edirsən, adət etdiyin, bəzən də əsil mənasına varmadığın misalların, zərb-məsəl və kəlamların (məsələn, "hamam suyu ilə dost tutmaq"), kökünün haradan gəldiyini anlayır, necə deyərlər, kökünü tapırsan.

Bakıda məhərrəmlik vaxtı oynanılan şəbih tamaşaları haqda bilgilər, sadəcə adi oxucular üçün deyil, mütəxəssislər – musiqi tarixçiləri üçün də maraqlıdır. Məlum olduğu kimi, H.Sarabski özü də gəncliyində mərsiyə oxumuş, şəbihlərdə iştirak etmişdir. Ü.Hacıbəyovun Azərbaycanda milli operanın yaranmasına nümunə olmuş örnəklərdən biri adlandırdığı şəbihlərin icra tərzi, hazırlanması, məzmunu, ümumiyyətlə, doğurduğu emosional-bədii təsiri haqqında H.Sarabskinin yazdıqları mənbəşünaslıq materialı kimi elmi maraq doğurur.

Kitabda Azərbaycanda uşaq və gənclərin asudə vaxtlarını keçirmək üçün oynadığı oyunlar haqqında geniş məlumat verilir. Bu oyunların bir çoxu artıq tarixə çevrilib, bəziləriso bu gün də məişətdədir. Novruz bayramındakı "Mil", "Sino", "Zorxana", "Qundaq-qundaq", "Al bunu", "Bənövşə", "Yoldaş, səni kim apardı", "Habudu getdi, Şahbudu gəldi" oyunları da kitabda təsvir olunur; ümumilikdə, Sarabski 16 xalq oyununun icrası, xarakteri, məzmunu haqda məlumat verir. H.Sarabski hər bir oyunun qaydasını təfərrüatı ilə izah edir.

"Köhnə Bakı" əsəri müəllifin şəxsi müşahidələrinin nəticəsi olaraq 1938-ci ildə qələmə alınmışdır. Əsərdə keçən əsrin əvvəlindəki Bakı həyatının – mərasimlərin, oyunların, müxtəlif məişət lövhələrinin təsviri çağdaş dövrümüzün baxış bucağından daha maraqlı görünür və elə bu baxımdan da əsər indi də öz dəyərini və aktuallığını qoruyub saxlamaqdadır.

***Rəna Məmmədova***



# Köhnə Bakı

*Mən bakılıyam. 1879-cu ildə Bakının İçərişəhər adlanan hissəsində, Yeddilər məhəlləsinin məscidi sayılan Giley məscidi yaxınlığındakı evimizdə doğulmuşam. Bu ev ana babam Məşədi Rəhim Hüseyn oğlunun mülkü idi. Atam dənizdə işləyirdi. O zamanın gəmiləri əsas etibarilə yelkənli gəmilər idi. Onlarda çalışan fəhlələr çox sadə idilər, dörd təbəqəyə bölünürdülər:*

1. *Losman, yaxud ruşgah (indiki təbirlə komandir)*
2. *Bosman (losman köməkçisi)*
3. *Sükançı*
4. *Muzdurlar – gəminin qara fəhlələri (matroslar)*

*Atam da muzdur idi. Anadan olduğum gündən Bakı mühitində böyüyüb tərbiyə almışam. Bu mühit qaranlıq və mövhumatla zəhərlənmişdi. Dədə-babadan qalma bir çox adət və ənənələrlə sıx bağlı idim. Mənim uşaqlığım və gəncliyim bu mühit içərisində keçmişdir. Yarıməsrlik həyatımda bir çox hadisələrin şahidi olmuşam. İstər ata-babalarımızın adət və ənənələrində, istərsə də mənim müşahidələrimdə bir çox səciyyəvi cəhətlər vardır ki, həmin cəhətlər bugünkü gəncliyimiz üçün maraqsız olmaz. Eyni zamanda yeni cəmiyyət – sosializm cəmiyyəti qurarkən, mənhus həyatı öyrənmək, adamların vaxtlarını necə keçirdiyini, nələrdən zövq alıb, nələrdən kədərləndiyini öyrənmək faydasız olmaz. Buna görə də "Köhnə Bakı" adlandırdığım kitabda keçmiş Bakının adətlərini, məşğuliyyət və oyunlarının "qəhrəmanlarını" yazıçı olmasam da, qabiliyyətim daxilində təsvir etməyə çalışmıyam.*

**Bakı şəhəri.** Mənim burada təsvir edəcəyim Bakı, hazırda Sovetlər İttifaqında nüfuz, böyüklük və zənginlik etibarilə Qızıl Moskva və Leninqraddan sonra üçüncü yer tutan, yaxın gələcəkdə dünyanın böyük şəhərləri sırasına keçəcək sosialist Bakısı deyil, təxminən 50–60 il bundan əvvəlki, neft sənayesi sahəsində şöhrət qazanmış olsa da, həqiqətdə yoxsul, tozanaqlı kapitalist Bakısıdır.

Haqqında söhbət açdığım Bakı İçərişəhər və Bayırşəhər adları ilə iki hissəyə bölünürdü. İçərişəhər əsas idi. Hər şey burada yerləşmişdi. Bakının yerli əhalisi burada sakin olduğu kimi, bazar, böyük ticarətxanalar, əsnaf, hökumət idarələrinin çoxusu, məscidlər, hətta rus çarizminin istilasından sonra tikilən rus kilsəsi, əsgəri kazarma da burada yerləşirdi. Şəhərin bu hissəsi üç tərəfdən daş hasarla (bürclə) əhatə olunmuşdu (bu hasar indi də mövcuddur).

Babamdan eşitdiyimə görə, vaxtilə bu hasar ikiqat imiş, şəhəri yalnız qurudan deyil, dəniz tərəfdən də mühafizə edirmiş.

Mənim yaşımdan çox qabaq rus ordusu Bakını işğal etdikdən sonra, hasarın bir hissəsi sökülüb dağılmış, yalnız içəri hasar saxlanmışdır. Azərneftin binasından başlayaraq Kommunist küçəsinədək[1], Kommunist küçəsindən Zevin küçəsinədək[2], Zevin küçəsindən də dəniz qırağınadək bütün tikililər ikinci hasarın yerində salınmışdır. Qubernator bağı, Bakı şəhər Duması[3], Sənaye Politexnikumu[4], Azərbaycan Baş Soveti binası[5], Mədəniyyət sarayı[6], Sabir bağçası və başqa binalar birinci bürclə ikinci bürcün arasındakı açıqlıqda yerləşir.

---

[1] İstiqlaliyyət küçəsi (*red.*)

[2] Əziz Əliyev küçəsi (*red.*)

[3] Bakı Şəhər İcra Hakimiyyəti (*red.*)

[4] Azərbaycan Dövlət İqtisad Universiteti (*red.*)

[5] Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu (*red.*)

[6] İsmailiyyə binası (*red.*)

İçərişəhərin hazırda beş darvazası varsa, keçmişdə dörd darvaza var imiş. Birincisi Qoşa qala qapısıdır. Nənəm deyərdi ki, bu darvaza əvvəllər tək idi. Azərbaycanı istila edən general Sisianov həmin bu darvazadan Bakıya daxil olmaq istəyirmiş və Bakı xanının tapşırığı ilə bu darvazanın da qabağında öldürülmüşdür. O zaman darvaza indiki şəkildə deyilmiş, çox alçaq imiş, sonra Bakı bələdiyyəsi onu sökdürüb hazırkı şəkildə qoşa tikdirmişdir. Sabir bağçasının yanındakı Tək qala qapısını sonradan Bakı taciri və mülk sahibi Qatır Hacı Zeynalabdin açdırmışdır. "Qatır" ləqəbini ona qazandıran darvaza olmuşdur. Birinci dünya müharibəsi ərəfəsində vəfat etmiş Hacının Sabir bağçasının yerində və onun qarşısındakı Hüsü Hacıyev (sabiq Bazar) küçəsinin cənub tərəfində üz-üzə iki cərgə dükanları vardı. Bazardan bir qədər uzaq düşən, sakit və gediş-gəlişi olmayan yerdə heç kim Hacıdan dükan icarəyə götürmədiyindən Hacının dükanları uzun müddət boş qalır, Hacı boş qalmış dükanların xatiri üçün Bakı bələdiyyəsindən icazə alıb həmin darvazanı açdırır. Bazar küçəsində gediş-gəliş başlandığından Hacının dükanlarına müştəri tapılır. Belə "gözüaçıqlığı", "zirəkliyi" müqabilində Bakı camaatı ona "Qatır" ləqəbini vermişdi.

İçərişəhərin üçüncü darvazası indiki Sənaye Politexnikumunun (keçmiş Realni məktəb) həyətinə açılırdı. Həmin məktəb binasının yeri boş idi. Burada dağ kəndlərindən və Nəvahıdan kəl arabalarında, dəvələrlə taxıl, kömür gətirilib satılardı. Məktəb binası tikildikdə bu darvaza qapanıb, əvəzində Sənaye Politexnikumu ilə Bakı Soveti arasındakı dalanın qurtaracağında pilləkənlər tikildi.

Dördüncü darvaza Bakı Sovetinin cənubundakı böyük darvazadır. Darvaza əvvəllər çox alçaq idi, indiki şəklə sonradan salınmışdır. Beşinci darvaza İnqilab bağına açılan qapıdır.

Bayırşəhər hasardan bayırda olan hissəyə deyilirdi. Vaxtilə bakılılardan heç kim Bayırşəhərdə ev tikib yaşamaq istəməzmiş. Burada yerləşənlər, əsas etibarilə, ətraf kəndlərdən və başqa şəhərlərdən gələnlər idi. Buna görə də içərişəhərlilər bayırşəhərlilərə həqarətlə baxardılar. Onlara "ayaqyalın" bayırşəhərlilər deyərdilər.

İçərişəhərdə Cümə məscidinin qabağından başlayıb Qız qalasının yanından bir ucu Qoşa qala qapısına tərəf gedən küçəyə, o biri ucu isə Qız qalası tərəfdən dəniz kənarına çıxan küçəyə doğru uzanmış bazar vardı. Buradakı dükanların çox hissəsi, xüsusilə Qız qalasından Cümə məscidinədək olan dükanlar Üstüörtülü bazar idi. Qapıları yan tərəfə



deyil, aşağıdan yuxarıya qaldırılmaqla açılardı. Belə qapılara xəfəng deyərdilər.

Bazar iki hissəyə bölünürdü: Cümə məscidinin ətrafında olan hissə Aşağıbazar, Qız qalası yanında olan hissə Yuxarıbazar adlanırdı. Yuxarıbazara Üstüörtülü bazar da deyərdilər. Onun yalnız bir hissəsi örtülü sahəni tuturdu. O, Qız qalası yanından Çuxur karvansarayadək olan hissə idi. Dükanlar qarşı-qarşıya, iki cərgə olub üstüörtülü bir bina içinə sığışdırılmışdı. Burada böyük tacirlər, sərraflar yerləşmişdi.

Yuxarıbazarın qurtaracağında qarşı-qarşıya tikilmiş iki karvansara vardı ki, bunlara Qoşa karvansara deyərdilər. Aşağıbazarda xırda alış-verişçilər, baqqallar, dərzi və papaqçılar, Yuxarıbazarda isə bəzzazlar, xalçaçılar yerləşmişdilər.

İçərişəhər doqquz məhəllədən ibarət idi. Hər məhəllə bir məscidin adı ilə adlanardı. Cümə məscidi məhəlləsi, Şah məscidi məhəlləsi, Məhəmmədyar məscidi məhəlləsi, Hacı Qayıb məscidi məhəlləsi, Hamamçılar məscidi məhəlləsi, Sınıqqala məscidi məhəlləsi və Qasım bəy məscidi[1] məhəlləsi. Hər məhəllənin hökumət tərəfindən təsdiq edilmiş bir mollası vardı.

İçərişəhərdə üç mollaxana vardı ki, uşaqlar da orada dərs oxuyardılar. Bunlardan ən məşhuru Sınıqqala məscidində olan Mirzə Əsib Qüdsi mollaxanası idi. İkincisi kazarmanın yanındakı kiçik Çin məscidi idi. Həmin məsciddə Molla Fətulla mollaxanası, Şirin ovdan qabağındakı Şıx İbrahim məscidində Molla Nağının mollaxanası var idi. Hacı Qeyib hamamının yanındakı məsciddə Ağa Seyid dərs verərdi. O məscid indi də durur. Mirzə Həbib ilə Molla Fətullanın mollaxanaları 1905-ci il inqilabından sonra Bakıda "Nəşri maarif" və "Səadət" cəmiyyətlərinin İçərişəhərdə (birisi Hacı Banı məscidində, ikincisi Şah məscidində) bir məktəb açmasına baxmayaraq bu mollaxanalar hələ də qalırdı.

Bakı camaatı içməli su sarıdan həmişə çətinlik çəkirdi. Əvvəllər İçərişəhər camaatı Şirin ovdandan (abdan) istifadə edərdi. Ovdan indi də mövcuddur. O, Xan sarayının yanındakı kiçik bağçanın günbatan səmtindədir. Ovdanın nə zaman və kim tərəfindən tikildiyi məlum deyildir. Suyu şəhər xaricində kəhriz üsulu ilə qazılan quyulardan gəlirdi. Quyuların mənbəyinin haradan başlandığı mənə naməlumdur. Mənim bildiyim bu qədərdir ki, Qarakolluq deyilən yerdən Yuxarı qəbiristan (Verxni qladbişinski) küçəsinin yuxarısından yeraltı su borusu çəkil-

[1] Bazar küçəsindəki böyük Qasım bəy məscidi başqadır.

mişdi. Ona Nağı kühulu deyərdilər. Quyuların suyu həmin boru vasitəsilə gəlib İçərişəhərdəki ovdanla Şirin hamama axardı (Şirin hamam keçmiş Şirvanşahlar tikililərindən olub, Xan sarayının yanındakı kiçik bağçanın yerində idi).

Bununla əlaqədar olaraq, bir nəfəri xatırlamamaq olmaz. Bu adamın köhnə bakılılar üçün qiyməti olduqca çoxdur. İçərişəhərlilərin su təminatı onun fədakarlığından asılı idi. Onu hamı Cümrü Ağamalı çağırardı. Həmin şəxs kiçikboylu, zirək, cəld hərəkətli, qarabuğdayı bir adamdı. Peşəsi yox idi. Arada gəzib dolaşardı. Ev-eşiyi, ailəsi yox idi. Hamı işini ona gördürər və əvəzində mükafat verərdi. Həyət süpürər, qanov təmizləyər, hacətxana quyusu açar, yaxın qonşular üçün bazara gedər, odun doğrayıb su daşıyardı. Xeyir-şərdə can-başla iştirak edərdi. Toylarda oynar, el mahnıları oxuyardı. Başının tən ortasında kəkili olardı. Cümrü Ağamalının qiyməti onun xırda-xuruş işlərində deyildi. Bəzən elə hallar olardı ki, Şirin ovdanın suyu kəsilərdi. Bu zaman Cümrü Ağamalı qollarını çirməyib işə girişərdi. Fənər işığı ilə ovdanın içində bir taxça ağızı böyüklüyündə olan su yoluna girər, bir neçə saat sonra Nağı kühulundan çıxardı. Beləliklə, o, su yolunu təmizləmiş olardı. Zəhmətinin müqabilində Cümrü Ağamalı heç bir mükafat tələb etməzdi. O bu işi ancaq savab xatirinə gördüyünü söylərdi. Cümrü Ağamalı öldükdən sonra heç kim onun işini bacarmadığından Şirin ovdanın su yolu tutulub bağlandı. Buna görə ona "Həzar peşə, kəm maya", yəni "mayası yox, peşəsi çox" ləqəbi verilmişdi.

* * *

Bakının cənub tərəfində dənizə doğru uzanan iki burun vardır. Bunlardan birincisi Bayıl burnu, ikincisi Bibiheybət burnudur. Bakılılar onu Qırxqızlar adlandırardılar. Əfsanəyə görə, orada qırx qız qeyb olmuşdur, onlar hər zaman ağlayır, səsləri də guya eşidilməkdədir. Qayalar arasından sızılan damlalar da onların göz yaşlarıdır.

Qırxqızlar burnundan bir qədər cənuba tərəf Puta, Badamdar, Şağanbağ, Alacıq deyilən yerlər gəlir. Bu yerlərin daşları məşhurdur. Bakının ali imarətlərinə sərf edilən ağ daş buradan gətirilir. Keçmiş zamanda hətta, araba yolu da olmadığından daşları şəhərə dəvələrlə daşıyardılar. Oradan Bakının günbatan tərəfinə döndükdə qarşıya bir uçurum çıxardı. Uçurumun adı Yasamaldır. Yasamalın arxasında Korgöz, Şubanı dağları, Güldər dərəsi var.



Şəhərin kənarında (hazırda şəhərin içərisində) Pirvənzəli deyilən çapılmış dik bir daş vardı. Vaxtilə qadınlar cümə günləri xoş bahar havalarında ziyarət adı ilə oraya gəzməyə gedərdilər. Pirvənzəlidə ciyər kababı bişirmək bir adət halını almışdı.

Pirvənzəlidən aşağı, şəhərin qıraq hissəsinə Çənbərəkənd deyərdilər. Bir vaxtlar o, şəhərə yaxın bir kənd imiş. Bakının ətraf kəndlərindən bir parça çörəkpulu qazanmaq məqsədilə şəhərə köçüb gələn yoxsullar burada özlərinə yurd salıb yaşarmışlar. Deyilənlərə görə damazlıq saxladıqları mal-qaranın peyinini çənbərə basıb qışda yandırmaq üçün qurutduqlarından, hər addımda belə çənbərələrə təsadüf edildiyindən kənd Çənbərəkənd adlandırılmışdır.

Bakının ətrafında otuz səkkiz kənd vardır. Bu kəndlərin hamısı əkinçilik, bağçılıq və qoyunçuluqla məşğul olardı. Hətta neft mədənləri arasında yerləşən Balaxanı, Sabunçu, Ramana və başqa kəndlərdə yaşayanların əksəriyyətinin fəhlə sifətilə mədənlərdə işləmələrinə baxmayaraq, kəndçilikdən əl çəkməmişdilər. Bakı ətrafındakı kəndlərin bir qismində Azərbaycanın çox yerində olduğu kimi, bir çox pirlər, ocaqlar, ziyarətgahlar vardı. Bunların çoxu tərk olub dağılsa da, vaxtilə onlarda böyük şənlik olardı. Hər pirin, ocağın bir "kəraməti" var idi.

Qorxudan xəstələnəni Maştağadakı Çıldaq pirinə, doğmayan arvadları Novxanıdakı Ağ daş pirinə, əl-ayağını yel tutan xəstəni isə Qalaya (Pirvəro) aparardılar.

Pirlərdən başqa, Bakı kəndlərində bir çox abidələr vardı. Bunlardan Suraxanıdakı "Usta şəyirdi"ni qeyd etmək olar.

Suraxanıdan Mərdəkan bağlarına gedən yolun iki tərəfində bir-birindən əlli-altmış addım məsafədə qarşı-qarşıya daşdan tikilmiş iki daxma vardı. Bunlardan biri indi də durur. Deyilənlərə görə Suraxanıda bir bənna varmış. O, bir gənci illər uzunu əli altında şəyird adı ilə işlədər və müstəqil işləməsinə imkan verməzmiş. Hər zaman şəyird öz ustasından bu barədə müsaidə istərdisə də dargöz usta: "Səndə hələ bənna olmağa ləyaqət yoxdur, mən sənə ev tikmək ixtiyarı verə bilmərəm", – deyərmiş. Bunun üstündə usta ilə şəyirdi arasında bir ixtilaf baş verir. Kəndin ağsaqqalları bu ixtilafı belə həll edirlər: hər biri bir günün ərzində eyni biçimdə bir ev tiksin. Əgər şəyird ustasından geri qalmazsa, onun tikdiyi evdə ağsaqqallar bir nöqsan tapmazlarsa, onda şəyirdə bənnalıq haqqı verilsin.

Yarışa çıxan usta ilə şəyird – birisi yolun sağında, digəri isə solunda bir daxma tikirlər. Bu vasitə ilə özünə haqq qazandıran şəyirdin tikdiyi daxma uzun zaman davam edib durduğu halda, dargöz ustanın tikdiyi daxma dağılıb gedir. Şəyirdin tikdiyi daxma indi də durur.

Binə kəndindən Saray bağlarının ətəyinədək uzanan düzəngaha Təmənnis deyərdilər. Keçmişdə orada taxıl əkərdilər. Təmənnislə Maştağa arasında olan yer nə səbəbdənsə Hacı Sadıq düzü adlanırdı. Oraya Bilgəh bağlarından yol var. Maştağa bağlarının şəhərə tərəf uzanan ətəklərinə Dərəqılınc adı verilir. Bir az bəridə Zabrat, Balaxanı, Sabunçu, Bülbülə, Xilə[1] yerləşmişdir. Sabunçunun üst tərəfi Kirməkidir. Sabunçudan bir az aşağı Binə kəndidir. Kirməki ilə Sabunçu arasında bir göl vardır ki, ona Şorgöl deyirlər. Oradan bolluca duz çıxarılırdı.

Biləcəri kəndi və Binəqədi isə neft yerləridir.

Buzovnada, dəniz kənarında bir sövmiyə var, ona Əli ayağı deyirlər. İrandan gəlmiş hiyləgər abidlərdən biri yay vaxtı qaya üstündə yatıbmış. Durub gedəndə o orada bir ayaq ləpiri qazımışdır. Sonra əhali içərisinə girərək qəsdən belə bir şayiə yaymışdır ki, guya o, yatarkən yuxuda Həzrət Əlinin oradan keçdiyini görmüşdür. Ayılıb yanında bir ayaq izi görmüşdür ki, bu da guya Əlinin ayağının ləpiridir. Belə sözlərə inanan avam və cahil əhali həmin ləpirin üstündə bir sövmiyə tikib adını "Əli ayağı" qoymuşdur.

Bakılılar bütün Azərbaycan xalqı kimi səxavətli, qonaqpərvər, üzügülər, bacarıqlı, igid, çalıb-oxumaq və oynamaq sevən, öz qonşularının dərdinə qalan, qəriblərə hörmət edən, əlsiz-ayaqsızların dadına çatan, xeyirdə-şərdə bir-birinə kömək edən və bir-birini sevən adamlardır.

Şəhərin içində əhali çox olduğundan, onlar tədricən şəhərin bayırında evlər və daha sonra məhəllələr salmağa başladılar. İçərişəhərdən bir qədər yuxarı, indiki Təzəpir küçəsində bir nəfər özünə su quyusu qazdıqda, yer altından bir qəbir çıxmışdı. Əhalinin avam və mövhumatçı hissəsi buna dini bir rəng verib ziyarətgah adlandırmış və adını da Təzəpir qoymuşdu. Şeyx Əbusəid adlı birisi onun yerində tezliklə bir məscid tikərək dövrəsini hasarlamış və buranı pir adlandırmışdır. Məscidin ətrafında salınan evlərin yerləşdiyi məhəlləyə son zamanlara qədər Təzəpir məhəllәsi deyilirdi. Bu məhəllədən yuxarı usta Hüseynqulu adlı kankan özü üçün bir quyu qazmışdır. Quyunun suyu şirin

[1] Əmircan kəndi



çıxır. Buna görə də quyunun ətrafında tezliklə evlər tikilir və məhəllə salınır. Məhəlləyə əhali elə o zamandan Hüseynqulu bulağı məhəlləsi adını vermişdi. Bakının Məhəmmədli kəndindən köçərilər gəlib həmin məhəllənin cənub tərəfində məskən salmışdılar. Bu səbəbdən də o məhəlləyə Məhəmmədli məhəlləsi deyirlər. Məhəmmədli məhəlləsindən aşağı olan yer çuxur olduğu üçün axan sellər oraya tökülürmüş. Su orada çox qaldığından palçıq əmələ gətirərmiş. Buna görə də ona Palçıqlı məhəllə deyərmişlər. Palçıqlı məhəllədən bir qədər şimal-şərqdə çoxlu kərpic basıldığı üçün o yeri Kərpicbasan məhəlləsi adlanşmışlar. Bir dəfə Kərpicbasandan yuxarı, dağa tərəf, lap dikin üstündə dırmışlar. Bir dəfə Kərpicbasandan yuxarı, dağa tərəf, lap dikin üstündə bir nəfər öldürülür və bu səbəbdən də təpəni "Qanlıtəpə" adlandırırlar.

Şamaxı və Quba yollarından və bütün yuxarıda saydığımız məhəllələrdən aşağıda – bir meydançada o zaman həftəbazarı olardı. Malların çoxu Qubadan gətirildiyi üçün ona Quba meydanı deyərdilər. Bakıda, ümumiyyətlə peşəkarlar: bənna, xarrat, dəmirçi, rəngsaz, malakeş, daşyonan, daşçıxaran, qırbasan, quyuqazıyan, nalbənd, qundaqsaz, bıçaqçı, başmaqçı, keçəçi, dabbaq, dərzi, xəncərsaz, xalçaçı, zərgər, papaqçı, saatsaz, minasaz, dəllək, boyaqçı və başqa sənətkarlar çox olardı.

Əhalinin bir qismi kənd təsərrüfatı – əkinçilik, bağçılıq, dəyirmançılıq, atçılıq və maldarlıqla, bir qismi də xırda ticarətlə – çayçılıq, kababçılıq, qənnadıçılıq, halvaçılıq, çörəkçilik, hamamçılıq, baqqallıq, bəzzazlıqla məşğul olardı. Bakıda iri ticarətlə məşğul olan düyüçülər, xuşgəbarçılar, ipəkçilər, xalçaçılar, qənd-çay alış-verişi edənlər, qara neft satanlar da az deyildi. Onların bir çoxu İranda alış-veriş edərmiş.

**Novruz bayramı.** Novruz bayramı Bakıda Qurban və Orucluq bayramlarından dəfələrlə artıq bir təntənə ilə keçirilərdi. Novruzu bir ay əvvəldən qarşılamaq Bakıda bir adət idi. Həftənin çərşənbə axşamı hər evin həyətində və yaxud darvazası ağzında tonqal qalanardı, arvadlar tonqala üzərlik töküb bu sözləri oxuyardılar:

Üzərliksən, havasan,
Cəmi dərdə davasan.
Hər yerdə sən yanarsan,
Qada-bala apararsan...

Bakıda gəmiçilik edən, dənizdə işləyən çox olardı. Elə buna görə də oğlu dənizdə olan bir ana, əri dənizdə olan bir arvad və ya atasının

səfərdən qayıtmasını gözləyən bir uşaq yuxarıdakı sözlərə bu misraları da əlavə edərdi:

Əs xəzri, mən də verim nəziri,
Əs gilavar, əs qadasın aldığım,
Xəzri yat, gilavar gəl.

Yaxud

Gilavar yat, xəzri gəl.
Atam (yaxud oğlum, ərim), gəlsin səfərdən...

**Çərşənbə gecələri xonça düzəltmək, şam yandırmaq adəti.** Novruza iki həftə, on gün qalmış hər kəs öz halına görə bir hazırlıq görərdi. Qapı-bacanı əhənglə ağartmaq, evlərin bayır-bacasını süpürmək, palaz-xalçanı çırpıb təmizləmək, evi, otağı səliqəyə salmaq, yeni ili bir təmizlik içərisində qarşılamaq ümumi bir adət idi.

Varlı, tacir və alverçilərin hazırlığı daha geniş olardı. Onlar bayrama xüsusi şəkərçörəyi, badamçörəyi, paxlava və sair bu kimi şirniyyat bişirib hazırlardılar. Belə şirniyyat bişirməyə imkanı olmayanlar bayramı sadəcə xuşgəbarla keçirərdilər.

Bir həftə əvvəldən, istər Aşağıbazarda, istərsə də Yuxarıbazarda bir canlanma müşahidə edilərdi. Baqqallar dükanlarını güzgülərlə, Firdovsinin "Şahnamə"sindən alınaraq ağ parça üstündə çəkilmiş cürbəcür rəsmlər, kağız fanuslarla bəzərdilər. Hər dükançı qapısından böyük bir zəng asardı. Onu çalaraq malını təriflədiyi kimi, yola saldığı müştərisinin arxasınca da zəngi təkrar çalardı.

Bayrama bir neçə gün qalmış məhəllə uşaqları həyətləri gəzməklə "Kosa-kosa" adlanan xüsusi bir oyun oynar, tamaşaçılardan xuşgəbar, pul toplardılar.

Rəqs etməyi bacaran bir uşağın əyninə tərsinə çevrilmiş bir kürk geydirərdilər. Üzünə kağızdan qayrılmış üzlük (maska) taxıb başına da kəllə qənd kağızından uzun şişpapaq qoyardılar. Belinə zınqırovlu bir kəmər bağlanardı. Boynundan da zınqırovlar asardılar. Məhəllə uşaqları kosanı araya alıb, həyətləri gəzərək xüsusi bir hava ilə aşağıdakı sözləri oxuyardılar. Kosa isə oynardı.





*Od üstündən tullanmaq*

A Kosa-kosa gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Kosanı yola salsana.

* * *

Ay uyruğu, uyruğu,
Saqqalı it quyruğu.
Kosam bir oyun eylər,
Quzunu qoyun eylər,
Yığar Şabran düyüsün,
Mahmudun toyun eylər.

* * *

Novruz, Novruz bahara,
Güllər-güllər nahara,
Bağçanızda gül olsun,
Gül olsun, bülbül olsun,
Bal olsun, həm yağ olsun,
Evdəkilər sağ olsun.
Verənə oğul versin,
Verməyənə qız versin,
Xanım dursun ayağa,
Kosanın payın versin.

* * *

Mərmər hovuzun dörd qırağında,
Bülbüllər oxur şax budağında.
Hər nə istəsəm xudadan allam,
Dəllək dükanını yadına sallam.
Dəllək dükanı bütün çıraqban,
Məclisə gedər əlində qəlyan.
Qurbanın olum, yaşıl çuxalı,
Dərbəndlisən, yoxsa buralı?



*Kosa-kosa*

Bu nəğmə ilə qaytağı oynayan Kosa "Kosa mürd" söyləndikdə yerə yıxılıb uzanardı. Onunla aşağıdakı sual-cavab başlanardı:

– Kosa, hardan gəlmisən?
– Qubadan.
– Nə gətirmişdin?
– Qax, qoz!
– Qax, qozu neylədin?
– Satdım.
– Pulunu neylədin?
– Arvad aldım.
– Arvadı bəs neylədin?
– Döydüm öldü!..

Kosanın bu sözünə cavab olaraq, yenə xor halında aşağıdakı sözlər oxunardı.

Başın sağ olsun, Kosa,
Canın sağ olsun, Kosa.
Arşın uzun, bez qısa
Kəfənsiz öldün, Kosa.

Sonra uşaqlar iki dəstəyə ayrılardı. Birinci dəstə aşağıdakı sözləri oxuduqca ikinci dəstə həmin sözləri təkrar edərdi:

Bazarda üzüm,
Mələk salmanı.
Nimçəyə düzüm,
Mələk salmanı.
Bir ala gözüm,
Mələk salmanı.
Bazarda dibçək,
Mələk salmanı.
Al suyun içək,
Mələk salmanı.
Sallama birçək,
Mələk salmanı.
Bazarda it var,
Mələk salmanı.



Quyruğunda bit var,
Mələk salmanı.
Təndirdəküt var,
Mələk salmanı.

Mahnılar bitdikdən sonra Kosa papağını açıb ev yiyəsindən və başqalarından pay yığar, uşaqlarla aşağıdakı mahnını oxuya-oxuya həyətdən çıxardı:

Bahar gəldi, bahar gəldi, xoş gəldi,
Xəstə könül onu görcək dincəldi.
Sizin bu təzə bayramınız mübarək,
Ayınız, gününüz, həftəniz mübarək.

Bayramda damları gəzib nünnünü getmək adəti də vardı. Bakı evlərinin əksəriyyəti alçaq, bir mərtəbəli evlər olduğundan küçədən onların damına çıxmaq asan idi. Nünnünü gedən adam ip ucuna kiçik bir torba bağlar, onu mətbəxin bacasından (əgər mətbəxdə adam olarsa) və ya sadəcə, evin damından, bacasından evə sallar, özünü tanıtdırmamaq məqsədilə şəhadət barmağını burnuna vurmaqla nünnünü səsi çıxarıb ev yiyəsini xəbərdar edərdi. Belə nünnünü gəzənlər qətiyyən boş qaytarılmazdı. Onların torbasına hökmən bir şey salmaq lazım idi.

Bayram axşamları arvadlar əlvan xonçalarla qəbiristanlığa gedərdilər. Qəbiristanda hər kəs öz xonçasını ölüsünün qəbri üzərinə düzər və sonra oxşayıb ağlamağa başlardı.

Görərdin ki, bir qadın ucadan oxşayır:

– Əlinin gümüş qələminə, başının oynaq papağına, ağır gəlişinə anan qurban.

Bir başqası onun ağzından alardı:

– Qıfıllı qapına, bəzənməyən süfrənə, yanmayan çırağına, başı bəlalı xalan qurban.

Arabir bayatı da deyərdilər:

Gəlmişəm görəm səni,
Dərmişəm hörəm səni,
Əlimdə açarım yox,
Bir açam görəm səni.

* * *

Arxamı dağa verrəm,
Dağdan da dağa verrəm,
Bilsəm haçan gələrsən,
Canım sadağa verrəm.

* * *

Mən aşiq adı qardaş,
Ağzımın dadı qardaş.
Çağırram hay verməzsən,
Tutaram yadı qardaş.

Qəbir üstündə qadınların ürək yandıran oxşama səsləri, mollaların Quran və yasin oxumaları ölgün şüalar saçan günəşin dağlar arxasında gizlənməsinə qədər davam edərdi. Sonra hər kəs öz evinə qayıdardı.

Bayram axşamının gecəsi bütün ailə evə toplaşardı. Qələmkar süfrə ortalığa döşənərdi. Evin yuxarı başında uşaqların atası üçün xüsusi döşəkcə salınardı. Süfrə üstə hazırlanmış xonçaya əl uzatmağa kimsənin ixtiyarı yox idi. Kiçik yaşlı uşaqlardan birisi ara-sıra xına ilə boyanmış əlini yemiş götürmək üçün qorxa-qorxa xonçaya uzatdıqda, böyük bacısı onun əli üstə vurub yavaş səslə: "çək əlini, ağa döyər", – deyib onu qorxudardı. Evin kişisi icazə verməyincə heç kəsin ixtiyarı yoxdu ki, əlini xonçaya uzatsın. Kişi isə hələ məşğuldur. O, bir bucaqda salınmış qələmkar canamaz üstə qiraətlə namaz qılır. Onun qırxılmış başında paxlava çəkili ağ araqçın, əynində qara şaldan beli büzməli don, tirmə döşlüklü, belində ağbanı qurşaq, ayağında gen lifəli qara mahud şalvar və qırmızı badamı putalı corab vardır. O, heç tələsmir, namazını bitirdikdən sonra "Həvvil halənə ila əhsənül hal" duasını oxuyur. Bu halda 18 yaşlı böyük oğul tələsik evə daxil olub, küçələrdə tüfəng atıldığını, beləliklə ilin təhvil olduğunu xəbər verir. Ata qoltuğundan üstü güləbətin çəkili saat qabını çıxarır, gümüş saatının qapağını açıb saata baxır, ilin təhvil olmasına hələ bir neçə dəqiqə qaldığını bildirir, canamazı büküb yığışdırır. İrəli gəlib süfrə başında salınmış döşəkcə üstə oturaraq, arxasına qoyulmuş nazbalışa söykənir. Hamı xonçanın başına toplaşdıqdan sonra bir qədər bayram yeməyindən yeyir, anaları südlüplov qazanını yerə qoyur, hər uşağın payını öz boşqabına tökərək verir. Südlüplov yeyildikdən sonra süfrə yığılır.



Sübh açıla-açılmaya məscidlərin minarələrindən sübh azanının səsi eşidilərdi. İçərişəhərdə Cümə məscidində Molla Qasım adlı bir azançı var idi. Hündürboylu, qarasaqqallı olan bu şəxsin başında ağ, Təbriz araqçını olardı. Hərdənbir şəbkülah da qoyardı. Döşüaçıq kəyanisi topuğundan bir qarış yuxarı, qırmızıya çalan sarı döşlüyü, belində üstü sarı ipəklə çəkilmiş naxışlı ağ qurşağı, qıçında genbalaqlı ağ kətandan, lifəli yalınqat tumanı var idi. Ayağına qara meşindən dikdaban Təbriz dübəndisi və bəzi vaxt sarı rəngli nəleyin geyərdi. Həmin şəxs əcaib bir şəxs idi. Günə baxmaqla vaxtı düzgün söylərdi. İttifaqən birisi ondan soruşsaydı ki, Molla Qasım əmi, saat neçədir? – Günə baxıb deyərdi: – Saat on birdir. Saata baxdıqda isə düz on bir tamam olduğunu görərdilər. Onun gur səsi vardı. Qədim musiqiçilər bilər. Bu adam "Rühül-ərvah", "Dügah", "Nəva" (klassik muğam adlarıdır – *red.*) ilə azan verərdi. Molla Qasımın azanı Bakı camaatını yuxudan oyadardı. Şəhərdə yavaş-yavaş həyat canlanardı. Küçələrdə uşaqların rəngbərəng paltarları, xınaya boyanmış kəkil-birçəkləri, heydərili başları və tinlərdə dəstə-dəstə olub, əlvan yumurta döyüşdürənlər gözə çarpardı. Ara-sıra tapança da atılardı.

**Bayram günü evlərdə**. Bayram günü həyət və otaq qapılarının açıq saxlanması ev sahibinin evdə olduğunu bildirərdi. Həyətlərin bəziləri qırlı, bəziləri boş torpaq olardı. Bəzi həyətlərdə su quyusu və çarhovuz görünərdi.

Həyətin o biri tərəfində nazik bir daş divarboyu qapı-pəncərəsi bir-birindən hündür, alçaq damı, şirəli mətbəx, yanında isə dörd bir tərəfi metr yarım əhənglənmiş toyuq hini, bəzi həyətlərdə it damı da görmək olardı. Mətbəxin damında əhənglə ağardılmış qoşa alçaq bacalar nəzəri cəlb edərdi. Mətbəxdə mütləq təndir, biri böyük, digəri kiçik iki ocaq, bir kürə olardı. Mətbəxin divarlarında xırda taxçalar, təndirlə üzbəüz divarın içində beş çərək enində üç arşın hündürlüyü olan suaxan görmək olardı. Suaxan nədir? Uşaqları çox vaxt burada çimdirib yuyundurardılar. Suyu böyük mis qazanda isidərdilər. Bəzən, gecə ev sahibləri də burada yuyunardı. Mətbəxin taxçalarında, təndir üstə qazan, yuxayayan, mis qablar, aşsüzən, divara söykənmiş məcməyilər, üstündə ət döymək üçün ət taxtası, qiyməkeş, taxtadan qayrılmış hövsər tabağı, yenə o böyüklükdə, bir çərək dərinliyində xəmir tabağı, divarlarda asılmış ələk, xəlbir, qaşıq, səbət və şalbanlardan asılan qış-



*Köhnə bakılılar*

dan qalmış balqabaq, kudu, rısa ilə soğan, quru sərdabı balıq, dəstə ilə qurumuş qarğıdalı, narın süpürgə, bezdən qab dəsmalları nəzərə çarpardı. Evin kənarında (başmaq çıxarılan yer) palaz parçası salınardı. *Otaq qiymətli xalılarla döşənərdi. Divarları ağardılmış otağın küncləri* xırda döşəkçələr (dör döşəyi), bəzən də Təbrizdən və Ərdəbildən gətirilmiş ağ, abı butalı kiftandazlarla döşənərdi. Otağın divarlarındakı camaxatanda, böyük sandıqların üstə ipək, zər-zərüzlü əlvan yorğan-döşəklər və qu tüklü balışlar düzülərdi. Taxçalarda xırda mücrülərin üstündə əlvan, çin-çin ipək boğçalar qoyulardı. İki camaxatanın arasında, döşəmədən bir qədər yuxarı, bir cüt bədənnüma ayna, iki taxçanın arasında divar saatı, saatın sağ və solunda maral başları, həyətə açılmış pəncərələrin sütunlarında isə qırmızı xoruz şəkilli ağ, əl-üz dəsmalları asılardı. Burada ara-sıra məxmər, üstündə güləbətin çəkilmiş daraqqabı, saatqabı da nəzəri cəlb edərdi.

Otağın bütün divarlarında ləmə olardı. Ləməyə ikiçin əlvan-zərli çini kasa və boşqab düzülərdi.

Ləməyə bəzən bürünc aftafa-ləyən, çini gülabzən, dayaz düşbəroxor (supnik), dərin plov nimçələri və bəzən də əlvan, yağlı boyalarla çəkilən rəsmlərlə bəzənmiş dəmir podnoslar düzülərdi. Ləmənin küncləri böyük düşbəroxor və qeyri bu kimi ev ləvazimatı ilə bəzənərdi. Pəncərədən sarı şamdanlar, bəzi evlərdə isə saxsıdan çil-çıraq (tunc rəngli) asılardı. Evin ortasına, xalının üstünə böyük qələmkar süfrə döşənərdi. Süfrəyə zərli nimçələrdə şəkərçörəyi, şəkərbura, paxlava, noğul, nabat, püstə, badam, əlvan boyanmış yumurta, kasalarda islanmış albuxara, – bunu yemək üçün naxışlı taxta qaşıqlar düzərdilər. Süfrənin ortasında ara-sıra boşqablarda yaşıl səməni qoyardılar. Səməni bayramdan bir həftə qabaq isti otaqlarda, nimçələrdə bir qarış göyərdərdilər. Yuxarıda saydığımız şirniyyatlardan başqa, süfrədə tut qurusu, miyanpur, innab, ləbləbi, kişmiş, səbzə, alma, portağal da olardı. Evdə bayram görüşünə gələnləri qəbul etmək üçün evin ya böyük oğlu, ya bacıoğlu, yainki, qardaşoğlu təmiz, yeni bayram paltarını geyib, xınalı əlində gülabzən qapı ağzında, əli döşündə, ayaq üstə dayanıb, gələnlərin əlinə gülab səpər, görüşdükdən sonra onlara yer təklif edərdi. Ev sahibi him-cimlə həmin adama işarə edərdi ki, qonaq üçün çay gətirsin. Bayram zamanı hil, darçın, zəncəfil, qəhvə çayı da vermək adət idi. Bundan əlavə, şərbət də verərdilər. Bayram görüşünə gələnlərə süfrədə olan şirniyyatdan yeməyi təklif edər və onlarla söh-

bətə başlardılar. Bu zaman yan otaqdan evin kiçik uşaqları, yeniyetmə qızlar, uşaqların anası, gələnin kim olduğunu bilmək üçün qapı arasından baxardılar. O dəqiqə uşaqların üst-başını qaydaya salıb Kəblə Novruzqulu əmi ilə bayramlaşmağa göndərərdilər. Uşaqların gəldiyini görən Kəblə Novruzqulu qollarını uşaqlara doğru uzadıb barmaqlarını tərpədərək özünə tərəf çağırardı.

– Po... qədə... qədə... qədə... gəl əminin yanına...

Uşaqlar da utanar, bir ayağı gedər, bir ayağı getməz bir-birini itələyərək, onun yanına gələrdilər. Kəblə Novruzqulu bunları öpüb, sığallayıb, hərəsinin ovcuna bir ağ pul bayramlıq basardı. Bayramlaşmağa gələnlər yerin azaldığını görüb xudahafizləşib gedərdilər ki, başqa gələnlər üçün yer açılsın. Bayram bu qayda ilə üç gün davam edərdi.

Üç gündən sonra qadınlar işə başlardı. Bir həftə də qadınlar bayram edərdi. Novruzdan bir ay və ya ay yarım keçməmiş hər məhəllənin cahılları pul qoyub şəhərin ətrafına seyrə çıxardılar. Bu yerlər: Yasamal üstü, Biləcəri qayası, Pirvənzəli üstü və Bibiheybətdən ibarət idi. Burada da onlar bəzən həftələrlə çalıb-oynamaqla vaxtlarını keçirərdilər. O yerə qonaq gedən gənclər, xəcalətli olmamaq üçün ya bir kəllə qənd, bir girvənkə çay, ya bir qoyun, ya da ki, bir dəstə çalğıçı aparardılar. O zaman əsas etibarilə Quba meydanı, Kömür meydanı, Şamaxı yolundan ibarət olan geniş meydançalarda çox vaxt Dağıstandan gəlmiş cavanlar camaata tamaşa verərdilər. Onlar iki möhkəm şalbanı bir-birinə çatıb yerə maili surətdə basdırdıqdan sonra ikisini də eləcə 10-15 metr məsafədən sancardılar. Sonra şalbanların yuxarıdakı haçalarına kəndir bağlayıb birindən o birinə uzadardılar. Tarım çəkəndən sonra həmin kəndiri möhkəmcə bağlardılar.

Bir gənc əlinə uzun, şüvül bir ağac – müvazinət ağacı (ləngər) alaraq, ip üstə qalxar, zurnaçının çaldığı havanın ahəngi ilə kəndirin üstündə rəqs edərdi. Kəndir üstə oynanan rəqslər "Qaytağı", "Təkçalma" və sairədir. Rəqslərin ahəngi altında oynayana və atılıb düşənə rustambaz və ya kəndirbaz deyərdilər. Onun təlxəyi də olardı. O, çuxanı tərsinə geyib boynundan və qollarından zınqırov asar, üzünə dəridən bir üzlük taxıb aşağıda oyun çıxarar və yamsılamaqla pul yığardı. Təlxək hərdən yuxarıya xitabən:

Can qardaş!
Hünər kimin üçündür?
Hünər sənin üçündür.



Əgər sən ip üstündə bir "Qaytağı" oynasan bura yığılan ağalar bizə cib xərcliyi verərlər. Usta, balabanı köklə!

Bu qayda ilə oyun uzun zaman davam edərdi.

Bayram günlərində oyunlardan biri də cızıq turnası oyunu idi.

**"Cızıq turnası" oyunu.** Geniş küçələrin birində, yerdə 5-6 kvadrat sajın dövrə çəkərdilər. Cızıq turnası oyununda iştirak edənlər iki dəstəyə bölünərdi. Çevrənin kənarında olan uşaqların əlində turna olardı. (Uşaqlar qurşaqlarını bellərindən açıb eşər, düyünlərdilər ki, ona da turna deyərdilər). Onlar çalışmalı idilər ki, kənardakılara təpik vursunlar, kənardakılar isə əllərində olan turna ilə daxildəkiləri döysünlər. Fəqət hər kəs ayağını cızıqdan içəri və ya kənara qoysaydı, onu vurardılar ki, içəri girsin və yaxud ayağını xaricə qoysaydı, onu da turna ilə döyərək içəri qovardılar. Əgər xaricdəkilərdən birinə təpik dəysəydi, o zaman dəstələr yerlərini dəyişməli idilər. Bu oyuna cızıq turnası deyərdilər. Cızığın içinə girməyə birinci dəfə heç kəs razı olmazdı. Bu səbəbdən cızıq turnası oyununun mahnısı vardı. Həmin mahnının axırıncı kəlməsi hansı dəstəyə düşsəydi, o dəstə azad idi. O biri dəstə cızığın içərisinə girməli idi.

Motala – motal, tərsə motal,
Yağ atar, qaymaq tutar.
Hacı oğlu Mustafanın,
Qoltuğunda bir top atar.

* * *

Əkil-bəkil quş idi,
Divara qonmuş idi.
Getdim onu tutmağa,
O məni tutmuş idi.
Meydana salmış idi.
Meydanın ağacları,
Bar gətirib ucları.
Çəpər çəkdim, yol açdım.
Qızıl gülə dolaşdım.
Bir dəstə gül dərməmiş,
Anası gəldi, mən qaçdım.

* * *

İynə-iynə, ucu düymə,
Şam ağacı, qotur keçi,
Happan-huppan,
Yığıl-yırtıl,
Su iç qurtul.

Bəziləri mahnını belə oxuyardı:

Dumbulu çala-çala getdim bağa,
Bir dəstə qızlar ilə oynamağa,
Əl atdım kiçik qızın məməsinə,
Böyüyü haray çəkdi nənəsinə,
Nənəsi xəncər-bıçaq o böyrümə, bu böyrümə,
Böyrümü tuta-tuta getdim həcə,
Həc dedi: canın çıxsın gəlmə gecə.
Yeddi gün yeddi gecə ağlamışam,
Atımı çöllərdə bağlamışam,
Atıma kişmiş gərək, kişnəməyə,
İtimə sümük gərək, gəmirməyə.
Əkilkə-məkilkə
Ştotdi namala.
Təbil-təbil, eşil-vəşil
Adı val... padıval.
Atdım, matdım,
Mən səni aldatdım.
Sən gedərsən mən ağlaram dalınca,
Yaylıq elə məni apar yanınca.
Qoltuğunda bağlama, mən gedirəm ağlama,
Gedərəm tez qayıdaram, özgəyə bel bağlama.

Yuxarıdakı mahnıların axırı hər kəsdə qurtarsaydı, o dəstə azad idi, yəni cızığın kənarında turna vurardı.

Şəhərin başqa bir tinində toplaşmış uşaqlar "Qələndər, ay qələndər" oyunu oynardılar.

**"Qələndər ay qələndər" oyunu.** Bu oyunu belə oynardılar: uşaqlardan bir nəfər nüfuzlusu "ana" (oyun başçısı) olardı. O, əlindəki turnanı uşaqlara verərək aşağıdakı tapmacanı söylərdi:



– Bir quşum var buxartana.
Xor:
– Qələndər, ay qələndər
– Dimdiyi var buxartana.
– Qələndər, ay qələndər
– Su içər buxartana.
– Qələndər, ay qələndər
– Gözləri var buxartana.
– Qələndər, ay qələndər
– Qanadları buxartana.
– Qələndər, ay qələndər
– Başı mənim, ayağı sənin, tap görək!

Bu zaman uşaqlardan birisi yaxınlaşıb deyərdi:
– Qarğa.
Ana:
– Ver qarğaya (yəni bilmədin).
Uşaq əlindəki turnanı tapmadığı üçün yoldaşına ötürərdi. O biri:
– Ördək.
Ana:
– Ver ördəyə.
Uşaq turnanı verərdi o birinə. Daha o birisi:
– Toyuq.
Ana:
– Ver toyuğa.
Daha başqası:
– Göyərçin.
Ana:
– Palan (yəni tapmısan).

Uşaq turnanı alıb yanındakı uşaqları döyməyə başlardı. "Ana" isə "palan, palan" deyərək bir qədər davam etdikdən sonra qəflətən deyərdi:
– Yalan (yəni bəsdir).

Bu zaman uşaqlar əlində turna olan uşağın dalınca yüyürüb tutar və qapazlamağa başlardılar. Əgər turnaçı vaxtında özünü "ana"nın yanına yetirsə idi, o zaman oyun yenidən "ana"nın "palan" sözü ilə başlanardı. Hərgah onu tutsaydılar, döyərək "ana"nın yanına gətirərdilər, oyun yenə lap əvvəldən başlardı.

Belə maraqlı oyunlardan biri də xalq arasında "Kosaldıqaç" (kos aldın qaç) adı ilə məşhur olan oyundur.

**"Kosaldıqaç" oyunu.** Bu oyunda bir istiqamətdə üç məhəllə iştirak edərdi: birinci kos alan, ikinci isti məhəllə, üçüncü isə qaçan məhəllə idi. Kos alan məhəllədən isti məhəlləyədək məsafə 12 metr olardı. Qaçan məhəllə isti məhəllədən 90 metr aralı olardı. Kos alan məhəllədə iki nəfər dayanardı. Bunlardan biri kosu alardı, ikinci isə sağ əli ilə kosu üfüqi istiqamətdə bərk vurardı. Özü isə yüyürüb isti məhəllədə dayanardı. Bundan başqa oyunda iştirak edənlərdən bir neçə nəfər də isti məhəllədə olardı. Bu vaxt kos verən kosu bir adam boyu yuxarı atıb tutmalı idi. İsti məhəllədəkilər fürsət tapıb bir baş qaçan məhəlləyə yüyürərdilər. Bu yüyürüş zamanı kosu alıb tutan həmin kosla bunlardan birini vurmalı idi. Əlindən başqa, kos harasından dəysəydi, o, məğlub olurdu. Hərgah qaçanlardan biri kosu əliylə geri qaytarsaydı, o zaman kos verenin yoldaşı kosu tutub qaçanlardan başqasını vurmalı idi. Bədəninə dəysəydi, o, məğlub olurdu. Hərgah o da əli ilə qaytarmış olsaydı, kosu verənin yoldaşı uzaqlara, kosun dalınca yüyürərdi. O zaman uşaqlar yüyürüb isti məhəllədə dayanardılar. Kos verənin yoldaşı kosu gətirdikdən sonra oyun yenidən başlanardı.

**"Gizlənpaç (gizlənqaç)" oyunu.** Oyunda on nəfərdən on beşədək uşaq iştirak edə bilərdi. Uşaqlardan bir nəfər "Cızıq turnası" oyunundakı mahnılardan birini oxuyardı. Mahnının axırı kimə düşsə idi, o azad hesab olunardı. Axıra düşən gözlərini yumub ta onlar gizlənənədək gözləməli idi. Onlar gizləndikdən sonra gözlərini açıb, gizlənənləri tapmalı idi. Onlardan birisini tapsaydı, o gərək yenidən gözünü yumaydı və oyun təzədən başlanaydı. Hərgah gizlənənlər aşkara çıxıb qaçsaydılar, gözlərini yuman uşaq onları qovmalı və birini tutmalı idi. Qaçanlar yüyürə-yüyürə bu sözləri söylərdilər:

Gəl məni tut, ştotdu,
Gəl məni tut, ştotdu

və özlərini məhəlləyə çatdırmağa çalışardılar. Hərgah qovan iştirakçı onlardan birisini tutsaydı, tutulmuş oyunçu gözlərini yummalı idi. Hərgah heç birisini tuta bilməsəydi, o zaman təzədən özü gözlərini yummalı, oyun yenidən başlanmalı idi.



**"Oğru-oğru" oyunu.** Oyunda iştirak edənlər öz aralarında birini "xan" seçərdilər. "Xan" uşaqları iki dəstəyə bölüb birinə "oğru", o birisinə isə "yasavul" adını verərdi. Oğrular qaçıb qapı dalında, damda, təndirdə, tövlədə, mətbəxdə gizlənərdilər. Onlar gizlin getdikləri kimi, gizlin də gəlib özlərini "xan"a təslim etməli idilər. Hərgah yolda onların birisini "yasavul"lardan görən olsaydı, o tutulmuş hesab olunardı. Bir azdan sonra kimi gizli, kimi tutulmuş – hamısı gəlib "xan"ın yanına cəm olardılar. "Xan" tutulanların hərəsinə 5-10 turna cəza və əllərinə "yasavulluq" vərəqəsi verərdi. "Oğru"ları tutmuş "yasavul"lar bu dəfə tutulanları əvəz edər və "oğurluğa" gedərdilər. "Yasavul"ların borcu "oğru"ları axtarıb tapmaq idi. "Oğru"lar tutulmasa və görünməsəydi, oyun yenidən başlana bilməzdi. Bəzən oyun 2-3 saat çəkərdi.

**"Şumaqədər" oyunu.** Şumaqədər oyunu yumşaq şumlanmış yerdə oynanardı. Əvvəlcə bir parça yeri qazıyardılar, şumaqədərin ucunu sındırmasın deyə torpağı daşlardan təmizlərdilər. Sonra onu ayaqları ilə tapdalayıb döyəcləyərdilər. Uzun ağac parçalarının ucunu yonub iynə kimi şiş edərdilər. Hər oyunçu əlində üç ağac olmaq şərtilə, qazılmış və hazırlanmış yerə gələrdi. Əlindəki ağaclardan birini yerə vurardı, o biri yoldaşı isə öz ağacını yerə elə vurmalı idi ki, həmin yerə sancılmış ağac bunun zərbəsindən yerindən çıxsın və özü də yerə möhkəm sancılsın. Ağacın bir dəfə yerdən çıxarılmağı kifayət deyildi, gərək ağac yerindən iki dəfə çıxarılaydı, bunun birinə borc, birinə də xərc deyərdilər. Bəzən ağacı yerə vuranda hər iki ağac yerindən oynayıb düşərdi. Buna cağ deyərdilər. Cağ salan oyunçu yenidən yortmalı (vurmalı) idi. Ağacı yerindən oynadılmış adam müqabil tərəfə üzünü döndərib: "Cağ salmısan, yort!" – deyərdi. Hərgah kim birinin ağacını bir dəfə yerindən çıxarsaydı, o zaman iki dəfə o birinin ağacını yerindən çıxarardı, həm xərcini, həm də borcunu verib ağaca sahib olardı. Hərgah uduzan oyunçu uduzduğu ağacı verməsəydi, gərək əlindəkilərdən birisini verəydi. Bu qayda ilə oyun xeyli davam edərdi.

**"Aşıq-aşıq" oyunu.** Bakının ən məşhur xörəyi bozbaş olduğu kimə məlum deyildi? Bozbaşı qoyun ətindən, özü də maça və döş hissəsindən bişirərdilər. Bozbaşı yedikdən sonra evin uşağı kasalara göz gəzdirərək sümükdən aşıqları çıxardıb bir yerə yığardı. Aşıqların irisi və xırdası olardı. Xırdasına aşıq, bir qədər irisinə isə maça deyərdilər.

Mənim əmim oğlanları tez-tez Həştərxana gedib gələrdilər. Həştərxan qoyunu çox iri olardı, onun aşığı bu biri aşıqlara nisbətən olduqca böyük olardı. Biz ona tapşırardıq ki, "əmi, gələndə Həştərxandan bizə Həştərxan maçası gətir". Həştərxandan qayıdan gəmiçilər də məsələni başa düşüb, hərəsi zənbilində bizim üçün 2-3 iri maça gətirər və bizə bağışlardı. O maçalardan hansı uşaqda olsa idi, o biri uşaqlar oyun zamanı onunla şərik olmağa çalışardılar.

Bəzən aşığın dik üzünü ovub oranı ərinmiş qurğuşun ilə doldurardılar ki, ağır olsun. Bir para aşığın dik üzünü sürtərdilər ki, atan zaman tez sürüşüb yerdə düzülmüş aşıqlara bərk dəysin və aşığı sıradan çıxarsın.

Oyun belə başlanardı: 3 metr diametrində dövrə cızıq çəkərdilər. Onun lap ortasında yarım arşınlıq düz bir cızıq çəkib aşıqları onun üstünə düzərdilər. 5 və ya 6 addım cızıqdan kənarda məhəllə qərar edərdilər. Aşıqlar buradan atılmalı idi. Hər şey hazır olandan sonra aşığı bəs birinci olaraq kim vurmalı idi?

Oyunu oynayanlarda belə adlar var idi: şah, ardıcıl, danaqovan. Bunlardan birincisi şah, ikincisi ardıcıl, üçüncüsü isə danaqovan hesab olunardı və həmin qayda ilə də aşıqları vurmalı idilər. Oynayanların maçalarını birisi yığıb ovcunda qatışdırıb yerə tullardı. Birinci dəfə kimin maçası alçı dursaydı, o, şah hesab olunardı. İkinci dəfə kimin maçası alçı dursaydı, o, ardıcıl, üçüncüsü isə danaqovan adlanardı. Oyuna başlarkən təyin edilmiş məsafədən aşığı atıb, cızığa düzülmüş aşıqları sıradan çıxarardılar. Hərgah birinci dəfə atan aşıqlardan bir neçəsini sıradan çıxarsaydı, o, şahlığında davam edərdi. Əgər o, bacarmasa və aşıqları ikinci atan və ya danaqovan çıxarsaydı, o, şah təyin edilərdi. Aşıqları hüduddan çıxaran həm aşığı mənimsər, həm də cızığın qırağından aşıq atmaq hüququna malik olardı. Əgər o, buradan aşıqları vura bilməsə, fəqət maçası alçı dursaydı, həmin yerdən bir də vurmağa haqqı vardı. Üçüncü dəfə vura bilməsəydi, ardıcıl, onun dalınca da danaqovan vurmalı idi. Vurulan aşıqlardan kim neçəsini cızıqdan çıxarsaydı, aşıqlar onun xüsusi malı hesab olunurdu. Əgər bir oyunçunun maçası Həştərxan və qurğuşunlu olsa və özü də yaxşı oynayan olmuş olsaydı, bir oyunda 6 və ya 7 aşıq udardı. Hər oyunçu yerə ya cüt və ya tək aşıq qurmalı idi. Birdən beşədək aşıq qurmaq olardı. Oyun, iştirak edənlərdən birinin aşıqları qurtarıncaya qədər davam edərdi. Aşığı qurtaran adam oyundan kənar edilərdi. Beləliklə, axıra hamını udmuş oyunçu qalar və oyun qurtarardı.



**"Qoz-qoz" oyunu.** "Qoz-qoz" oyunu da həmin qanunlarla olardı. Fəqət yerə düzülən aşıqların əvəzinə adama 10 qoz qurardılar ki, onun da cızığı böyük olardı, məsafələri isə uzaq təyin edilərdi.

**"Pula-pula" oyunu.** Divarın dibinə torpaq töküb, başıaşağı bir yoxuş əmələ gətirərdilər. Torpaqdan müəyyən çəpər çəkib hüdudladıqdan sonra yuxarı başda bir dairəvi çuxur (Azərbaycanın bəzi rayonlarında buna həbə deyərdilər) qazılardı. Ona şah pula deyərdilər, onun sağ və solunda aşağı tərəfdə iki dənə də yan pula qazılardı. Onların da mərkəzində, şah pulanın qarşısında, orta pula qazılardı. Cəmi 5 pula olardı. Oyunda iştirak edənlərdən biri şah pulaya doğru iki-iki və ya bir-bir qoz atardı. Hərgah şah pulada dörd, yan pulalarda iki qoz olsa və boş qalsa idi, o vaxt şah puladakı qozlardan iki və yan pulalardan bir qoz onun olardı. Deməli, şah pulada iki, yan pulalarda bir-bir, cəmi dörd qoz onun olardı. Bundan sonra o, ikinci dəfə qoz atmağa ixtiyar əldə edərdi. Hərgah qoz pulalara tək-tək düşsəydi, o vaxt pulaya neçə tək qoz düşmüşsə yoldaşlarına o qədər qoz verməli və növbədə axırıncı durmalı idi. Bəs oyuna birinci dəfə kim başlamalı idi? Burada "aşıq-aşıq" oyununda olduğu kimi maça atardılar, kimin maçası alçı dursaydı, oyuna birinci o başlardı.

* * *

Novruzdan iki ay yarım keçmiş havalar istiləşməyə başlardı. Kəblə Novruzqulu gün batan zaman dükandan pendir, köhnə sirkə-badımcan, sirkə-sarımsaq, soğan, kartof, dükanın köhnədən qalan və işə getməyən xırım-xırdasından yığıb, iki-üç tabaq çörəyi alıb qırmızı yaylığa yığar, dükanı bağladıqdan sonra bağlamanı götürüb asta addımlarla evə gələr, həyətə keçərək:

– Ay arvad, al buları! – deyərdi.

Ana ilə qız evdən bayıra çıxar, kişini içəri aparardılar, divarın dibində onun altına döşək, dalına yastıq qoyub rahatlayardılar. Kişi bir stəkan çay içdikdən sonra sözə başlardı:

– Ay arvad, pəncərəni aç, havalar yavaş-yavaş dəyişir, bağa köçmək lazımdır. Sənə nə lazımdırsa deyinən, səhər dükandan göndərim.

Arvad kişinin yerini saldıqdan sonra, taxçanı-boğçanı axtarıb yamaqyırtığını tikərdi. Səhər tezdən kişi yuxudan oyanardı. Qara mahud şalvarını, tirmə döşlüyünü, kəyani donunu geyib, qurşağını bağladıqdan sonra dəstəmaz alar, namaz qıldıqdan sonra qarabuğdayı sifətini iki

tərəfdən səliqə ilə örtmüş qara saqqalını darayar, ağ araqçınının üstündən əmiri papağını başına qoyub oğlunu çağırardı:

– Adə Kərim, Kərim...

Arvad elə başa düşərdi ki, kişi oğlunu döyəcək, ona görə də tez gəlib kişiyə yalvarmağa başlayardı:

– Sabah, sabah nə xeyir eləmişik, nə şər!.. Uşağı döyməginən. Əlin dəstəmazlıdır, xeyir olsun, uşağı qat qabağına apar bazara. Hər nə almalısan ver, gətirsin.

Kərim Kəblə Novruzqulu ilə dükana gedərdi. Kişinin alış-verişə başı qarışar, uşaq isə onu gözləyər, mollaxanasının vaxtı keçərdi.

– Adə, Kərim, sən get mollaxanaya, mən şeyləri özgəsilə göndərərəm.

– Ay ata, bunu səhərdən deyəydin də, mən də çıxıb gedəydim mollaxanaya, indi mən hara gedim? Vaxt keçib.

Fəqət atasından cavab almadığından bir ayağı gedər, bir ayağı getməzdi. Nə isə qorxa-qorxa gəlib mollaxanaya çıxardı. Keçib öz yerində əyləşər, molla uşaqların dərslərindən qurtarandan sonra:

– Kərim, nöşün gecikmisən?

Kərim qorxudan ağlaya-ağlaya:

– Vallah molla əmi, atam səhər məni aparıb dükanda saxladı, vaxt da keçdi.

– Yalan deyirsən, namərbut, görəsən harda aşıq-aşığa başın qarışıbmış.

Çox deyib az eşitdikdən sonra çubuqla falaqqa işə düşərdi.

Keçmişdə gözüaçıq adamlar oğlunu aparıb mollaya tapşırardı. Uşaq böyüyor, evdə anası, bacısı və qonşu uşaqlar onun əlindən zara gələrdilər. Uşağın atası mollaya deyərdi:

– Ay molla, uşağı mən bura gətirmişəm ki, küçələrdən əl-ayağı yığılsın. Əlində bir az savadı olsun. Əti sənin, sümüyü mənim. Yenə sənə tapşırıram ki, sözünə qulaq asmadı döy, uşaq döyülmək ilə ölməz.

Molla uşağı gözünün ucu ilə süzüb deyərdi:

– Keç əyləş uşaqların cərgəsində.

Uşaq bir az oturandan sonra molla ona tapşırardı:

– Sabah atana deynən sənə bir əlifba çərəkəsi alsın.

Atası səhər çərəkə alıb uşağa verərdi.

Köhnə məscid hücrələri qışda soyuq, yayda isə həddən artıq isti olardı. Hücrənin yeri torpaq idi. Bura evlərdə işlənib köhnəlmiş nimdaş



həsirlər ilə döşənər, həsirlərin altı tozla dolu olardı. Birə əlindən tərpənmək olmazdı. Hər uşaq evdən bir döşəkcə gətirərdi ki, yer onu əzməsin. Qışda da hərəsi bir manqal gətirərdi ki, özünü soyuqdan qorusun. Mollaxananın müəyyən vaxtı yox idi. Mollanın kefi istədiyi vaxt dərs oxuyardılar. Səhər saat 9-dan saat 12-yə kimi, günorta iki saat tənəffüsdən sonra saat 2-dən yenə də gün batana kimi uşaq məsciddə qalardı.

Birinci dərs "Hüvəlfəttahüləlim" dərsi olardı. Molla barmağını əlifin üstünə qoyub burnunda danışdığı və əlif deyə bilmədiyi üçün əlif yerinə ənif deyərdi. Uşaq da onun dediyini təkrar edərdi. Molla təzədən deyərdi:

– Mən deyəni demə, ənif de.

Uşaq da onun dediyini təkrar edərdi:

– Ənif.

Mollanın acığı tutar. Uşağa bir qapaz vurub söyərdi:

– Korazehin oğlu korazehin.

Uşaq karıxıb bildiyini də unudardı və ağlamağa başlardı. Molla köhnə şəyirdlərindən birini çağırıb ona tapşırardı ki, aparıb ona əlif hərfini öyrətsin. Bu uşaq bir il tamam məktəbə gedərdi, amma hürufatı yaxşı tanıya bilməzdi. Dərsin üsulu olmazdı. Uşaqlara ərəb qiraətilə dərs verərdilər.

Bir "əbcəd" kəlməsini molla uşağa belə başa salardı: "Əlif-zəbərə! Beyzəbər-be! Cimzəbər-cə! Dalzən cəd-əbcəd". Belə dərs üsulu uşaqların zehnini kütləşdirib onların istedadını məhv edərdi.

Dərs əvəzinə bu "məktəbdə" uşaqları ölüncə döyərdilər.

Bir qədər diribaş və zirək uşaqlar mollanın xəlfəsi olardılar (xəlfə, yəni köməkçi). Oxuyan uşaqları molla daim evinə, qulluğa göndərərdi. Mollanın arvadı bunlara ev süpürtdürər, su daşıtdırar, odun yardırar, qab-qaşıq yudurdardı. Onlar mollanın arvadının satıl və boğçasını hamama apardılar. Mollanın arvadı üçün iş görən uşaqlar, sevinə-sevinə mollaxanaya gələrdilər. Mollanın arvadına acığı tutanda acığını şəyirdlərə tökərdi. Bu zaman məşhur falaqqa işə düşərdi.

Falaqqa bir metr uzunluğunda ağac idi. Ortasında $^{1}/_{4}$ metr fasiləli iki deşik var idi. O deşiklərə ip bağlanırdı. Uşağın ayağını iki deşiyin arasına qoyar, ipi onun ayağına salar, sonra ağacı burardılar. Uşağın ayağı orada möhkəm sıxılmış olardı. Əzgil ağacından, nar ağacından nazik çubuqlar hazırlardılar. Mollanın gücü çatdıqca uşağın ayağına və dabanına çubuqla çırpardı. Belə ki, bəzən uşaqların dırnaqlarından qan sızardı.

Uşaqların çoxusu həftələrlə yeriyə bilməzdi, mollaxanadan evlərinə diz-dizi gedərdilər. Çox vaxt molla uşaqları qatara salardı, yəni şəyirdlərin hamısı falaqqaya salınıb çubuqla çırpılardı. Quranı çıxana kimi uşaqların halı belə acınacaqlı olardı.

**Quran çıxma.** Quranı oxuyub qurtarmağa Quran çıxma deyərdilər. O uşaq qoçaq idi ki, belə bir şəraitdə oxuyub Quran çıxaydı. Axşam Quran çıxmış uşaq atasına deyərdi ki, mən sabah Quranı xətm edəcəyəm. Atası bazardan noğul, nabat, püstə, badam, qənd, çay, xına alıb, bir podnosa yığar, molla üçün xonça hazırlardı. Səhər uşaq mollaxanaya gedər, Quranın axırıncı surəsini əzbərdən oxuyardı. Oxuyub qurtarandan sonra xəlfə: "Fətəbarək əllahü əhsənülxaliqin. Molla yesin sütlü plov balığın, xəlfə yesin qırmızıca qazmağın, şəyird yesin qırmızıca çubuğu", – deyib Quran çıxan uşağın papağını götürüb yerə çırpardılar. Şəyirdlərdən biri papağı götürüb Quran çıxan uşağın evlərinə qaçardı. Uşağın anası papağı gətirən uşağa xonça verib yola salardı. Həmin uşaq xonçanı mollaxanaya gətirərdi. Molla xonçanı görüb gülümsərdi və uşaqları o gün azad edərdi.

**Məşq xəttatlıq.** Məşqin üstündə uşaqların əlləri falaqqaya düşərdi. Uşaqlar gərək elə yazaydılar ki, hərflər hamısı bir qayda ilə çapdan çıxan kimi olaydı.

Çox vaxt bunun üstündə şəyirdlərin hamısının əli falaqqaya düşərdi. Bir ağlaşma qopardı ki, deyəsən yasxanadır. Çox uşaq falaqqanın qorxusundan döşəkcəsini, çərəkəsini qoyub qaçardı, ata-analarına yalvarardılar ki, onları bir daha mollaxanaya aparmasınlar. Uşaqların yanında molla adı çəkiləndə qorxudan titrəyib ağlayardılar. O saat çubuq-falaqqa, vəhşi rəftar gəlib gözlərinin qabağında dayanardı. Beləliklə, vəhşi ruhanilər, onların əlaltıları olan mollalar xalqın başını tovlayıb onu savaddan, elmdən, bilikdən, mədəniyyətdən uzaqda, avam və cahil bir halda saxlamağa çalışardılar. Bu, onlar üçün əlverişli idi.

Nə isə...

Kərimin ayağına o qədər güclü çubuq dəyərdi ki, ayaqları şişərdi. Yoldaşları qoluna girib evlərinə aparardılar.

Kərimin anası oğlunu bu halda görcək əhvalatdan xəbərdar olardı ki, Kərimi falaqqaya salmışlar və mollanı qarğışlamağa başlardı:



– Mollanı görüm saqqalı qanına bulaşsın, əmməməsi ayağına dolaşsın. Onu görüm heç əli qələm tutmasın. Canı məscidlər tinində çürüsün, mənim balamın taqsırı nə idi ki, bu günə saldı?!.

Kərimin ayağına yağlı xəmir salıb yerə uzadardılar. Beləliklə, uşaq molladan qaçar və molla adı gələndə bağrı yarılardı. Burada uşağın savadı barədə danışmaq, əlbəttə, yersizdir. Çünki uşaq mollaxanada on il də oxusa idi ana dilində savadı olmazdı, əksinə, orada əxlaqı və tərbiyəsi pozular, istedadı, zehni və bacarığı kütləşər, zəhərlənərdi. Mollaxanadan qovulan gündən etibarən uşaq fikrini quşbazlıq, tazıbazlıq, xoruzbazlıq, qoçbazlıq, bildirçinbazlıq, itbazlıq və bu kimi işlərə verərdi. Bir də görərdin ki, küçənin başında camaat cəm olub, iki qumral qoçu boğazlarından halqalarını çıxarıb döyüşdürürlər. Qoçlar üç qisim olardı. Toğlu, şişək və ögəc. Toğlu birillik, şişək ikiillik, ögəc üçillik olardı. Ağ qoçların boyunlarından xırda zınqırov, muncuq, arabir gözmuncuğu və yaşıl meşindən tikilmiş, içi dualı üçkünc pitik asardılar. Buynuzlarını, kəlləsini və bədənini çalım-çarpaz xına ilə boyayardılar. Qoçlar döyüşdükcə bir-birinə zərb ilə elə kəllə vurardılar ki, buynuzları sınar, bəzən başları da parçalanardı. Kimin qoçu yerindən tərpənsəydi, onu qaçmış hesab edərdilər və o, məğlub edilmiş hesab olunardı. Qoçların döyüş zamanı düşdüyü halları ifadə etmək çətindir. Heyvanların gözlərinə qan dolur, buynuzları sınır, buynuzun dibindən qan axır, dilləri ağızlarından bayıra çıxır, dişləri sınır, sürətlə ləhləyərək ölümcül bir halda məsum-məsum ora yığılan camaatın üzünə baxardılar. Bununla belə avam camaat bu vəhşi adətdən əl çəkmək istəməzdi. Acınacaqlı bir hala salınmış heyvanların döşünü, başını ovuşdura-ovuşdura bir təhər təkrar döyüşə cəlb etmək istərdilər. Çar hökuməti və ruhanilər tərəfindən zülmətdə, cəhalətdə saxlanan, insan kimi yaşamaq yolları bağlanmış avam camaat arasında it boğuşdurmaq da bir adət idi.

Bakının ətraf kəndlərindən məşhur cins qoyun itlərini küçüklüyündən Bakıya gətirib il yarım, iki il bəsləməyə başlar və boğuşdurmaq üçün hazırlaşdırardılar.

Uzunboylu, uzunqıçlı heyratı xoruzları çolpalıqdan kişmişlə bəsləyib altı aydan sonra onun qıçlarındakı məmizlərini şüşə ilə yonub iynə kimi itilərdilər ki, döyüşən zaman o biri xoruzun çinədanına batsın.

Dovşan ovuna getmək üçün tazı bəsləmək də adət idi. Məlum olduğu kimi, tazının qıçları ceyran qıçları kimi nazik və uzun, bədəni zərif və yüngül, quyruğu isə uzun olardı.



*İtlərin boğuşması*

Tazının başı tülkü başı kimi uzun, qulaqları sallaq olardı. Tazı altı ayda mələz olardı, yəni tazılıq həddinə çatardı. Onun yediyi qoyun qarnı, kəllə və çörək olardı. Tazıları bu cür saxlayıb böyüdərdilər. 5-10 nəfər adam sözü bir yerə qoyub tazıları hazırlayar və ova çıxardılar. Hərə bir at minib iki-üç tazını yanınca aparardı. Ova aparılan tazıların boynunda xalta, xaltaya bir dəmir halqa bağlı olardı. Tazı sahibi əlində uzun ciyə tutardı. O ciyəni halqalardan keçirib ipin iki ucunu əlində saxlardı. Harada dovşan rast gəlsəydi, halqalardan keçirilmiş ipin birini buraxar, itlər ipdən azad olub dovşanların dalınca qaçardılar. Atlı ovçular isə onların dalınca çapardılar. Ovçulardan biri qışqırardı:

Anam qara qancıq!..
Atam ağzı qara.
Babam boz tula! Qoyma!
Qoyma, dərdin, bəlan mənə gəlsin.

Belə ki, bağ, bostan, buğda zəmiləri – hamısı atlara, tulalara ayaqaltı olardı. Bir para təcrübəli dovşanlar çarpaz yolla qaçaraq tazıları çaşdırar, arabir də vaz atardılar. Çox qaçdıqda tazılar havanın istisindən tıngnəfəs olar, dırnaqları, qol-qıçları yaralanardı. Bəzən zavallı it taqətdən düşüb yerə yıxılardı. Çox vaxt dovşanın nəfəsi kəsilər, yıxılıb ölərdi. Əgər iki tazı bir dovşanı tutsaydı, tazı sahibləri arasında höcət və dava başlanardı. Çox zaman bu dava ölüb-öldürmək və ədavət dərəcəsinə də çatardı. Ovçular yorğun, ac, susuz ovdan qayıdardılar.

**Bildirçinbazlıq.** Bildirçinlər öz oxumalarına görə bir-birlərindən fərqlənirlər. Birincilər yorğa, yəni tez-tez, ikincilər şumara, yəni bir az ağır, üçüncülər isə lap ağır oxuyan bildirçinlərdir. Bu axırıncılar çox bahalı bildirçinlərdir. Bildirçinin qəribə bir şakəri vardır ki, yeri gen olsa, oxumaz. Onun qəfəsinin eni və uzunluğu altı, hündürlüyü iyirmi santimetr, üstü isə dəmir millərlə hörülmüş olardı. Qəfəsin içində quş tükündən yumşaq döşəklər düzəldib quşun başının üstündə bərkidərdilər ki, özünü ora-bura çırpanda başı dağılmasın. Quş işıqda yata bilməz. Onun yatması üçün ya qəfəsin üstünə bir dəsmal salar, ya da qəfəsi qaranlıq evə aparardılar. Bildirçinin yediyi adi darı olardı. Arabir şadənə də verərdilər ki, quş qızışsın. Həftələrlə çöllərdə xəsillər (əkin) arasında tor quran quşçular bildirçin düdüyü (giyid) çalmaqla



*Xoruzbazlar*

erkək bildirçini aldadıb tutardılar. Onu tutmaq üsulu belə idi: xəsillərin üstünə böyük tor döşərdilər. Quşçular özləri isə xəsillərin dibində gizlənib düdük çalardılar. Erkək bildirçin düdüyün səsinə aldanıb torun altına gələrdi, quşçular quşun tora düşdüyünü gördükdə qəfildən ayağa durardılar. Quş yaxında adam görcək havaya qalxmaq istərkən tora ilişər və onu tutardılar. Bildirçini şəhərə gətirərək qəfəsə salardılar. Həyətdə müəyyən bir yerə və ya küçə qapısının üstünə bir mıx vurub qəfəsi oradan asar və quşa muşqurardılar. Muşqurduqda quş "məmo-məmo", quşun sahibi isə ahəstə səslə "hə-hə" deyərdi. Quş isə oxumağa başlardı. Quşun oxumağına şəhərin alverçi, baqqal, tacir, dəllal kimi havayıyeyən boşboğazları toplaşardı. Bunların qarasaqqalı, başlarında qazamatı, ya iki üzlü əmiri, ya da qələmi papaq olardı. Boğazlarından göbəklərinədək ilməli donları, ayaqlarında yaşıl rəngli sağrı başmaqları, sarı ipək qurşaqları, topuqdan yuxarı göy rəngli şalvarları, bir parasının enli, əlvan yun qurşaqları da olardı. Bu adamlar, çiyinlərinə güləbətinli sırıma ilə baftalı çuxa, bəzən də sarı uzun Ərdəbil kürkü salardılar.

Quş oxuyandan sonra bu barədə mübahisə və höcətlər başlanardı.

**Bağa köçmə.** Nurcahan xala düyünü təmizləyər, noxudunu, lobyasını, mərcisini arıdıb kisələrə tökər, ağızlarını bağlayıb evin bir küncünə yığardı. Kəblə Novruzqulu axşamçağı evə gəlib bir qədər istirahət etdikdən sonra Nurcahan xala unlu əllərini silərək ona deyərdi:

– A kişi, hər şey hazırdır, get Bayırşəhərə, Xanım karvansarasından bir araba danış, gəlib bizim köçümüzü aparsın.

Bakının ətraf kəndlərindən şəhər bazarlarına yük gətirən arabaçılar bazarda yükü boşaldıb, arabalarını keçmiş Quba meydanında olan Xanım karvansarasında açar, orada rahatlanardılar. Kəblə Novruzqulu o karvansaraya gedib, arabanı danışıb behləşərdi. Evə qayıdıb arvada deyərdi ki, tez ol tədarük gör, avadanlığı qablaşdır, arabalar indi gələr.

– İndi nə üçün, a kişi?

– Arabaçılar atları istiyə salmamaq üçün gecə getmək istəyirlər.

Arvad deyinməyə başlardı:

– İndi mən qaragün, məfrəşləri bağlayım, qab-qazanı bağlayım, toyuq-cücəni tutum, ya sizə xörək bişirim? Arabaçı başıdaşlı səhər gedə bilməzdi? Ay qız, Tubu, Tubu! Tez bu qab-qacağı quyu üstə yu, torpaqla salavatla gətir.

Tubu qonşu evində qonşu qızları ilə gəlin-gəlin oynamaqla məşğuldur. Arvad bir çağırır, iki çağırır, görür ki, Tubu gəlmədi, çığır-bağır salmağa başlayardı:

– Tubu... Tubu...

Qız qonşu həyətdən anasının səsini eşitcək:

– Gəlirəm, ay ana! – deyib yüyürərək gəlir.

Nurcahan xala:

– Ay səni görüm başını top aparsın, heç qapılar açıb girməyəsən! – deyə qızı danlamağa başlayardı.

Kişinin ovqatı təlx olar, acığından samovar dudkeşini götürüb düşərdi arvadın üstünə. Tubu ağlayar, arvad da kötəyin zərbəsindən bağırardı. Elə bu vaxt Kərim yedəyində bir qoca qotur köpək, boğazında bir üz dəsmalı həyətə girərdi. Kişinin qanıqara, gözü Kərimə sataşardı:

– Adə, adə! Bu qotur iti niyə gətirmisən?

– Ay ata, bağa aparacağam.

Kişinin ovqatı daha da xarablaşar, o yan-bu yanı axtarar, əlinə təndir kösövü götürüb, itə bir-iki çəkərdi. İt vaqqıldaya-vaqqıldaya qaçar, boğazına bağlanmış üz dəsmalını da aparardı. Atalar bu yerdə deyiblər ki, "it də getdi, ip də".

Kişi acığından Kərimin üstünə düşər və həyətdə qiyamət qopardı.

Qonşular axışıb gələrdilər.

Kişilər Kəblə Novruzqulunu, arvadlar da Nurcahan xalanı sakit edərdi.

– Kəblə Novruzqulu, salavat çevir, axşam vaxtı yol üstəsən, hövsələni bas, ovqatını təlx eləmə.

Nurcahan xala üzünü arvadlara tutub:

– Ay Məşədi Püstə bacı, mənim belə dərdlərim var, xeyri olsun ərdən, övladdan yarıyanların.

– Eybi yoxdur, bala, eybi yoxdur, başının sahibidir. Səni döyər də, istər də, ər adamı öldürər də... Kişilər Kəblə Novruzqulunu sakit edər, arvadlar da Nurcahan xalaya kömək edər, avadanlığı sazlayar, sonra ev sahibləri ilə süfrəyə əyləşib bozbaşı həzmi-rabedən keçirərdilər.

Küçədən Salyan arabalarının ağac oxlarının cırıltısı eşidilməyə başlardı. Kəblə Novruzqulu qonşuların köməyi ilə tez arabaları yükləyər, arabaçılara yemək verdikdən sonra toyuq-cücələrin ayaqlarını bağlayıb yükün üstə, qoyunu isə əl-ayağını bağlayıb arabanın dümbəsinə qoyardı. Balaca Tubu gəlinciklərini, pişiyini qucağına götürüb arabaya



oturardı. Nurcahan xala da qonşu arvadlarla qucaqlaşıb öpüşdükdən sonra arabaya minərdi. Axırda Kəblə Novruzqulu evi və həyət qapısını qıfıllayıb açarı qonşulara tapşırar, əlini cibinə atıb, avadanlıq daşıyan qonşu uşaqlarına pul payladıqdan sonra xudahafizləşib arabaya minər və qonşuların: "Yaxşı yol, Allah amanında", – sözləri ilə yola düşərdi. Araba silkələnər və cırıldar, toyuq-cücə qaqqıldaşmağa başlayardı.

Kəblə Novruzqulu səsdən təngə gəlib:

– Ə... ə... Köpək oğlunun malları, şoğəribə qalasınız, xeyrata kəsiləsiniz, – deyə mırıldanardı.

Arvad:

– Yaxşı olardı ki, sənin xeyratına kəsiləydi. Birkərəmlik baş-qulağım dincələydi.

Yolçular deyinə-deyinə gecə yarısı Suraxanıya çatardılar. Kəndin küçələrindən birində tini burulanda heç gözlənilmədən arabanın taxta oxunun qulağı divara toxunub sınardı, ölüm-zülüm kəndin içindən çıxıb gecə yarısı Suraxanıdan bir az aşağı – "Usta şəyirdi" dediyimiz yerə çatardılar. Orada yükü yerə düşürüb, arabanın oxunu düzəldər, bir qədər dincəlib, atları yemləyib suladıqdan sonra yenə də yükləri yerinə bağlayıb yola düşərdilər. Gündüz saat 12-də, 1-də Şüvəlana çatardılar. Yükü həyətə boşaldardılar, kişi deyərdi:

– Arvad, açarı ver.

Arvad bir qədər ora-burasını qurdaladıqdan sonra yadına düşərdi ki, bağın açarı yaddan çıxıb şəhərdə evdə qalmışdır.

– Ay kişi, ay kişi, açar yadımdan çıxıb qalıb evdə.

Kəblə Novruzqulunun qanı təzədən qaralardı.

– Ə... ə... Sənin atan, anan gorbagor olsun, mənim canımı boğazıma yığdın. Yekə arvadsan, bilmirsən bağ otağının qapısı açıq deyil, qıfıllıdır?

– Ay kişi, o qədər deyinirsən, bildiyimi də çaşıram. Səni görüm öləndə dilin kəlmeyi-şəhadətə gəlməsin, sən bəyəm mafar verirsən ki, mən bilim nə iş görürəm?

Ər-arvad bir-birinin tozunu çırpandan sonra kişi bir müsibətlə qapının qıfılını sındırar və açardı. Evin içində keçən ildən qalma quru meynə olardı. Payızda şəhərə köçərkən, meynələrin başını kəsərdilər ki, gələn bahar üzümü yaxşı versin. O meynə başlarını evə doldurardılar. Gələn il bağ vaxtı onun qurumuşunu ocaq altında yandırardılar. Quru meynələri köməkləşib bayıra tökdükdən sonra avadanlığı evə yığıb sahmanlardılar.

**Bağ məşğuliyyətləri.** Şam yeməyindən sonra axşamlar hər məhəllənin qonşuları qum üstünə yığılıb məşğuliyyət üçün növbənöv oyun oynardılar. Birisinin gözünü dəsmalla bağlayıb əlinə bir ağac verərdilər. O da:

– Nənəm, mənə kor dedi, hər yetəni vur dedi, – söyləyərək ağacı sağına-soluna fırladardı.

Oyunda iştirak edənlər özlərini ağacdan mühafizə edərək, onun kürəyinə şillə ilə vurub, tez qaçardılar ki, gözübağlı olan adam onları tutmasın. İştirak edənlərdən biri vurulsaydı və ya tutulsaydı onun gözünü açıb həman vurulanın gözünü bağlardılar. Bu oyunun adına "Top lələdə" və yaxud "Gözbağlıca" deyərdilər.

Bəzən bağa yeni köçmüş, başında qırmızı tirmədən güləbətinli araqçın, əynində qara atlaz köynək, belində gümüş körpülü belbağı, qıçında Çin ipəyindən şalvar olan qonşu oğlu Rəhim yoldaşları ilə söhbətə gedərdi. Orada maraqlı bir hadisə baş verərdi: uşaqlardan biri o birilərinə him ilə bildirərdi ki, gələn hərif xamdır. O da o saat başlardı ki, gəlin "Piyan-piyan" oynayaq.

Biri deyərdi: "Mən çaxırçı". Biri o yandan deyərdi: "Lütün biri mən". O biri deyərdi: "Biri də mən. Yaxşı, bəs xozeyin kim olsun?" Yandan deyərdilər ki, xozeyin də Rəhim olsun. Rəhim də: "Oyun maraqlıdır, görək nə olur, vaxtımız xoş keçsin", – deyə razılaşardı. Rəhimi ortalıqda oturdardılar. Lütün biri sağında, biri də solunda əyləşərdi. Çaxırçı da onların qarşısında dayanardı.

– Ey çaxırçı, çaxır ver!

– Pul ver!

Xozeyin pul verərdi. Bunlar da yalandan içməyə başlardı. Bir az içəndən sonra guya ki, pulları qurtarardı.

– Ey, çaxır ver!

– Pul ver!

– Pul qurtarıb.

Lütlər donlarını çıxarıb verdikdən sonra çaxır alıb içərdilər. Sonra köynəklərini də verərdilər, daha sonra bir şey tapmazdılar və çaxırçıya deyərdilər ki, çaxır ver, çaxırçı isə deyərdi: "Pul ver!" Cavabında lütlər: "Biz çox şey vermişik, sən də soyun, ver içək". Rəhim də fikir edərdi ki, başlamışıq görək bunun axırı nə olur. Nəhayət, donunu, kəmərini, saatını çıxarıb verərdi. Ən axırda bunların üçü də lap çılpaq olardı. İçib lap "keflləndikdən" sonra çaxırçı bunlara guya ki, kələk gələrdi:





*Bacı bağlarında*

– Pul verin.

Lütlər:

– Sənə borclu deyilik. Paltar vermişik.

Mübahisə başlanardı, çaxırçı fit verərdi və yalandan qorodovoy gələrdi. Çaxırçı qorodovoya bir şey verib, onların kefli olduğunu söylərdi:

– Siz təqsirkarsınız, – deyərdi.

Qorodovoy da rüşvətə baş əyib bu sözü təkrar edər və əlavə edərdi:

– Kəndir gətirin və bunların qollarını bağlayın. Dərhal, Rəhim ortada olmaq şərtilə, lütlərin birini sağa, birini də sola keçirər, qol-qola bağlardılar. Lütlərin hər ikisini sağ qolu açıq olardı. Bunların dərhal "davası" düşərdi, hərəsi əlinə bir başmaq tayı alıb vuruşmağa başlardılar. Lütlər hər iki qolu bağlı, özü də çılpaq halda olan Rəhimin üstünə düşüb xeyli vurardılar. Rəhim çox çırpınardı ki, xilas olsun, amma nə fayda ki, qolları möhkəm bağlı idi. Rəhim başa düşərdi ki, bütün bu dəsgahlar bunun üçünmüş. Özünü xilas etmək üçün qolları ilə onların hər ikisini baş-başa vurardı, fəqət görərdi ki, bir şey çıxmır. Axırda üzüqoylu yerə yıxılardı. Oyun iştirakçıları onun bu halına xeyli gülüb zövq alardılar. Sonra Rəhimin qollarını açardılar. Kim zirək idi qaçardı, yerdə kim qalsa idi, yumruqlaşma başlanardı. Bu oyunun üstündə böyük davalar və ədavətlər törəyərdi.

**"Tağı külah, Nağı sər" oyunu.** Bu oyunda on beş, iyirmi nəfər dövrə vurub oturar, başda bir nəfər də "molla" olardı. Hərgah oyunda iştirak edənlərin sayı on beş nəfərə çatsa idi, o zaman onların on dördü araqçınını iki qat büküb öz başına qoyardı. Təkcə mollanın başı açıq qalardı. Sonra hamısı bir ağızdan oxumağa başlardılar. Əvvəlcə "molla" başlardı:

> Tağı külah, Nağı sər.

Oyunçular təkrar edərdi:

> Tağı külah, Nağı sər,
> Yağış yağar, yel əsər.

Oyunçular:

> Yağış yağar, yel əsər.



Mahnını oxuyarkən əl çalardılar. Ancaq fikirləri "molla"nın əlində və öz başlarındakı araqçında olmalı idi. Çünki "molla" lapdan əl uzadıb yanındakının araqçınını götürər və öz başına qoyardı, yanındakı isə cəld yoldaşının araqçınını alar; o da o birininkini və bu qayda ilə çala-çala, oxuya-oxuya papaqlarını bir-birinin başından götürüb öz başlarına qoyardılar. "Molla" qəflətən: "Lax-lax" – dedikdə gərək hamı öz başındakı araqçını iki əli ilə bərk tutaydı ki, başından götürməsinlər və başı açıq qalmasın. Kimin başı açıq qalsaydı, onu tənbeh edərdilər. Tənbeh isə belə olardı: başı açıq qalan oyunçunu ortaya uzadıb başını üzüqoylu "molla"nın dizi üstə qoyardılar, iştirakçılara hamısı əllərini bir-birinin üstünə qoyub tənbeh olunanın kürəyinə qoyardılar. "Molla" soruşardı:

– Əl-əl üstə kimin əli.

Tənbeh olunan:

– Əkbərin əli.

– Bilmədin. Götürün, götürün vurağın.

İyirmi altı əl ağırlığını yazığın kürəyinə endirərdi... Tənbeh olunan ən üstdəki, əlin kimin olduğunu tapmasa idi, bu qayda ilə xeyli vaxt döyülərdi, əgər tapsaydı, oyun yenidən başlardı.

**"Habudu getdi, Şahbudu gəldi" oyunu.** Bu oyunda da ya iyirmi və ya on beş nəfər iştirak edərdi. Onlar dövrə vurub oturar və qıçlarını özlərinə sarı elə yığardılar ki, dizlərinin altında tağ kimi boş yer qalsın. Oyunçular çox sıx oturmalı idilər ki, aralarından heç bir şey görünməsin. Biri araqçınını "molla"nın dizi altından yoldaşına ötürərdi, başqaları da bir-birinə ötürüb bu sözləri deyərdilər:

– Habudu getdi, Şahbudu gəldi.

Bu qayda ilə araqçın birindən digərinə diz altı ötürülərək dövrə vurardı. Oyunçulardan bir nəfəri araqçını uşaqların əlindən almaq üçün ayaq üstə onların arxasınca dövrə ilə qaçardı. Bəzən "molla" araqçını öz əlində gizlədib uşaqlarla birgə əllərini tərpədərdi. Ayaq üstdəki araqçının "molla"nın əlində olduğunu başa düşsəydi, o dayanardı, hərgah başa düşməsəydi yüyürüb, yüyürüb yorulardı. Hərgah iştirakçılardan birinin əlində araqçın tutulsaydı, o yerini ayaq üstündəkinə verib, özü onun yerinə keçməli idi. Birdən biri gizlincə araqçını yoldaşının dizinin altına qoyardı. Belə ki, həmin oyunçu özü araqçının onun dizi altında olduğunu bilməzdi. "Molla" gözləyib görərdi ki, araq-

çın onun əlinə çatmadı, o vaxt oyunu saxlardı. Araqçın kimin dizinin altından çıxsaydı, o yerini ayaq üstəki oyunçu ilə əvəz etməli idi. Arada intizamsızlıq əmələ gəlsə və ya ayaq üstəki yorulsa idi, "molla" araqçını havaya qaldırıb, oyunçuları sakit edərdi və ayaq üstdəki oyunçu yorğunluğunu alardı.

**"Usta-şəyird" oyunu.** Bu oyun on beş və ya iyirmi uşağın iştirakı ilə başlanardı. Bir nəfər "usta" olardı. Oynayanlardan biri gəlib "usta"-nın qabağında oturardı. "Usta" onun gözlərini əllərilə bərk örtərdi. İştirakçılardan bir başqası onun küreyinə zəif şillə vurardı, o zaman "usta" əlini onun gözündən çəkib deyərdi:

– Ay canım şəyird, ay gözüm şəyird, səni kim vurdu, kim gördü?

İştirakçılar həmin sözləri xorla təkrar edərdilər:

– Ay canım, usta, ay gözüm usta, məni o vurdu, siz gördünüz.

Əgər tapmasa idi, "usta":

– Ay kor olasan, səni bu vurdu, biz gördük, – deyə vuran adamı göstərərdi. Xor da həmin sözləri təkrar edərdi. Əgər o, vuranı tapsaydı o zaman usta:

– Ay barakallah, səd barakallah, səni o vurdu, biz gördük.

Xor da eyni sözləri mahnı ilə təkrar edərdi. Vuran oyunçu tapıldığı üçün şəyirdin yerinə keçər, şəyird isə dövrəyə daxil olardı. Bu qayda ilə oyun yenidən başlanardı.

**"Yoldaş səni kim apardı" oyunu.** Beş nəfərdən ibarət bir sıra düzələrdi. Onlardan beş addım dalda həmin bu qayda ilə beş nəfər də düzülərdi. Hər dəstənin də bir miyançısı (münsifi) olardı. Arxadakı beş nəfərdən biri barmaq üstə asta-asta gəlib onlardan birinin arxasına üsulluca barmaqla vurardı. Vurulan oyunçu dala qalmamaq şərtilə, üç addım qabağa gedib dayanardı. Vuran adam astaca qayıdıb yenə öz yerini tutandan sonra miyançı soruşardı:

– Yoldaş, səni kim apardı?

– Həsən.

Əgər tapmış olsaydı, o həmin adamın belinə minib müəyyən məsafəni gedib qayıtmalı idi. Sonra özü onun yerinə keçib, onu öz yerinə göndərməli idi. Hərgah tapmazsa, o vaxt onu vuran oyunçu onun belinə minib müəyyən məsafəni getməli, qayıdandan sonra isə yenə hər kəs öz yerində qalardı. Bu qayda ilə oyun davam edərdi.



**"Bənövşə" oyunu.** Bənövşə oyunu çox qədim oyunlardandır. İştirakçılar iki dəstəyə bölünüb, on addım məsafəni üzbəüz dayanırlar. Hər dəstədə olan uşaqlar bir-birinin əlindən möhkəm tutub sıra düzəldirlər. Dəstələrdən biri oyuna başlardı. Bir nəfər o biri dəstəyə müraciət edərək deyərdi:

– Bənövşə!

Onlar cavab verərdi:

– Bəndə düşə.

– Bizdən sizə kim düşə?

– Sizdən bizə Rzaqulu düşə.

Bu zaman Rzaqulu dəstədən aralanaraq bir qədər arxaya çəkilər və var qüvvəsini cəm edib qabaqdakıların əllərini "qırmaq" üçün çox sürətlə yüyürərək özünü onların əlləri üstünə atardı. Çox zaman əllər davam gətirməyib açıldıqda həmin oyunçu zərbdən üzüqoylu yerə yıxılardı.

Əlləri qıran oyunçu, o biri dəstədən bir nəfəri də özü ilə dəstələrinə əsir aparardı. Hərgah qıra bilməsə idi, o zaman özü onların dəstələrində əsir qalardı. Bəzən axırda bir dəstə o biri dəstənin oyunçularını bütünlüklə çəkib aparardı və iki dəstə birləşərdi.

**"Al bunu" oyunu.** Bu oyunda dəstə bir yerə cəmləşərək, özlərinə "ana" seçərdi. "Ana"nın əmrilə dəstə yerə əyləşər və oyuna başlardı. Oyunçular sıra ilə deyil, dövrə vurub oturmalı idilər, oyunu "ana" başlardı. Bir əlini tərpədərək cərgədəkilərdən birinə deyərdi:

– Al bunu!

– Nədi o?

– Bir kələfdir, sar getsin.

Həmin sözləri oyunçu bir əlini tərpədərək təkrarən öz yoldaşına, o da o biri yoldaşına söylərdi, ta ki, dövrə gəlib anaya çatardı. Sonra "ana" iki əlini tərpədərək deyərdi:

– Al bunu!

– Nədi o?

– İki kələfdir, sar getsin.

Uşaqlar sözləri də bir-birinə ötürərdi. Haman qayda ilə növbə gəlib yenə "ana"ya çatardı. "Ana" bu dəfə iki əlini və bir qıçını tərpədərək təkrar edərdi:

– Al bunu!

– Nədi o?

– Üç kələfdir, sar getsin.

Yenə də uşaqlar həmin sözləri bir-birinə ötürərdi. Bu dəfə isə hamı iki əlini və bir qıçını tərpədərdi.

Yenə "ana" başlardı:

– Al bunu!

– Nədi o?

– Dörd kələfdir, sar getsin.

İştirakçıların hamısı bu sözləri təkrar edib, iki əl və iki qıçını tərpətməyə başlardı. Yenə "ana" sözə başlardı:

– Al bunu!

– Nədi o?

– Beş kələfdir, sar getsin.

İştirakçılar həmin sözləri bir-birinə ötürərək gərək iki əl, iki ayaq və bədənlərini tərpədəydilər.

"Ana":

– Al bunu!

– Nədi o?

– Altı kələfdir, sar getsin.

Bu dəfə uşaqlar həmin sözləri iki əlini, iki ayağını, bədənini, bir də başını tərpədərək bir-birinə ötürərdilər.

"Ana":

– Al bunu!

– Nədi o?

– Yeddi kələfdir, sar getsin.

Hamı oturub baş, bədən, qol-qıçlarını tərpədərək, yerlərində tullanardılar. Hamı gülüşərdi. Hər kəs nizamsızlıq etsəydi, onu cərimə edərdilər. "Ana" həmin oyunçuya nə desəydi, o əməl etməli idi.

**"Qundaq-qundaq" oyunu.** İyirmiyə qədər oyunçu dövrə vurub oturardı. Özlərinə ana seçərdilər. Onlar bir-birindən bir arşın məsafədə olardı. İki çuxanı və ya bir yorğanı yumurlayıb qurşaqla top kimi səriyərdilər. O top "ana"nın əlində olardı. Bir nəfər də "ana"nın arxasında ayaqüstə dayanardı. "Ana" topu gah sağa, gah sola tullardı. Yandakılar tutub yoldaşlarına ötürərdilər. Ayaqüstə duran, həmin qundağı oyunçuların əlindən almağa çalışardı. Onlar isə topu tez tutub yoldaşlarına ötürməyə cəhd edərdilər. Top kimin əlində tutulsa idi, o, yerini ayaqüstəkinə verməli idi.



**"Çumuruq-çumuruq" oyunu.** On, on beş nəfər dövrə vurub oturardı. Birini "ana" seçərdilər. "Ana" onların hərəsinə bir ad qoyardı. Adlar belə idi: çumuruq, yediyin yumruq; sənin adın bülbül, yediyin qənd; sənin adın dovşan, yediyin qarpız; sənin adın qoyun, yediyin saman.

"Ana" iştirakçılardan xam, naşı olan birisinə belə ad qoyardı: sənin adın eşşək, yediyin arpa. "Ana" "çumuruq-çumuruq" deyə-deyə əlini yerə sürtərdi. Bu işi iştirakçılar da etməli idi. "Ana" qəflətən uşaqların birisindən soruşardı:

– Sənin adın?!

Soruşulan dərhal gərək deyəydi:

– Dovşan.

"Ana" oyunçuları çaşdırmaqdan ötrü birdən üzünü bir başqasına tutub soruşardı:

– Sənin adın?

O, gərək dərhal adını deyəydi. Lakin çaşdığından adını yanlış söylərdi və o saat cərimə olunardı. "Ana" cəhd edərdi ki, bunları tez-tez çaşdırsın, kim ki, usta idi, fikri "ana"da olardı, dürüst cavab verərdi, kim ki, korazehin idi, o, çaşardı və onu cərimə edərdilər.

**"Beş, on beş" oyunu.** Oyunçular yenə də yuxarıda söylədiyimiz qayda ilə oturardılar. "Ana" bunlara ad qoyardı – beş, on beş, iyirmi beş, otuz beş, qırx beş, əlli beş, altmış beş, yetmiş beş, səksən beş, doxsan beş, yüz beş və i.a. "Ana" deyərdi:

– Tarxan satıram.

İştirakçılardan biri soruşardı:

– Neçəyə?

– Beşə.

Beş kimin adı idisə gərək dərhal deyəydi:

– Beşə niyə olur, olsun on beşə.

– On beşə olmaz, olar qırx beşə.

Qırx beş dərhal gərək deyəydi:

– Qırx beş niyə olur, olsun doxsan beşə.

Doxsan beş gərək tez deyəydi:

– Doxsan beşə olmaz, olar əlli beşə.

Bəzən iki nəfər arasında cinağ (yarış) düşərdi. Onlar bir-birilə deyişməyə başlardı:

– Beşə niyə olur, olsun iyirmi beşə.
– İyirmi beşə olmaz, olar beşə.
– Beşə olmaz, olar iyirmi beşə.
– İyirmi beşə olmaz, olar beşə.

Kim çaşsaydı, ya gec desəydi, onu da cərimə edərdilər. Bu qayda ilə oyun davam edərdi.

Uşaqların başı oyuna o qədər qarışardı ki, baxıb görərdin, gecə keçib. Uşaqlardan biri deyərdi:

– Kim bir-birinin ardınca on dəfə "plov, plov" deyər. Bu şərtlə ki, hər dəfə səsini ucaltsın.

Birinci lap yavaşdan "plov" deyərdi. Beləliklə, on uşaq ağız-ağıza verərək, "plov-plov" deyib bağırardılar. Gecə yarısı, yatmış camaat və qonum-qonşu səsə ayılardı. Yuxudan yarımçıq ayılanlardan biri də Kəblə Novruzqulu olardı. Şəbkülah başında, əynində ağ köynək və ağ yalınqat dizlik, çiynində sarı kürk, ayağı yalın, saqqalında çay qurğuşunlu xına, çənəsi göy yaylıqla bağlı, tumanbağısı da qabağına sallanmış halda yol üstünə çıxardı.

– Nə bağırırsınız? Belə qara dərd, çor!.. Dəng olasınız, köpək uşağı, gecənin bu vaxtında nə "plov-plov" deyib camaatı dəng eləyirsiniz?.. Niyə camaatı yatmağa qoymursunuz?! Adə Kərim! Kərim!

– Hə?

– Zəhrimar, it küçüyü! Bəs deyil, yorulmadın? Gəlib köpsənə.

Kəblə Novruzqulunun qışqırığından sonra uşaqlar bir-bir evlərinə dağılardı.

Bağın hər məhəlləsində tanınmış, nüfuzlu şəxslərin xüsusi otaqları olardı ki, axşam saat doqquzdan sonra cavanlar həmin otaqlara yığılıb məşğuliyyətə başlardılar. Görərdin ki, biri başlardı oxumağa, o birilər də vagirəlik edərdilər. Birisi də hövsər tabağı götürüb çalardı:

– Sarı qovunun dilimi.
Xor:
– Lay-lay gülüm hay, ay gülüm hay!
– Uçurtdum bülbülümü,
– Lay-lay gülüm hay, ay gülüm hay!
– Bir otaq xəlvət elə,
– Lay-lay gülüm hay, ay gülüm hay!
– Danışım dərd-dilimi,
– Lay-lay gülüm hay, ay gülüm hay!



– Araqçının haşimi,
– Lay-lay gülüm hay, ay gülüm hay!
– Hara qoyum başımı,
– Lay-lay gülüm hay, ay gülüm hay!
– Səni mənə verməzlər,
– Lay-lay gülüm hay, ay gülüm hay!
– Tökmə gözün yaşını,
– Lay-lay gülüm hay, ay gülüm hay!
– Saçın ucun hörməzlər,
– Lay-lay gülüm hay, ay gülüm hay!
– Səni mənə verməzlər,
– Lay-lay gülüm hay, ay gülüm hay!
– Əyil üzündən öpüm,
– Lay-lay gülüm hay, ay gülüm hay!
– Qaranlıqdır görməzlər,
– Lay-lay gülüm hay, ay gülüm hay!

Qəflətən iki nəfər yaxşı oynayan, biri qoca qarı surətində, digəri isə başına iki başmaq tayı bağlayıb, kürkü tərsinə çevirib geyərək oynaya-oynaya otağa daxil olardı. Otaqdakılar "urra!" deyib, küykələk salardılar.

– Nə aş yeyər, nə əppək, yaxşı oynar bu köpək!..
– Nə qovun yeyər, nə qarpız, yaxşı oynar bu donquz!
– Un ələr, yanın bular, mən neynirəm dul arvadı...
– Çörək yapar, yanın qapar, mən neynirəm dul arvadı.

Bir nəfər gizlincə gəlib birdən onların üstünə su çilərdi və ya əllərini yuxarı uzadıb tavandan asılmış lampanı söndürərdi. Otaqdakılar bir-birini vurmağa başlardı, beləliklə də gecəni keçirərdilər.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, kiçik qızların da özlərinə görə mahnıları, oyunları var idi. Beş-altı qız bir dənə taxta çay yeşiyi götürüb evin bir küncünə çəkilərdi. Sonra bacılarından, cicilərindən, xalalarından aldıqları əlvan parçalarla təbii ev səliqəsində yeşiyin içini bəzərdilər. Xırda çöp parçalarına tuman, köynək geydirib, kiçik gəlinciklər düzəldib yeşiyin kənarlarına söykəyərdilər. Bəzən bu qızlar, bir qonşudan o biri qonşuya (bir yeşikdən o biri yeşiyə) cehiz dəsgahilə gəlin köçürərdilər. Onların da mahnıları vardı:

Nəmçilər, ay nəmçilər!
Qapını kəsib elçilər.

Anam deyir vermərəm,
Atam deyir dur görək.
Ağzına qurban dayı,
Sən də bir danış barı.

* * *

Qızıl üzük laxladı,
Verdim anam saxladı,
Anama qurban olum,
Tez məni adaxladı.

* * *

Araqçının məndədir,
Sərmişəm çəməndədir.
Aləmdə gözəl çoxdur,
Mənim gözüm səndədir.

* * *

Bağ evləri bağımıza yanaşa,
Meynələri meynəmizə dolaşa,
Yar, məhlədən keçmə, anam savaşa,
Ver bağı, bostanı, vermərəm yarı.

* * *

Bir evdə ağlaram, bir evdə gülləm,
Bir evdə gözümün yaşını silləm,
Bir az da gec gəlsən çərrərəm, ölləm
Əs giləvar, gəl qadasın aldığım.

* * *

Unu ələdim basdım çuvala,
Başı qara qurdlar yeriyər divara,
Yar gəlib çıxmadı, qaldım avara,
Qaragöz oğlanın mən divanəsiyəm.



* * *

Bir ev tikmişəm dörd yanı şüşə,
Bir oğlan sevmişəm bağı bənövşə,
Yarım nar göndərib, hamı gülöyşə,
Əlin ver əlimə, gec gələn oğlan.

* * *

Mən belə dəmyəni yeyə bilmərəm,
Dərdimi sərdara deyə bilmərəm.
Sən gedərsən mən ağlaram dalınca,
Yaylıq elə məni apar yanınca.

* * *

Qoltuğumda bağlama,
Mən gedirəm, ağlama.
Gedərəm, tez qayıdaram,
Özgəyə bel bağlama.
Mən belə dəmyəni yeyə bilmərəm,
Dərdimi sərdara deyə bilmərəm.

Sonra üç-dörd qız əl-ələ verib birini dövrəyə alar və deyərdi:
– Miyo-miyo.
Xor: – Nə pişiyisən?
– Xan pişiyi.
– Nöşün gəlmisən?
– Ələk üçün.
– Bizdə deyil, o xaladadır.

Ortaya alınan qız gedib başqa bir qızın qarşısında dayanaraq yuxarıdakı sözləri təkrar edər və qəflətən qızların birini vurub qaçardı.

Xor: – Qara pişiyin evi dağılsın (2-3 dəfə) deyib, onun dalınca yüyürər, onu tutar və döyərdilər. Yenisi onu əvəz etdikdən sonra oyunu təzədən başlardılar.

**Qocaların bağ məşğuliyyətləri haqqında.** Qoca arvadlar səhər tezdən qızlarını, nəvələrini cəm edib, birlikdə meynə diblərinin alağını və tikanlı kolların təmizləmək üçün bağın içərisinə girərdilər. Qoca

kişilərdə alaq təmizlənincə beli əlinə alıb, meynələrin dibini şum elərdilər. Sonra əllərinə meşin əlcək geyərək qırılan tikanları bir yerə cəm edib, bağın çəpəri üçün hazırlardılar. Üzüm və əncir yetişdikdən sonra nənə üzümün çürüklərini, süfrədən artıq qalanları, yerə tökülənləri yığıb böyük səmiclərə tökər və sirkəyə qoyardı. Baba isə xatını, duğşeyi, əskəri, mövücü üzümləri dərib gətirər, daş axura töküb şalvarını dizinədək çırmalayar, arxalığının ətəklərini belinə sancıb üzümü tapdalayar və şirə yığardı.

Nənə o şirələri böyük mis tavalarda qaynadıb doşab bişirərdi. Uşaqlar bağdan heyva dərib nənələrinə verərdilər:

– Böyük məmə! Bu heyvanı sal şirənin içinə bişsin.

Nənə də alıb deyinə-deyinə bişirərdi.

Baba bağın bir guşəsində bağdan qırılmış tikanları bir yerə toplayıb, mövcalan qayırardı ki, külək şiddətli əsəndə sərgini aparmasın.

Nənə isə əncir dərib, onu və üzümün yerdə qalanlarını bir yerə yığar, öz həmyaşlarını başına toplayıb əncirin qabıqlarını soyandan sonra sərib piskəndə qurudardı. Baba əncirin yarıdəymişindən tabaqlara yığıb nənəyə verərdi. Nənə də alıb riçal bişirərdi.

Yavaş-yavaş havalar soyuqlaşdıqca bağ mövsümü başa çatardı. Kəblə Novruzqulunun külfəti yenə əlini-qolunu çirməyib mətbəxə girər, yurd halvası çalıb nimçəyə basardı. Kəblə Novruzqulu isə uşaqları başına yığıb evin avadanlığını səki üstünə çıxarar, bağın kəsilmiş meynə başlarını evə yığardı. Küpələrə və bardaqlara doldurulmuş doşabı şəhərə aparmaq üçün hazırlardı.

Doşab həm şirin, həm də turşməzə olardı. Bəs nə üçün doşab turşaşirin, meyxoş olurdu? Bir cürə ağ rəngli torpaq vardır ki, şirəyə ondan qatıb süzdükdən sonra o turşa-şirin olardı.

Bu ağ torpaqdan qatılmasaydı, doşab turşa-şirin olmazdı. Onun adına şirəxək deyərdilər.

Kəblə Novruzqulu doşabı, turş-şirini, mövücü, piskəndəni, riçalı və başqa şeyləri arabalara yüklədikdən sonra qapını qıfıllayar, şəhərə köçərdi. Şəhərə qayıtdıqdan sonra Nurcahan xala evin sər-sahmanı ilə məşğul olardı. Kəblə Novruzqulu isə dükana gedərdi. Dükanın qıfılını açıb içəri girdikdə qarşısında "gözəl" bir mənzərə açılırdı.

Bakının dəhşətli, gözçıxaran tozanağı hamıya məlumdur.

Belə ki, dükanın qapısından içəri dolan toz bütün dükanın daxilini bürümüş, tərəzinin gözləri, qəfəslərin üstü, pendir çanağı və boş yeşiklərin üstü bir qarış toz-torpaqla örtülmüşdür. Qəfəslərə yığılmış şüşə bankalardakı saçaqlı konfetləri, suxarını, noğulu, albuxaranı, kürəgəni (qaysı qurusu), kişmişi, çanaqdakı ağ və qara saqqızı və kisələrdəki fındığı, qozu siçanlar darmadağın etmiş, asma tərəzinin, əl tərəzisinin şarında və zəncirlərində hədsiz milçək qarasını görüb Kəblə Novruzqulu özündən çıxardı. Tələyə də bir zorba siçovul çoxdan düşüb gəbərmişdir. Kəblə Novruzqulu başındakı əmiri papağı ağ araqçının üstündən götürüb, büzməli çuxasını çıxarıb kətil üstünə qoyduqdan sonra Kərimlə bərabər çox çətinliklə dükanı sahmanlayıb alış-verişə başlardı.

Orucluğa yaxın evin qadınları əyinlərinə kişinin köhnə donunu geyib ev müxəlləfatını bayıra tökərdilər. Otağın yerini, divarlarını əhənglə ağardar, təndiri, ocağı sarı torpaqla şirələr, mis qab-qacağı qalayçıya göndərib ağartdırar, saxsı qab-qacağı quyu üstə töküb qumla yuyar, salavatlayıb pak edərdilər. Evin xalçalarını, həsir-palazını dəniz kənarına yumağa göndərərdilər.

Bütün işlərini gördükdən sonra çirkli pal-paltarları bir yerə cəm edib hamama getməyə hazırlaşardılar.

Hamama getməzdən iki gün qabaq uşaqların başına xına yaxar və gilabı isladardılar. Gilabı üç növ olardı: ağ gilabı, sarı gilabı, göy gilabı.

Göy və sarı gilabı ilə baş yuyardılar, o, başın çirkini yaxşı təmizlərdi. Ağ gilabı ilə çirkli paltarları yuyardılar. Bu gilabı Bakının Qobu, Güzdək kəndlərindən gətirilərdi. Xüsusi adamlar yuxarıda adlarını çəkdiyimiz kəndlərdəki dağların dibinə gedib gilabı çıxarmaq üçün oranı mağara kimi qazıyar və gilabını oralardan çıxarardılar. Gilabısatanlar yoxsul adamlar idilər. Onlar bəzən çox qazıyıb dərinə getdikdə mağaranın bir hissəsi uçar və gilabı çıxaran biçarələr torpağın altında qalıb ölərdilər. Kəndə səs yayılardı ki, filankəs itib yoxdur, o yan-bu yanı axtarıb axırda deyərdilər: "Bəlkə gilabı mağarasında qalıb". Arvadının yadına düşərdi ki, doğrudan da əri iki gün qabaq gilabı çıxarmaq üçün getmişdi, bəlkə elə orada qalıb.

Camaat gilabı mağaralarına yüyürüb oraları axtarandan sonra görərdilər ki, doğrudan da mağara uçubmuş, kişinin bağrı çatlayıb ölmüşdür.

Gilabısatan xurcunu doldurub eşşəyin belinə yükləyər, şəhərin küçələrini dolaşaraq:

– Ay gilabı alan! Ay gilabı alan! – deyə çığırardı.

Uşaqların anası Gülpəriyə çoxdan tapşırıb ki, Gülpəri göz-qulaq olsun, gilabısatan gələndə tez yüyürüb gilabı alsın.

Gülpəri səhər tezdən samovarı qaynadıb, çayniki dəmləyib, evin ortasına bir qırmızı haşiyəli süfrə salıb, uşaqları da ətrafına yığıb çay içməkdə ikən, küçədə gilabısatanın səsini eşidərdi. Arvad mətbəxdən: "Ay Gülpəri, ay Gülpəri, yüyür, gilabısatan gəlib". Gülpəri anasının səsini eşitcək süfrə başından qalxıb qapıya yüyürərdi ki, gilabısatanı çağırsın. Gülpərinin balağı samovarın buruğuna (şirinə) ilişib buruğu açar və samovardan qaynar su axaraq təzəcə iməkləyən uşağı yandırardı. Uşaq ağlamağa başlayardı. Ondan bir qədər böyük uşaqlar da bunu görüb qorxudan ağlayar və: "Ay ana! Uşaq yandı, uşaq yandı!" – deyə çığırardılar. Onların mətbəxdən səsini eşidən ana tez otağa yüyürüb, əhvalatdan xəbərdar olan kimi uşağı qucağına götürərdi. Arvadın başı uşaqlara qatışdığından samovarın buruğu yaddan çıxardı. Samovarda olan-qalan su axıb qurtardıqdan sonra içindəki od samovarın özünü yandırıb odluğunu çıxarar və samovar çıqqıldamağa başlayardı. Uşaqlar küy-kələk salar, ana gah uşaqların qeydinə qalar, arabir də Gülpəriyə sarı deyərdi:

– Heç qapılar açıb girməyəsən! Əndamın açılsın, qaraduvaq olasan, yaşın qara gəlsin, ay Gülpəri, uşağı yandırdın, – deyə qarğıyardı.

Evdə bir qiyamət qopardı ki, gəl görəsən. Qərəz Gülpəri gilabısatanı əyləndirib evə qayıdar və:

– Ay ana. Tez ol gəl, gilabısatan qapıdadır.

Anası Gülpərinin təpəsinə ikiəlli qapaz vurub deyərdi:

– Əndamı açılmış, bir bax gör uşağı nə günə salmısan!..

Arvad qucağındakı uşağı bağrına basıb uşaqla qapıya gedər, gah uşağa, gah da gilabısatana müraciət edərək:

– Ay əmi, gilabını neçəyə verirsən?!

– Batmanı altı şahı.

– Ay əmi, dəmirə, pula verirsən? *(Keçmişdə pul əvəzinə dəmir əşya, köhnə paltar, saxsı qab, çay və bu kimi şeylərlə də alış-veriş edərdilər.)*

– Dəmirə vermərəm, ancaq paltara verərəm.

Arvad içəri qayıdıb kişinin köhnə donundan, çuxasından tapıb gətirər və gilabını alıb isladardı, sonra uşaqların başına xına yaxıb səriyərdi ki, səhər hamama getsin. Samovarın yanmasını kişidən gizlətmək üçün arvad ərindən xəbərsiz samovarı qalayçı dükanına aparıb ustaya yalvarardı:

– Ay usta, amanın günüdür, axşamacan bunu birtəhər elə, yoxsa axşam sahibim gəlib bilsə ki, mən samovarı yandırmışam, məni tikə-tikə edər.



Axşam kişi bazardan gəlib şam etdikdən sonra:

– Ay kişi, sabah uşaqları hamama aparacağam, mənə bir abbası ver.

Kişi deyinə-deyinə əlini cibinə salardı:

– Mən sənə hamam pulu verməkdən yoruldum.

Sonra pul kisəsini çıxarır, bir abbası qara pul çıxarıb arvada verərdi. Səhər tezdən arvad kişini yola salaraq evdə olan bütün kirli paltarları bir boğçaya bağlayıb iki çörək, gecədən qalma kələm dolmasından, almadan, şabalıddan bir dəstərxana (süfrə) yığıb bağladıqdan sonra hamama yollanardı.

Hamam zənənə olanda külxanaçını və ya camadarı dama çıxarıb əlində bir dəmir şeypurla çaldırmağa başlardılar. Əhali başa düşərdi ki, bu gün hamam zənənədir. Hamamın qapısında qırmızı mərcanı fitə asardılar ki, yoldan ötən və şeypur səsi eşitməyən kişilər hamamın zənənə olduğunu bilsinlər.

Hamamın küçə divarlarında Rüstəm pəhləvanın ağ divlə vuruşmasını, Söhrabın davasını, dalan divarlarında Leyli və Məcnun, Əsli və Kərəm, Yusif və Züleyxanın rəsmlərini, hamamın bayırında – (soyunan yer) isə müxtəlif məşhur İran padşahlarının əkslərini əlvan rənglərlə çəkərdilər.

Bir dəfə çar soldatlarından biri şəhərin küçələrini seyr edərkən, yolu bir hamamın qabağından düşür. Nəzərini divardakı əcaib rəsmlər cəlb edir. Bu adam özlüyündə düşünür ki, bura yəqin sirkdir. Özünü içəri toxuyur ki, bir qədər tamaşa etsin. Arvadlar bunu gördükdə fitələrini eşib yazıq soldatın aşının suyunu verirlər.

Hamamın dalanlarından içəri açılan qapını açdıqda, hamamın bayırına girmək olardı. Burada, tən ortada, daşdan tikilmiş, ortasında fəvvarə olan bir çarhovuz olardı. Hamamın yeri təmiz yonulmuş, ağ tava daşlarla döşənmiş olardı. Yanlarda hündür, böyük tağlar vardı. Hər tağın beş-altı çərək hündürlükdə səkisi, səkilərin içində başmaq qoymaq üçün balaca taxçalar vardı. Dörd tağın üstü bir böyük günbəz, günbəzlərdə daşdan qazılmış pəncərə olardı. Səkilərin birində bir tərəfdə taxtadan hamamçı üçün qabağı məhəccərli yer ayrılardı. Hamamçının altında balaca əlvan namazı xalça, qabağında xırda aynalar, xırda bankaların içində ruşul, ayaqdaşı, xına, yumurta və bu kimi şeylər olardı.

Səkinin içəri tərəfində bir xeyli sönmüş əhəng olardı. Onun üstündən ip çəkilib qırmızı mərcanı fitələr sərilib (bəzən külxanada da) qurudulardı. Səkiyə əvvəl həsir, həsirin üstündən xalça, palaz salınardı,

bəzən də buraya əlvan rəngli taxta çarpayı qoyulardı. Bu ancaq dövlətlilərdən ötrü idi. Onlar hamamdan çıxandan sonra burada uzanıb istirahət edərdilər. Xozeyinlər hamama gələndə özləri üçün qanavat boğçanın içində fitə, qətfə gətirərdilər. Fitələr iki növ idi: darayı, mərcanı. Birinci ipək olardı, ikinci isə adi iplikdən. Hamamın o biri səkiləri isə kasıblardan ötrü idi. Oraya ancaq həsir döşəyərdilər. Hamama gələnlərin də hərəsinə bir mərcanı fitə verərdilər.

Hamamın içinin də quruluşu bayırınkı kimi olardı. Fəqət onların səkiləri yerdən bir qarış hündür və səkilərin dövrəsində su yolu olardı. İşlənmiş sular oradan axıb gedərdi. Səkilərin küncündə daşdan hovuzcuqlar olardı. Onlara uşaq oynamaq üçün ılıq su tökərdilər. Ortada, bayırdakı kimi, hovuz olmazdı. Ancaq tağların birinin altında xəznə olardı. Orada isti su saxlanardı.

Xəznənin qabağında, səkinin içində bir hovuz olardı. Ona qülleteyin deyərdilər. Hovuzun üstündə xəznəyə doğru bütöv daş uzadılardı. Onun üstü ilə xəznəyə yol var idi. Qülleteyində çirkab su, qeyri bir tağın altında həmin xəznə kimi ayrılmış yerdə soyuq su olardı. Tağların bir başqasında balaca sövmiyələr olardı, bunlara da xəlvəti deyərdilər. Ağa və xanımların çoxu orada yuyunardı.

Gülpərinin anası hamama gəldikdə, ən əvvəl kirli paltarları yuyar, uşaqların başının xınasını tökər, sonra cici-bacılarını başına yığıb söhbətə başlardı:

– Ay Ağannə xala həmişə təmizlikdə!

– Çox sağ ol. Oğluvun bəylik, qızıvun gəlinlik hamamına gələk, Allah imanuvi kamil eləsün.

Sonra hamamdakılar dəstə-dəstə olub, hər kəs səkinin üstündə öz evindən gətirdiyi yeməyi ortalığa qoyub yeməyə başlardı. Uşaqlar xırda hovuzların qabağında oynayaraq analarından aldıqları kökü, şabalıdı yeyərdilər. Arvadların yanlarında yeniyetmə qızları da olardı. Bakıda oğulsuz qoca qarıların sənəti evbəev gəzib cavan oğlanları evləndirmək və qızları ərə vermək idi. Bu kimi tiplərdən hamamlarda çox olardı. Onlardan birisi dəstələrdən birinə yanaşıb:

– Salaməleyküm, ay Ağabacı!

– Əleykəssalam! Gəlib otursana.

– Gülpəri! Məşədi Püstə bacıdır da... tanımırsan?!

Məşədi Püstə bacının nəzəri Gülpəriyə düşür.

– Ay Ağabacı, qız maşallah böyüyüb.





Qadın hamamı

Məşədi Püstə bacı əyləşərkən Ağabacı Gülpəriyə işarə ilə mis satılı göstərir. Qaydaya görə hamamda qoca arvadlar birisinə yanaşıb yanında oturarsa, ona öz məhəbbətini bildirmək üçün qocanın başına bir satıl su tökərdilər. O, bir növ hörmət və ehtiram əlaməti idi. Bəzən səhvən isti su yerinə qocanın başına cavan qızlar soyuq su da tökərdilər. Bu adətin adına "hamam suyu ilə dost tutmaq" deyərdilər ki, bu misal indi də bizim aramızda işlənməkdədir.

Ümumiyyətlə, hamam xəznələrinin qapısı kiçik olduğundan və burada qadınlar növbəyə durduğu üçün daim basırıq olardı.

Burada toplaşan qadınlar, mərcanı fitə bağlamış, boyunlarında sarılıq, qulaqlarında şəvə sırğa olan qadınlardan qorxardılar. Daim dava salan belə qadınlar olurdu. Bir də görərdin ki, xəznə üstə qalmaqal qopardı. O bunu, bu onu itələyərdi. Bir başqası da yanındakını qülleteynə itələrdi. Yıxılanın boğazına bir qədər çirk sudan getdikdə daha da əsəbiləşib kənara çıxardı, öz fitəsini açıb düşərdi birinin canına, o da canının dərdindən əlindəki satılı onun başına çırpardı. Bir-birini saçlayıb ağızlarına gələn söyüşü yağdırardılar. Qoca qarılar harayçılıq edib onları aralardılar. Burada yeniyetmə qızlarla qocalara bir qədər güzəşt edərdilər. Qızlar xəznədən növbəsiz su da götürə bilərdilər.

Gülpəri satılı su ilə doldurub Məşədi Püstə bacının başına tökərdi. Məşədi Püstə bacı sözü təzələyərdi.

– Ağ baxt olasan! Allah sənə bir halal süd əmmiş yetirsin. Sonra üzünü Ağabacıya çevirərək: – Ay balam, nöşün bunu verib başından eləmirsən? – deyərdi.

– Nə eləyim, a Meşədi Püstə bacı! Kişi qocalıb, yavaş-yavaş əldən düşür. Mənə bir elə adam gərəkdir ki, həm oğul olsun, həm kürəkən. Bir özü, bir çuxası, başmağını çıxartsın, girsin mənim evimə...

– A... a... a... Qaragün canım, heç bu vaxta qədər mən bunu eşitməmişəm. Minnətini çəkərlər, ayağının altından öpərlər. Qoy qonşumuz Kəblə Paşanın yasından başım ayılsın, mən bir qazan qaynadaram ki...

Nurcahan xala əvvəl çirkli paltarları hamamın bayırında yuyub, qızının başının xınasını tökərdi. Sonra onu təmiz yuyub qurtarardı. Dəstələrdən birinə yanaşaraq laqqırtıya başlardı. Bir vədə baxıb görərdi ki, gün batıb, hamamçı camadarı göndərib ki, axşam olduğu üçün camaatı bayıra çıxartsın. Qadınlar axşamın düşdüyünü ancaq bu zaman hiss edər və xeyli təşvişə düşərdilər. Tez başlarına su töküb pak olduqdan sonra hamamdan çıxardılar. Nurcahan xala da tez yuyunub evə gedərdi.



Məlum olduğu kimi, keçmişdə bütün Azərbaycanda, o cümlədən Bakıda da qadınlar dörd divar arasında məhkum, məzlum, avam və cahil bir halda yaşayırdılar. Onların işi uşaq doğmaq və kişiyə qulluq etmək idi. Qadınların insanlıq və vətəndaşlıq hüququ yox idi. Onlar ictimai yerlərə çıxmazdılar. Onların getdiyi yer toy, yas və hamam idi. Dövlətli qadınlar toya və hamama ümumiyyətlə, özlərini göstərməyə, varlı olmayanlar qarşısında lovğalanmağa gedərdilər. Bir də görərdin ki, dövlətli qadın on iki taxtalıq alışdım-yandım tumanını, al xaradan tikilmiş, yaxası baftalı köynəyini, pencə-pencə donunu geydi, başına qızıl çutquqabağını bağladı. Onun üstündən cərgə gül, qızıl silsiləsini, həmailini bağladı, qollarına qızıl qolbaqlarını keçirib, belinə qızıl kəmərini, barmaqlarına əlvan qaşlı qızıl üzüklərini taxıb, ayağına gümüşdaban başmağını geyib, başına al rəngli Şirvan ipək çarşabını salıb, satıl boğçasını qaravaşa[1] verib hamama gedərdi. Həmin qadın bu qədər zinətlə hamama gəlib soyunardı və bütün süslü-bəzəkli əşyasını bir boğçaya bağlardı və hamamçıya tapşırardı. Hamamçının yanında isə yüzdən yuxarı boğça olardı. Belə hadisə olurdu ki, bəzən qeyri bir qadın dövlətli qadının boğçası rəngdə boğça bağlayıb hamamçıya verdikdən sonra içəri girib tez yuyunardı və qayıdıb tez öz boğçasının əvəzinə həmin dövlətli qadının boğçasını alar, cəld geyinib aradan çıxardı.

Məsələ məlum olduqda, necə deyərlər, ara qarışıb məzhəb itərdi, zənənə hamamının nə olduğunu indi siz özünüz təsəvvür edin. Ağız deyəni qulaq eşitməzdi. Hamamçı nə qədər axtarsaydı heç bir şey əldə edə bilməzdi. Yazıq qadın ağlaya-ağlaya evlərinə dönüb əhvalatı nağıl edərdi. Əri də onu bir xeyli döydükdən sonra:

– Belə arvad mənə lazım deyil, – deyərək, onu atası evinə göndərərdi. İş düşərdi məhkəməyə. Məhkəmə idarəsi bir çox vasitələrlə bəzən dövlətli qadının itkisini tapardı. Bundan sonra kişi pristava, aqalodoçniyə[2], yasavula qızılların bahası qədər rüşvət verdikdən sonra malı əlinə gələrdi. Çox vaxt belə itkilər heç tapılmazdı. Arvad bədbəxt olub atası evində ömrünün axırınadək gözüyaşlı qalardı. Atası da axund otağında, divanxanalarda kəbin və talaq davası edərdi.

[1] Qədim zamanlarda Məkkəyə gedən varlı hacılar qayıdarkən Ərəbistandan qul-qaravaş alıb gətirərdilər. Bu iş böyük bir şan-şöhrət hesab olunurdu.

[2] Aqalodoçnik – polis məmuru (*red.*)

Nurcahan xala hamamdan çıxıb evə tələsir. Kəblə Novruzqulu da axşam olduğu üçün dükanı bağlayıb ahəstə addımlarla Nurcahan xaladan qabaq gəlib evə çıxardı. Bu zaman qapının qıfılını və lampanın yanmadığını görüb qanı qaralardı. Yanını su çəlləyinin üstünə qoyub deyinə-deyinə arvadı gözlərdi. Nurcahan xala həyətə girər, nəzəri kişinin turşumuş sifətinə sataşdıqda qıçları quruyardı. Kişi arvadı o ki var biabır edəndən sonra deyərdi:

– Bu gün niyyət axşamı olmasaydı, mən bilərdim sənə nə edərdim.

– Ay kişi! Mən nə eləyim, yetimlərinin başlarını, əndamlarını yumağa getmişdim də. Toya, qonaqlığa, ixtilata getməmişdim ki?!

Şamdan sonra kişi və arvad bir ay oruc tutmağı niyyət edərdilər.

Ramazan ayının özünəməxsus süfrəsi vardı. Firni, tərək, bal halvası, nazik yuxa, şorqoğalı, bəyimçörəyi, paxlava, südlüsıyıq və sairə. Bozbaşla plov da başda olardı. Axşamayaxın bütün evlərdə süfrələr salınar, samovar qaynadılardı. Nurcahan xala uşaqları süfrənin başına yığar, Kəblə Novruzqulu da daş səkinin üstündə oturub, qonşusu Kəblə Vəli ilə azanı gözləyərdi. Qaladan azan səsini eşidərkən hər kəs öz evinə gedib süfrəyə hücuma başlardı. Bakının avam, yoxsul camaatı bir ay orucluğu bir sayaq başa vurar, qocalar və ağsaqqallar isə din xadimlərinin hərbə-qorxusu ilə vaxtlarını məsciddə dua və namazla keçirərdilər. Cavanların əksəriyyəti isə zorxana və fincan oyunu ilə məşğul olardı.

**"Zorxana" oyunu.** İçərişəhərdə, Yuxarıbazarda, Qoşa karvansaranın altında tağ bir zirzəmi vardı. Qapısı bazarın içindən idi. Özü çox qaranlıq idi. Ortada sementlə suvanmış böyük bir hovuz vardı. Bütün oyun o hovuzun içində keçərdi. O hovuza "süfrə" deyərdilər. "Süfrə"nin 10 metr eni və uzunu, metryarım dərinliyi vardı. Zorxana oyunu alətlərinin birincisi zorxana mili idi. Bu alət şümşaddan, azaddan və yaxud da palıd ağacından qayrılardı. Bunun bir çərək yoğunluğu, beş çərək uzunluğu olardı. Onun başı nazik idi, lakin getdikcə qalınlaşırdı, ucu isə yumru idi. Zorxana alətlərinin ikincisi, metryarım uzunu, yarımmetr eni, üç santimetr qalınlığı, qapıya oxşar ortası olan dəstəli taxta ekbagirlər (səng) idi. Ekbagirlərdən başqa, üç santimetr yarım qalınlığında, bir metr uzunluğunda girdə, ucları bir metr uzunluğunda zəncirlə birləşdirilmiş dəmir alət də var idi. Zəncirin ucu qarmaq kimi olub, özü də iti dəmir parçalarla nəsb edilmişdi. Belə ki, o aləti bir əllə dəmirin





*Zorxana*

ortasından, o biri əllə zəncirin ortasından yapışıb, dik başlarının üstünə qaldırardılar. Sağa və sola aparıb sonra başlarına keçirərdilər. Bu proses çalınan dumbulun ahəngi ilə əvvəlcə ağır, sonra bir qədər sürətlə davam edərdi. Həmin aləti başına geyindirən adam zəncirin ucundakı iti qarmaqları üzünə toxundurmamalı idi. Yoxsa üzü sıyrılıb dağılardı. Bədənini və üzünü parçalamayan adam oyun qurtarandan sonra məharətli sayılardı. O alətin adı kamada idi.

Bunlardan savayı oyunda iştirak edənlər bir pudluq, iki pudluq, üç pudluq daşları da havaya atıb bir əllərilə tutardılar. Ekba oynayanlar o hovuzun içində arxası üstə uzanıb ekbagirlərin hərəsini bir əlinə alar və bütün bədəni ilə sağa və sola hərəkət edərdi. Bu hərəkət zamanı sağdan-sola arxası üstə hərəkət edərkən, sağ qolu yuxarı, sol qolu aşağı enməli idi. Soldan-sağa hərəkət edən zaman həmin iş əksinə təkrar edilməli idi. Həmin oyun da dumbul çalınması ilə davam edərdi. Dumbul əvvəl ağır, sonra sürətli templə çalınardı. Hər kəs yuxarıda qeyd etdiyimiz hərəkəti iyirmi dəfə təkrar etsəydi, o böyük bir pəhləvan sayılardı. O oyunun xüsusi bir mahnısı da vardı. Dumbulçu həmin mahnının ahəngi ilə dumbulu çalar, iştirakçılar da aşağıdakı mahnını oxuyardılar:

Əlif Allah, adın eylədim əzbər,
Bey buyurdu lütf siyan çağıdır.
Tey tarallah, söz sünbəsəy,
Cim cəmalın görcək əqlim dağıdır.
Hey hesab çəkər,
Xey xiyaldadır.
Dal gəncüm üstə istemaldadır.
Vav vəlidir,
Müşkülləri həll elər.
Lam əliflə
Mömünlərə yol elər.
Yeyə yalvar
Murad səni qul elər.
Qibləgahə ərz etməyin çağıdır,
Ayın əli kəsər üstə sağıdır.

Zorxana oyunlarından biri də "sino" oyunu idi.



**"Sino" oyunu.** "Sino" oyununda iştirak edənlər cərgə ilə "süfrə"nin içində üzüqoylu uzanıb, ayaqlarını divara dayayardılar. Sonra iki əllərinin üstə yerdən bir qarış yuxarı yeriyər, əvvəl sağa, sonra sola, ən axırda aşağı enər, yerə çatar-çatmaz təkrar qalxardılar, lakin onların sinələri yerə dəyməməli idi. Bunun sayı 120 idi. Hər kəs bu rəqəmi yerinə yetirsəydi, bədəni sağlam hesab olunardı. Həmin rəqəm tədricən qalxa da bilərdi. Yaxşı və məşhur oyunçular "sino" oyununa gedərkən bellərində kiçik bir uşaq oturdardılar. Bu o adamın qüvvətli olduğunu göstərirdi. Oyun ramazan ayının 1-dən 18-dək davam edərdi. Zorxanaya kim yazılsaydı, gərək hər gün oyuna gələydi. Cavanlar təkcə daş oyunu ilə kifayətlənməyib "mil" oyunu da oynayırdılar.

**"Mil" oyunu.** Novruz bayramının ortasında hərə əlinə bir mil alıb başının üstə qaldırardı. Bu arada dumbul çalınardı. Dumbul əvvəlcə lap ahəstə, sonra get-gedə zilə qalxıb yenə də enərdi. Mil oynadan adam həmin ahənglə başının üstə milləri hərləyərdi. Oyun qurtardıqdan sonra camaat onları alqışlardı. Bəziləri camaata xoş gəlmək üçün mili tək əlilə yuxarı atıb yenə dəstəsindən tutardı. Yaxşı mil oynadanlar mili qıçının altından da atıb havada tutardı. Axırda qurşaq (güləşmə) tutardılar. İştirak edənlər: Şonu oğlu Həsən, Məmməd Hüseyn, Şah İsmayıl, Pəhləvan Məhəmməd Hənifə, Çəro Süleyman, Altıaylıq Əbdüləli, Xiləli pəhləvan (Əli Himmət), Zorba Rzaqulu, Hapış Məmmədəli, Qatırçı Mirzə, Axmaq nəvəsi İsrafil, Çopur Sayad oğlu Xaliq, Məmməd Hənifə, Tarta nəvəsi Kəblə Hüseyn, Balabançı oğlu Məhəmməd, Xəlfə Süleyman olardı (adamlara ləqəb qoymaq keçmişin qəbih adətlərindən idi).

Onlar məşğələdən sonra hər gün hamama getməli idilər. Oyunun axırına bir qədər qalmış, pəhləvanların birindən əhali təvəqqe edərdi ki, gənclərlə güləşsin. Altıaylıq Əbdüləli qazamatı papağını başından yerə qoyar, sarı ipək qurşağını açar, ipək eləcə köynəyini çıxarardı, sonra onun qabağına bir tünükə qoyardılar. Gənc həvəskarlar da soyunardı. Altıaylıq "süfrəyə" tullanardı. Onu hər tərəfdən tamaşaçılar alqışlardılar. Məşhur musiqişünas-xanəndə Hacı Zeynal oğlu Ağakərim qurşaq tutulmadan qabaq Altıaylığın şəninə pişrə deyərdi.

Altıaylıq özü nazik, başı heydərili, uzun qarabığlı, hündürboylu, enlikürəkli, üzügülər bir pəhləvan idi. Dodaqaltı gülə-gülə əlini döşünə qoyub camaata baş əyərdi. Bir qədər gənclərlə qurşaq tutandan sonra

əliaçıq tamaşaçılar əllərini qoltuq cibinə aparıb ona üçlük, beşlik, onluq, əsginas (kağız pul) bağışlardılar. Hərdən İrandan, Ərdəbildən, Sarabdan nüfuzlu, adlı-sanlı qurşaq tutanlar da gələrdilər. Mənim yadımdadır ki, bir dəfə orada mən bir hind pəhləvanı görmüşdüm. Bu günlərdə zorxanada onlar da iştirak edərdilər. İran əhlindən olan, lakin Bakıda yaşayan pəhləvanlar da vardı: Şatır Məmməd (çörəkbişirən), Kankan Rza (quyuqazan), Qənnadçı Kərim, Pinəçi Məmi beləlꞏərindən idi. Yığılan pullardan zorxanaya xərc və iştirak edənlərə hamam pulu verilərdi.

**"Fincan-fincan" oyunu.** Bu oyun çox vaxt çayçı dükanlarında oynanardı. Çayxanaya girən yerdə, qapının sağında və ya solunda bir kvadratmetr yer ayrılardı. Orada bir metr hündürlüyündə taxtadan stol kimi bir şey qayırıb onun üstünə kərpic döşəyər, samovar üçün ayaq yeri qayırıb böyük samovarı oraya qoyardılar. Samovar üçün dəmir boru düzəldib ucun pəncərənin bir gözündən qırağa çıxarardılar ki, kömür qızaranda buxar və tüstü dükana dolmasın. Samovarın böyründə palçıqdan bir ocaq olardı. Oraya köz töküb üstündə dəm almaq üçün çaynik qoyardılar. Samovarın yanında, divara qatarla kiçik mıxlar vurub xırda podnoslar asardılar. Dükanın ortasında, dükanın boyu bərabəri uzun stol olardı. Stolun üstündə müxtəlif çayniklər, qəndqabı, stəkan-nəlbəki, sulu qəlyan, Şiraz qəlyanı da olardı. Çayçı şəyirdləri bazar-dükanlara çay daşıyardılar. Divarın dibində 50 santimetr hündürlüyündə, 75 santimetr enində, dövrə skamya olardı. Onun qabağı qırmızı şilə ilə örtülü olardı. Dükanın yuxarı başında ayrılmış yer olardı ki, ona pəsdükan deyərdilər. Pəsdükanın yeri bir metr hündürlüyündə taxt olardı. Onun altına samovar üçün kömür tökərdilər, üstünü isə xalça, palaz, həsir ilə döşəyərdilər. Dükan sahibi və şəyirdi gecələr burada yatardı, başqa vaxt orada qumar oynardılar. Orucluqda isə gecələr burada "fincan-fincan" oyunu oynanardı.

75 santimetr diametrli bürünc məcməyini götürüb çərçivəsinin bir yerində qədəhə oxşar bir mis, ya bürünc və ya taxta fincan qoyardılar. Buna "molla" adı verilərdi. "Molla"dan sağa və sola bir qədər aralı, altı fincan düzərdilər. Bunlardan başqa birini də "molla"nın qarşısına, məcməyinin o biri tərəfində başabaş qoyardılar. Bu fincana başabaş, "molla"nın sağında və solundakı iki fincana isə qoltuq deyərdilər. Qoltuqdan aşağı olan sağ və sol iki fincana ikilik deyərdilər. İkilikdən aşağı sağ və sol fincana üçlük deyərdilər. Üçlüklərdən aşağı iki sağ və sol fin-



cana dördlük deyərdilər. Dördlükdən aşağı iki sağ və sol fincana beşlər deyərdilər və beşlərdən aşağı soldakı və sağdakı iki fincana başabaşın qoltuğu deyərdilər. "Molla"dan başqa, fincanların birinin altında bürünc və ya mis üzüyə oxşar halqa gizlədərdilər. Buna gül deyərdilər. Oyunda iştirak edənlər dəstələrə ayrılardı. On və ya on beş nəfərdən ibarət olan dəstələr dükanın künclərinə yığılardılar. Öz çuxalarını və ya bir böyük süfrəni kündə bir pərdə qayırıb asardılar, fincanları orada qayda ilə düzüb, halqanı birisinin altında gizlədərdilər. Onların məşhur gül düzən və bir gül tapanları vardı. Məcməyini dəstənin biri düzüb, o biri dəstə üçün gətirərdi ki, tapsınlar. Özü üçün məcməyi gətirən dəstə gərək o gülü tapaydı. Məcməyini araya alıb deyərdilər:

– Adə, gül qoltuqdadır.

– Yox, gül başabaşdadır.

– Sən bilmirsən! Gül dördlərdədir.

– Adə, sən tikanlıqdan dəvə tapa bilməzsən! Sən niyə danışırsan. Gül yəqin ikilikdədir.

Onlardan biri:

– Heç biriniz bilmədiniz! Bircə məcməyini bəri ver!

Məcməyini alıb yerdə fırladıb fincanlara diqqətlə baxardı. Bir qədər düşündükdən sonra şəhadət barmağını dikləyib, "molla"nın sağ tərəfindən başabaş qədər barmağılə boş, boş, boş... deyib fincanları bir-bir sıradan çıxarardı. İttifaqən sıradan çıxmış fincanın birinin altından üzük çıxsaydı, o vaxt uduzmuş olardı. Halqanı geri qaytarardılar və fincanları təzədən düzərdilər. Məcməyinin içində bir altılıq və bir başabaş qalanda üzük tapılmış hesab olurdu. Çünki axtaran dəstənin iki dəfə gül çəkməyə ixtiyarı vardı və gül çəkməmiş fincanların hamısını boş, boş deyərək sıradan çıxarardı. Gül çəkmək prosesi belə olardı: qarşısında məcməyi olan adam birdən bir əlini uzadıb fincanı üsulluca məcməyinin ortasına çəkərdi. Sonra onu yavaş-yavaş tərpədərdi. Fincanın altında üzük tərpənərdi. Odur ki, dizi üstə qalxıb fincanı zərblə yerindən çevirdikdə üzük fincanın içindən sıçrayıb evin tavanına doğru qalxardı. Ona görə də deyərdilər: Filankəs bikr (Bakirə sözündəndir, toxunulmamış, insan əli dəyməmiş mənasında işlənir.) gül vurdu.

Bəs gül neçə dəfə tapılmalı idi? Bunun miqdarı 10 dəfə idi. Hərgah dəstə bir dəfə bikr tapsaydı, o udmuş olardı. Əgər 9 dəfə tapmayıb onuncu bikr tapsaydı, doqquz dəfə uduzmağına baxmayaraq yenə udmuş hesab olunurdu.

Həmin oyunu bu qədər əzab çəkib nədən ötrü oynardılar? Məlumdur ki, oyuna seyr etmək üçün dükana yığılan cavanlar (hər iki tərəf) çay içərdilər, şorqoğalı yeyərdilər, qəlyan çəkərdilər. Bunların pullarını isə oyunda uduzan tərəf verməli idi. Tamaşaya yığılan həvəskarların da pulunu uduzan dəstə verməli idi. Oyun zamanı bəzən "Rüstəmnamə"dən və "İsgəndərnamə"dən nağıl deyərdilər, dərviş, aşıq oxutdurardılar. Çox vaxt oyun gecə yarısına qədər davam edərdi.

Oyun qurtarandan sonra hər kəs evinə gedib obaşdanlığını eləyib yatardı.

Orucluqda bir axşamdan, bir də obaşdan yeyərdilər ki, bütün günü ac qalmağa dözüm olsun.

Oruc tutanların çoxu günortayadək yatardı. Günorta vaxtı, saat 12 tamamda, ağzı oruc məşədilər, hacılar, möminlər və başqa dindarlar Allaha xoş gəlsin deyə, dəstəmaz alıb Quranı qoltuğuna vurar, təsbehini əlinə alıb məscidə gedərdi. Məscidin içində isə başqa bir aləm vardı. Burada üzü mehraba sarı, sıra ilə səf çəkib oturardılar. Pişnamaz gəlib zöhr, günorta əsr namazını qılardı. Vaiz minbərə çıxıb bir qədər göydən, yerdən danışdıqdan sonra mərsiyəxan Kərbəla vaqiəsindən danışmağa, yalanlarla camaatı aldatmağa çalışardı. Sonra gedənlər gedər, yerdə qalanlar müqabiləyə (Quran mütaliəsinə) oturardılar. Məscidin ortasında səsli uşaqlardan dörd-beşini sıra ilə əyləşdirərdilər. Qare (Quran oxuyanlardan biri) avazla oxumağa başlardı. Qare yorulanda uşaqlardan biri sonuncu ayəni bərkdən təkrar edər və qare üçün dincəlməyə imkan yaradardı.

Bu qayda ilə gündə bir cüz Quran oxunub qurtarmalı idi, çünki ay 30 gündür, Quran da 30 cüz idi, Quranı qurtarandan sonra hamı iftara gedərdi. Ramazan ayının 19, 21, 23-cü günlərinə əhya axşamı və ya sadəcə, əhya deyərdilər. Həmin günlərdə məscidlərə halva-çörək bişirilib göndərilərdi. Əhyalarda gecə yarısı avam camaat məscidlərə dolub, mollanın ərəbcə dediyi anlaşılmaz ibarələrini dinlər, sonra hər kəs evinə qayıdardı. Alverçi hacılar, baqqallar, müamiləçilər, dəllallar bəzən səhərədək yatmazdılar, namaz qılıb zikr edərdilər. Gördükləri bəd əməllərdən tövbə edərdilər, Allaha yalvarardılar ki, alış-veriş edəndə nə qədər adam aldatmışlarsa, yalandan and içib köhnə malı təzə mal əvəzinə satmışlarsa, görməyə-görməyə, bilməyə-bilməyə şəhadət verib xalqın oğullarını Sibirə göndərtdirmişlərsə günahlarından keçsin. Əmzikli yoxsul analar isə şənlik əvəzinə, qonşu qapılarında, ocaq qabağında səhərədək çalışdıqda yuxusuz, evləri, uşaqları başsız qalardı. Bundan başqa evdə anaların döşlərinin südü quruyardı. Qonşu qadınlar yığılıb onu süd quyusuna aparmağa hazırlaşardılar, onlar qonum-qonşudan bir qədər un, yağ, doşab alıb, Xan sarayına (keçmişdə cəzaya məhkum edilmişlərin meyiti atılan quyunun üstə) gedərdilər. Orada "Süd quyusu" deyilən yerdə, südü çəkilmiş qadının döşündən bir qədər oraya süd sağıb, ocaq qurar, halva çalardılar və evə qayıdardılar.

O halvanı özləri yeyərdilər və qonum-qonşuya paylayardılar ki, ananın döşlərinə süd gəlsin. Paylanmış halvaya tutya deyərdilər. Fəqət buna baxmayaraq, qadının döşlərinə süd gəlməzdi. O, bir qədər yedikdən və istirahət etdikdən sonra döşləri südlənərdi. Avam qadınlar bunu "Süd quyusunun kəraməti" adlandırıb etiqad edərdilər.

Bəzən uşaqların diş çıxarması orucluq vaxtına təsadüf edərdi. Orucluqda qadınların işi çox olduğundan uşağı özbaşına buraxardılar, qəflətən uşağın gözləri qan çəkər, ağzının suyu axar, bədənində bir az qızdırma əmələ gələr, evdə Xanpəri, Gülpəri, Fatmanisə yığılıb uşağın dərdini başa düşməzdilər, olmazın türkəçarə davaları ilə bu uşağın qarnını doldurardılar. Yazıq uşaq daha da şiddətli şıltaqlığa başlayardı. Bir həftədən sonra başa düşərdilər ki, uşaq diş çıxarır. Uşaq üçün təzədən bir dəsgaha başlayardılar. Noxudu, buğdanı, mərcini, lobyanı bir-birinə qarışdırıb, qazana töküb hədik bişirdikdən sonra qonşulara paylayardılar. Buna "dişçıxarma hədiyi" deyərdilər.

**Səməni bişirmə.** Böyük tabaqlara buğda töküb isladardılar. Buğda göyərərdi, belə ki, rişələri bir-birinə qarışardı, sonra onu parça-parça doğrayıb əzərdilər. Onun ağ rəngli rişəsini sıxıb qablara yığardılar, sonra ona bir qədər su töküb, həyətdə ocaq qurub, böyük, iki-üç pudluq mis qazanlarda iki-üç gecə qaynadardılar. Bişənə yaxın rəngi yavaş-yavaş qızarardı. Onun içinə qoz, fındıq tökərdilər. Qonşu arvadlar hərə bir bəzəkli xonça düzəldib aparardılar və "Allah qəbul eləsin" deyib həyətə düzərdilər. Qaydaya görə, həyətə düzülən xonçalar evə qoyulmazdı. Belə ki, həyətdə ayaq basmağa yer tapılmazdı. Həyətin hər yeri əlvan xonçalarla bəzənərdi. Gecə hamı oturub gözlərdi ki, görsün filankəsin səmənisi qəbul olacaq ya olmayacaq. Əgər səməni şirin çıxsa idi, demək qəbul olunmuşdur. Qadınlar çalıb oxuyar, oynayardılar, əgər şirin olmayıb acıtam olsaydı, deməli qəbul olmamışdı. Ancaq demək lazımdır ki, camaat o qədər avam idi ki, qazanın altının odu çox düşdüyündən dibi yandığı üçün acı tam verdiyini başa düşməzdilər.

Səməniyə çağırılan qadınlar oynar, çalar, yorulardılar, sübhə yaxın sabah yeli onlara dəyər, yuxulardılar, ev yiyəsi vaxtdan istifadə edərək, gizlincə səməni qazanının ağzına qoyulmuş məcməyinin içindəki una əl basardı və yenə qayıdıb üsulluca öz yerinə girərdi, bu ondan ötrü idi ki, qonşular səməninin qəbula keçməsini təsdiq etsinlər, əgər səməninin ununda əl izi olmasaydı: "Fatimeyi Zəhra nəzirimizi qəbul etməyib", – deyərdilər.

Əhyalardan sonra axundlar minbərlərdə səxavətdən, fitrədən söhbət açıb camaatı qızışdırardılar. Fitrə, bir ay davam edən orucun "qada və balasını qaytaran" nəzir idi. Ailədə neçə adam olsaydı, axunda adambaşı çərəkyarım (çərək dördə bir deməkdir) buğda verməli idilər. Axund onlara deyərdi ki, əziyyət olmamaq üçün çərəkyarım buğdanın pulunu hesab edib, adambaşı o qədər pul versinlər. Fitrələr hazırlanardı, hər ev iki, beş, on manat toplayıb axunda təqdim edərdi. Axund pulları cibinə qoyar və camaatı aldadardı ki, pulları yoxsullara paylayacaqdır. Bu sürətlə bütün pulu həzmi-rabedən keçirərdi. Ruhanilər camaatı beləcə soyardılar.

Mollaların fırıldaqlarını çox adam bilməzdi.

Orucluğun axırına yaxın göydə Ayı axtarardılar. Bəzən hava buludlu olduğundan Ay görünməzdi. Bəzən şəhərə söz yayılardı ki, Günəş və ya Ay tutulmuşdur. Bir də görərdin hərə əlinə bir mis qab alıb dama çıxar və onu döyəcləyərdi. Bir para evlərdə uşaqların atası çaxmaqlı tüfəngi doldurub gurhagur ilə güllə atardı ki, Ay və ya Günəş "tilsimdən" xilas olsun.

Məsələdən xəbərdar olmayan polis məmurları tüfəng səsini eşidib küçələrə düşərdilər. Təqsiri olmayan fəhlələri, qocaları evlərdən çıxarıb həbs edərdilər. Əlsiz-ayaqsız, avam, biçarə qadınlar və qoca qarılar çadralarını başına salıb, balaqlarını çəkə-çəkə məhəlləboyu düz Hacı Kazım boyin üstünə gedərdilər. Hacı Kazım məhəllədə ağızlı və sözüötən adam idi. O da məsələni başa düşüb, kiçik kağızda bu əhvalatın mənasını pristava yazaraq camaatı bir təhər buraxdırardı.

Orucluq günlərində, havalar açıq və təmiz olanda camaat dəstə-dəstə çölə, qoca kişilər isə dama çıxardılar və Ayı axtarardılar. Bəzən ayın 30-cu günü belə, Ay görünmürdü. Bir də görərdin ki, bir nəfər axundun qapısına gedib: "Mən Ayı görmüşəm!" – deyə bağırır. Camaat dərhal onun başına yığılardı. Axund onun yaşını soruşardı və 60 olduğunu öyrənərdi.

– Quran oxuya bilirsənmi?!



– Bəli.

Quranı oxutdurandan sonra onun savadlı olduğunu bilərdilər.

– İndi sən Qurana and içməlisən ki, yalan demirsən və lap Ayın özünü görmüsən! Kişi də and içərdi ki, Ayı görmüşdür.

Bəzən də Şəkidən, Şirvandan və ya Qarabağdan aşağıdakı məzmunda gülməli teleqram gələrdi: "Ay görünüb, bayramınız mübarək olsun, oruc-namazınız qəbul olsun. İmza: Molla Fərəculla".

Gecə ilə azançıları qalaya çıxarıb, minacat çəkdirər, sabah bayram olduğunu məlum edərdilər. Səhər tezdən mövhumatçı kütlə dəstəmaz alar və birinci növbədə fitrə pulunu gətirib, məsciddə min bir fırıldaqla camaatın beynini zəhərləyən, gözünü pərdələyib cəhalət, avamlıq, hüquqsuzluq məngənəsində saxlayan axundun ovcuna basardı. Axund pulları ehmalca yaylığa bağlayıb əbasının altına qoyar və elə əkilər ki, görən olmasın. Yoxsa onun hiylələrinin üstü açıla bilərdi.

**Qurban bayramı.** Qurban bayramı da varlılar bayramı idi. Bayrama bir-iki həftə qalmış, pulu başından aşanlar qoyun alıb həyətə buraxardılar. Bəslənib yemlənmiş, kökəlmiş qoyunu bayram günü həyətə çıxarıb, gözünə sürmə çəkib su verər, ağzına bir parça qənd qoyardılar. Qurban duasını oxuduqdan sonra qoyunu kəsərdilər. Fəqir-füqəraya paylamaq əvəzinə, dərisini soyub ya satar və ya molla üçün göndərərdilər. Quyruğunu da əridib bankalara tökərdilər. Əti doğrayıb varlı və tanınmış qonşulara və qohum-əqrəbaya payladıqdan və əvəzində onlardan ət payı aldıqdan sonra oturub kabab yeyərdilər. Fəqir-füqəra, əlsiz-ayaqsızlar, yoxsullar, dilənçilər gəlib sədəqə istədikdə, min cür danlaqdan sonra, ağalar qoyunun sür-sümük və şəndir-şündüründən verib rədd edərdilər. Bayram günləri Bakıda və ətraf kəndlərdə 10 minədək qoyun kəsilərdi. Əgər biri 2 manatdan hesab edilərsə, 20 min manat pul edərdi. Həmin pula bir məktəb və ya bir xəstəxana açmaq olardı. Lakin bunun əvəzinə, pullar müftəxor və boynuyoğun ruhanilərin, acgöz, fırıldaqçı axund və mollaların cibinə axardı.

**Qız bəyənmə.** Məşədi Püstə bacı hamamdan çıxıb Kəblə Xeyransa xanımın evinə gəlir.

– Salaməleyküm, ay Kəblə Xeyransa bacı!

– Xoş gəlmisən, xoş gəlmisən, ay Məşədi Püstə bacı, həmişə sən gələsən, Zöhrə ulduzuna dönmüsən, səni əməlisaleh adamlar görə bilər, balam.



*Qurban bayramı*

– Dil-ağızçın var olasan, əcəb camalın, çoxdandır səni görməmişəm, ürəyim istədi, gəldim sənlə bir az dərdləşək.

– Gəl əyləş, gəl əyləş... – Üzünü öz qızına tutaraq: – Ay qız, döşək!

Tükəzban bir döşək gətirib Məşədi Püstə bacının altına salır.

– Uşağa zəhmət verməyün!.. İstəməz a... istəməz. Meşədi Püstə bacı... qadavi alsın, – deyə qızı qucaqlayıb, öpəndən sonra döşək üstə oturur, lənkə çarşabını çiyninə salaraq, cibindən burunotu çıxarıb burnuna çəkir və bir-iki dəfə asqırır.

Qız məcməyinin içində bir stəkan çay gətirib Məşədi Püstə bacının qabağına qoyur. Məşədi Püstə bacı çayı içməkdə olsun, o biri otaqdan Kəblə Xeyransa xanımın oğlu İnayət içəri girir.

– Xoş gördük, ay Meşədi Püstə bacı, xoş gördük, bizi lap yaddan çıxarıbsan!.. Əlin böyüklər ətəyindədir, saqqala salam vermirsən.

– Xalan boyuna qurban! Hər yerdə olsam duagunam, sənin kimi oğlanı heç mən yaddan çıxararam?!

İnayət əl uzadıb mıxdan çuxasını götürərək geyir.

– Ay Xeyransa bacı, İnayəti nöşün evləndirmirsən? Sən razı olarsan ki, a... mən İnayətin toyunu görməyib ölüm?.. Onunçun gərək mən bir qız tapam ki, gözəlliyi dillərdə dastan olsun.

– Ay balam, mənə elə bir adam lazımdır ki, həm əsil-nəcabəti, həm də atası atama, anası da anama tay olsun.

– Ay Xeyransa bacı, budur Ağca xanımın qızı Gülpəri?!

– A... a... a... balam, Allah imanuvi kamil eləsin, ay Meşədi Püstə bacı, mənim heç yadımda yoxdu. Əsil mənim evimin adamıdır.

– Dilsiz-ağızsız, sərri-sahmanlı, hər şeyin yerini bilən, dilini bilən, yırtıqlı-yamaqlı, şirəli-şəftəli, bir dəqiqədə ələyər, yoğurar, yapar. Qız döyül balam, yıxılmış evin dirəyidir. Belə tikəni əldən vermək olmaz... Hələ günü bu gün dur mənilən qəfildən gedək evlərinə. Qızı görməyə gedəndə, qəfildən getmək yaxşıdır ki, bəzəyi-düzəyi olmasın.

– A balam, deyirəm bir kişiyə məsləhət eləyim, sonra gedək.

– A canım, əvvəlcə gedək qıza baxaq, bəyəndin, sonra əlbəttə, kişiyə deyərsən. Bəlkə heç bəyənmədin.

– Hə... hə... hə... Yaxşı deyirsən. Bir az dayan, hazırlaşım gedək.

Qərəz, Kəblə Xeyransa Xorasan qanovuzundan tikilmiş çaxçurunu, abı firəng parçasından köynəyini geyib, dörd rəng ipək düyürdünü başına salıb, ördəkboyun qanovuz çadrasına bürünərək Məşədi Püstə bacı ilə bərabər Ağca xanımın həyətinə girib çağırırlar:

– Ay ev yiyəsi, ay ev yiyəsi!
Ağca xanım səsi eşitcək:
– Ay qız, Gülpəri, gör nə səsdir!
Qız əlində samovarın qara qapağını sürtə-sürtə saçı, başı nizamsız özünü bayıra atır və Kəblə Xeyransa xalanı görcək məsələni başa düşür.
Ucaboylu, şümşad biləkli, incəbelli, mərmərsinoli, minagərdənli, qönçə dodaqlı, mirvaridişli, çatmaqaşlı, alagözlü, alyanaqlı qız utanaraq, qumral saçlarını üzünə töküb, ürkmüş maral kimi evə qaçır.
– Ay ana, həyətə iki arvad gəlib, tanımıram, – deyərək anasının başı üstündən, ceyran kimi vaz atıb o biri evə qaçır.
Anası:
– Yaxşı, ay qız, az qala məni tapdalamışdın, nə olub məgər? – deyərək özünü bayıra atır. Bir neçə saniyə baxdıqdan sonra:
– Kəblə Xeyransa xanım deyilsən? A!.. Gəlin içəri də, özgəsi deyilsiniz ki! Qız başıbağlı üstümdən elə keçdi ki, məni də çaşdırdı.
Xeyransa:
– İstəməz, yaxşıdır, qıza deyinən bizə su gətirsin, su içib gedirik.
Ağca xanım:
– Qardaşımın canıyçün, canınçün olmaz. Ay ötüb, il dolanıb, ayəndə düşər şənbəyə Novruz, bir dəfə bizə gəlmisən, boş sudan nə olsun? Sən olasan oğluvun canı bircə evə gəl, heç olmazsa bizim bu kasıb daxmamızda bir-iki stəkan çay iç.
– Ay Ağca xanım, uzun çəkər, işimiz var. Bircə qıza deyinən bizə su gətirsin gəlsin içək.
– Ay Xeyransa xanım, iş həmişə var. Dünya malı dünyada qalacaq. Oğluvun canıyçün, qızımın canıyçün qoymaram.
– *Gülpəri, tez ol samovara od sal. Heç bilirsən bizə kim gəlib?* İnayətin anası Xeyransa xanımdır e...
Qız üst-başını düzəldərək samovara od salır.
Ağca xanım:
– Yaxşı bir deyin görüm ay, gün hayandan çıxdı ki, siz bizi yada saldınız?
– Nə bilim? A başuva dönüm, evdə oturmuşdum, Meşədi Püstə bacı gəldi, üzümü bir az danlayandan sonra qəbir üstə gedib, əhlqübura bir fatehə verdik, qayıdanda yolumuz sizin qapıya düşdü, dedik bir az su içək gedək.
– Elə həmişə sən gələsən, qədəmin mübarək olsun.



Bu zaman qız saçını, birçəyini kəlağayı altında gizləyib süfrəni bunların qabağına salıb, qaynar samovarı gətirib süfrəyə qoyur, çay dəmləyib ləbləb stəkanlara çay tökərək, qonaqların qabağına qoyur. Qızın ala gözlərini, şümşad barmaqlarını görən Kəblə Xeyransa xanım çox xoşlanır. Ağca xanım Kəblə Xeyransa xanımın qıza bu qədər diqqətlə baxdığını görüb, məsələni başa düşür.
Xeyransa xanım çay içdikdən sonra, çarşablana-çarşablana Ağca xanımdan soruşur:
– Qızın neçə yaşı var?
– Ay Xeyransa bacı, heç yadımda döyül, bu anadan olanda üzüm vaxtı idi, qardaşım yasin çərəkəsinin arxasına yazıb.
– Ay qız Gülpəri, Gülpəri! O yasin çərəkəsini bura gətir.
– Gərək döyül, yasin çərəkəsini tutaq ki, hələ gətirdin, bəs bunu kim oxuyacaq. Heç birimiz oxumaq bilmirik.
– A, Gülpəri bilir, Quranı çıxıbdır, gərək 16-17 yaşı olsun.
– Eybi yoxdur, sağlığnan qal, oğluvun, qızıvın toyunu görək, sağlığnan qal, balam.
– Xoş gəldüz, xoş gəldüz, qədəm əziz elədüz.
Xudahafizləşib həyətdən çıxıb gedirlər.
Yolda Məşədi Püstə bacı sözə başlardı:
– Hə, Xeyransa bacı, qızı bəyəndün?
– Meşədi Püstə bacı, heç dinmə, doşab almışıq, bal çıxıb.
– Tez, dayı qızı elçilə, eşitdiyimə görə, qız üçün çox yerdən adam gəlib.
– Hələ günü bu gün kişi ilə söhbət elərəm, sabahdan oyana qoymaram. Sənin də xələtin mənim gözüm üstə, toydan farağat olum, gör sənə nələr bağışlayacağam.
Xeyransa Məşədi Püstə bacıdan ayrılıb evə gəldikdə, Hacı Abtalıb soruşur:
– Arvad, haradan gəlirsən?
– Ay Hacı, bir dayan nəfəsimi dərim, sənə bir xeyir xəbər verəcəyəm.
– Xeyir olsun, Xeyransa.
– Qəbir üstündən qayıdanda, yolumuz Ağca xanımgilə düşdü.
– Ağca xanım? Kəblə Fərəcullanın arvadı?
– Hə... hə...
– Sonra?

– A kişi, onların nə gözəl qızları varmış? Mən arvadlığımnan o qıza aşiq oldum, gəlsənə o qızı oğlumuzçun alaq?..

– Ay arvad, o qızın barəsində mən də eşitmişəm, deyirlər çox vəcihədir, Quranı da əzbər bilir.

– Hə.. hə...

– Arvad pis adam döyüllər, əgər məsləhət görürsən elçi göndərək.

– Axı, bir iş var, deyirəm bir İnayətnən danışaq. Sən onunla bu barədə söhbət elə, sonra mənə deyərsən, əgər razı olsa, işi başlayaq. Hə, odu a... özü gəlir, mən gedirəm, sən özün danış.

Hacı gedir. Bir qədər sonra anası oğlunu səsləyir:

– Ay İnayət! Ay İnayət!

– Nə var, ay ana?

– Anan sənə qurban olsun, ay bala, bir bura gəl, sənnən söhbət eləyəcəyəm.

– Xeyir olsun.

– Kəblə Fərəcullanı tanıyırsan?

– Necə bəyəm? Tanıyıram.

– İndi ikindi çağı qəbir üstündən gəlirdik, yolumuz Kəblə Fərəcullagilin evinin qabağından düşdü. Mən eşitmişdim ki, onun göyçək bir qızı var. Meşədi Püstə bacıynan su içmək bəhanəsi ilə girdik onların həyətinə. Baxtımızdan Ağca xanım da evdə idi. Qız bəzəksiz, düzəksiz öz paltarında qəfildən çıxdı bizim qabağımıza... Anan qadovu alsun, qız deyil, ceyrandır, atən razıdır, balam. Sən də razı olsan, elçi göndərərik.

– Ana, tutaq ki, mən də razı oldum, qızı da mənə verdilər, sonra axı sən onu yola verə bilməyəcəksən.

– A balam, nöşün yola vermirəm, mənim gözümün ağı-qarası bir oğlum var, gecə səhərəcən kürəyimi ayaza verib sənə layla çalmışam, zəhmətini çəkib səni böyütmişəm, indi səni evləndirərəm, toy eləyərəm, arzularıma çataram, dostum söyünəcək, düşmənim yanacaq, gözü çıxacaq. Mənim gəlinim – qızımdır. Nöş yola vermirəm?

– Ana, onu mən bilirəm, məni istəyirsən, fikrin də budur ki, toy eləyəsən, gəlin gətirəsən, ancaq ondan qorxuram ki, o dediklərin hamısı tərsinə olsun.

– Necə yəni tərsinə olsun, a bala? Başa düşmürəm.

– Başa düşmürsən? Bir qulaq as, mən səni başa salım. Toy eləyib gəlin gətirəndən sonra, dedi-qodu olmayacaqsa, yola verəcəksənsə, get al.



– Yaxşı, görərsən, mən necə gəlin saxlayaram. Hər kəs görsün mərhəba desin.

Axşam Hacı evdə ikən Kəblə Xeyransa xanım əlinə bir ayna götürüb qulaq falına çıxır. Küçə qapısını aralayıb:

– Görüm, görüm ki, gəlinimlə oğlumun püşkləri barışacaq, yaxşı yola gedəcəklər, falım yaxşı gəlsin, – deyə küçədəki danışıqlara intizarla qulaq asır.

Küçədə iki nəfərin söhbəti eşidilir.

– Məşədi İbrahim hayannan gəlirsən?

– Ə, salaməleyküm, balam, Kəblə Səfərin atını aldım!

– Kəblə Səfər o atı satdı?

– Həri.

– Neçiyə aldın?

– Yüz əlli manata.

– Ucuz alınısan.

– Yaxşı atdı, Allah xeyir versin.

Kəblə Xeyransa bunu eşitcək evə qayıdır:

– Ay Hacı, ay Hacı, indicə qulaq falına çıxmışdım, falım yaxşı gəldi.

– Arvad, İnayətnən danışdun?

– Hə, hə! Razıdır!

– Ay Hacı, oruc tutmayasan, namaz qılmayasan, işin belə düz gəlsün?

– Yaxşı a... indi bəs elçiliyə kimi göndərək?

– A?.. Buduva, qonşumuz baqqal Kəblə Novruzqulu: mömin, Allah bəndəsi, ağzı Quranlı, dualı kişi...

– Hə, hə, yaxşı deyirsən.

Səhər Hacı Abtalıb Kəblə Novruzqulunun yanına gedib əhvalatı ona nağıl edir və onu elçiliyə göndərir.

Kəblə Novruzqulu Fərəcullanın yanına gedir.

– Salaməleyküm, Kəbleyi.

– Əleykəssalam, əleykəssalam, hafizixoş kəlam. Xoş gördük səni balam. Səni də görmək olarmış... Buyur əyləş, buyur əyləş, əhvali şərif, damaği lətif.

– Əh, əcəb camalın, əcəb camalın, ay Kəbleyi.

– Kəbleyiyə nisbət qulluğun? Buyur görək.

– İnşallah ki, xeyirdir.

– Sən həmişə xeyirxəbərsən. Buyur, buyur.

– Hacı Abtalıbı tanıyırsan?

– Hə, tanıyıram, necə bəyəm? Onunla alış-verişin var? Mötəbər adamdır, qorxma.

– Mən qorxmuram, sən qorxma, alış-veriş səninlədir.

– Necə bəyəm?

– Onun oğlu İnayəti görmüsən, xoşuna gəlib?

– Allah saxlasın atasıyçın, anasıyçın. Nə demək istəyirsən? Bilmirəm, cavan uşaqdır da.

– Hacı Abtalıb istəyir səninlə qohum-quda olsun.

– Hə, indi başa düşdüm, Kəbleyi! Mən Hacı Abtalıbdan, külfətindən bir pislik görməmişəm və eşitməmişəm, biqal adamdırlar, əsil-nəcabətləri də pis döyül, ancaq... bir iş var. İndi mən sənə cavab verə bilmərəm, qızın anası var, dayısı var. Bir bu barədə onlarla da danışım, sabah da cümədir. Cümə məscidində camaat namazına yəqin gələcəksən, orada sənə cavab deyərəm. Ancaq o ki, qaldı mənə, mən razıyam, balam. Bir qız... bir oğlanındır, gülüm. Özü də ki, məndən çox uzaqda deyil, həmişə əlimdə, ovcumda olacaq. Şəxsən mən razıyam.

Kəblə Novruzqulu xudahafizləşir.

– Mürəxxəs olaq qulluğundan.

– Qul sahibi olasan, Allah sənə Məkkə ziyarəti qismət eləsin, xoş gəldin.

Kəblə Fərəculla axşam evdə Ağca xanımdan soruşur:

– Arvad, bu günlərdə bizə kim gəlmişdi?

– Necə bəyəm, ay kişi? Sözlü adama oxşayırsan, bizə bir elə adam gəlməmişdi.

– Yenə bir fikirləş.

– Hə... hə... hə... Bizə Meşədi Püstə bacı ilə Kəblə Xeyransa bacı gəlmişdi, Hacı Abtalıbın arvadı da, necə bəyəm, ay kişi, yoxsa bizim qızı istəyirlər hə?

– Hə... bir elə şeydir...

– O gün elə onlar gələndə mən başa düşdüm, qıza çox diqqət eliyirdilər, hələ yaşını da soruşdular, əşşi bir de görüm elçi gəlmişdi?

– Bəli, Ağca, qızımızçın elçi gəlmişdi.

– Yaxşı, a kişi, kimi göndərmişdilər?

– Kəblə Novruzqulunu.

– Nə dedün? Həri verdün?

– Vermədim, elə verən kimiyəm, ay arvad, sən necə, razısan?



– A kişi, mən oğlanı görməmişəm, anası canlara dəyən bir adamdır. Məclislər yaraşığı, əlitəsbehli, ağzıdualı mömin atası var. Hələ ata-ananın övladı pis olmaz. Mənim könlüm var.

– İndi ki, sənin könlün var, sən razı, mən razı, day nə qələt eləyir qazı!

– Onda adam göndər dayısını çağırtdır, onunla da məsləhət eləyək. O da razı olsa, sabah cavab verək.

– A kişi, dayısı gəlincən, qıznan mən bir söhbət eləyim.

Ağca xanım qızın dayısı üçün adam göndərir, özü qızla söhbət eləyir. Qız razı olur, qızın dayısı gəlir.

Kəblə Balaqədeş:

– Salaməleyküm ay Kəbleyi, bacımnan dava-zad eləməmisən ki, nə var genə, bu vaxt adam göndərmisüz?

– Ay Balaqədeş, yox, yox... Gəl əyləş, bilirsən nə var? Bizim qızımızı istəyirlər.

Nəmçilər, ay nəmçilər,
Qapını kəsib elçilər.
Anam deyir verməron,
Atam deyir dur görək.

– A canım bir danış görək nə olub?

Taxçada çoxdur çörək
Araqçının dar-darı,
Ağzuva qurban dayı,
Sən də bir danış barı.

– Qədeş!.. Bizim qızı Hacı Abtalıbın oğlu üçün istəyirlər. Bu gün Kəbleyinin yanına elçi gəlmişdi. Sən də qızın dayısısan, bu barədə fikrin nədir?

– Hacı Abtalıb özü qonşu, hamımıza məlum, oğlu da ki, bazarda gözümüzün qabağındadır. Biz onları yaxşı tanıyırıq. Ondan ötrü işi uzatmaq lazım deyil. Məsəldir deyərlər: qapuva gəldi sat, qapuva gəldi al. Doğrudan da İnayət mənim xoşuma gəlir, yaxşı oğlandır, kimə verəcəyik ki, ondan artıq olsun? Allah xeyir versin, qoşa qarısınlar.

Səhərisi Cümə məscidində camaat namazı başlananda, Kəblə Fərəculla Kəblə Novruzqulu ilə görüşüb ona deyir:

– Allah xeyir versin.
Novruzqulu soruşur:
– Kəbleyi, nə vaxt buyurursunuz şirni içməyə gələk?
– Sabah yox birisi gün cümə axşamıdır, cümə günü necədir?
– Lap yaxşı, lap yaxşı, saat xoşdur.
– Hə, neynək, deməli, cümə günü axşam.
– Buyura bilərsiz.
– Kəbleyi, özgə adam olmayacaq, elə öz qohum-qardaşımız olacaq.
– Əşi, heç bizdə də elə adam olmayacaq. Elə axşamdan gəlsöz heç pis olmaz.

Günortaya yaxın zöhr namazının vaxtı olduğu üçün qaladan azan səsi eşidilərdi, bu səsin çağırışına şəhərin dükan və bazarlarından, hücrələrdən mömin-müqəddəs, yaşlı kişilər ikibir, üçbir öz həmyaşları ilə söhbət edə-edə, təsbeh çevirə-çevirə məscidə toplaşar, sıra ilə – soflərlə əyləşər, hərə öz canamazını salar, möhür-təsbehini hazırlayar və pişnamazı (axundu) gözləyərdilər.

Bir qədərdən sonra camaat axundun gəldiyini görüb salavatla onu qarşılayardı. Axund mehraba çatdıqda ayaq üstə dayanar, əmmaməsinin bir telini açıb arxasına atar və camaat namazına başladıqda, camaat da ona iqtida edərdi. Hər kəs həmd-surəsini düzgün oxuyub-oxumazsa əhəmiyyəti yox idi, çünki axund onun yerinə düz oxuyacaqdı, camaatın çoxunun savadı olmadığından və məscidə gəlməyə məcbur edildiyindən dua bilməzdi və ibadət vaxtı heç bir şey oxumayıb dodağını tərpədər, boş-boş əyilib-düzələr və onun namazı düzgün hesab edilərdi. Namaz qurtardıqdan sonra vaiz minbərə çıxıb vəzə başlayır, qalanlar qalır, gedənlər isə sakitcə çıxıb evlərinə yollanırlar. O cümlədən Kəblə Novruzqulu çox çətinliklə başmaq saxlayanlardan başmağını alır. Məsciddə kasıb və yoxsul adamlardan başmaq saxlayanlar olardı ki, onlar fövqəladə yaddaşa malik olardılar. Onlar dörd yüz, beş yüz adamın başmağını alıb cərgə ilə düzərdilər. Namaz qurtardıqdan sonra bu beş yüz adamın bir dəfə üzünə baxaraq, hər kəsin başmağını tapıb, ağacla cütləyir və qabağına qoyardılar.

Kəblə Novruzqulu başmaqlarını geyərək durma-gəldim – birbaş Hacı Abtalıbın yanına gedir.

Qoca kişi atıla-atıla tələsik dar küçələrdən ötərək, Şonu Abdullanın evinin tinini dönəndə ayağı sürüşüb başmağının bir tayı tərs kimi, palçığın ən dərin yerinə düşür. Başmağını çıxarmaq üçün əyildikdə



işin tərsliyindən bu biri ayağı da sürüşür. Kəblə Novruzqulu kəmali-qayda ilə palçığa oturur. Başmağını çıxarmaqla məşğulkən küçənin o başından ürkmüş at araba ilə gəlib tini fırlandıqda, arabanın oxu Kəbleyiyə ötəri toxunaraq onu palçığın dərinliyinə salır. Kəblə Novruzqulu palçığın içində üzür. Kəbleyi başmaqlarını çıxarıb əlinə alaraq qanıqara deyinə-deyinə evə qayıdır. Kəblə Novruzqulu evə çatdıqda küçə qapısında bir yekə qıfıl gördükdə ovqatı təlx olur. Qışın günü, üst-başı palçıqlı, hava şaxtalı, qanıqara qapı yanındakı səkidə arvadı gözətləyir. Nə isə, qonşu uşaqlarından birini arvadın dalınca göndərir. Arvad gəlib Kəbleyini bu halda gördükdə deyinməyə başlayır:
– Vay-vay-vay. A kişi, bu nə üst-başdır, bu nə əl-ayaqdır, əşi qoşunkeşdidən, davadan gəlirsən, nədir?
– Ey, rəhmətliyin qızı, tez ol qapını aç, uzun danışma.

Arvad o yan-bu yanını axtarıb, açarı tapır, qapını açaraq həyətə girirlər. Kişi özünü evə salmaq istədikdə arvad:
– A kişi, a kişi, başuva daş, içəri girmə üst-başın murdardır, aləmi murdar elərsən.
– Ay dinsizin qızı dinsiz, soyuqdan öldüm, bəs nə eləyim?
– Dünən öləydin, bu gün iki günün olaydı. Səni görüm saqqalın qana bulaşsın.. Bəri gəl, bəri gəl, mətbəxə gəl.

Ər-arvad savaşa-savaşa mətbəxə girirlər. Arvad kişinin alt paltarını çıxardıb dəyişir. Tez yorğana bürüyüb təndir üstə oturdur. Qazanda su qoyub qızdırdıqdan sonra Kəbleyini su axanda yuyundurub yatırdır. Kəbleyinin ağız-burnu bir qədər istiləşdikdən sonra durub hazırlaşır və axşamüstü Hacı Abtalıbın yanına xəbərə gedir.
– Hacı, gözün aydın, muştuluğumu ver.
– Hə, oğlan gəlmisən, qız?
– Ay rəhmətliyin oğlu, əlbəttə, oğlan.
– Hə, nə oldu, söhbət elə görüm.
– Kişinin sözü yoxdu, həri verdi. Cümə günü axşam da ki, şirni içəcəyik. Mən gedim də.
– Hə! Kəbleyi, bir az tez gəl. Allah imanuvu kamil eləsin, oğlunçun olsun.

Səhər Hacı Abtalıb Üstüörtülü bazara çıxıb, məşhur zərgər Hacı Məmmədin dükanından üzük alır.

Zərgər Hacı Məmməd öz sənətində ad qazanmış bir adam idi. Qara rəngə boyanmış top qarasaqqalı, başında Buxara dərisindən qələmi

papağı, əynində kayanı dördətək tirmə döşlüyü, ağ badamputa qurşağı, xorasanı əbası var idi.

Hacı Abtalıb ondan aldığı bahalı üzüyü cibində gizlətdi. Oradan çıxıb bəzzaz Molla Zərəoğlu Hacı Ağadadaşın dükanına gəlir.

Hacı Abtalıb:

– Hacı, salaməleyküm.

– Əleykəssalam... əleykəssalam, həmişə sən gələsən, a balam. Bunun ayağının altına bir dəmir atın, gün hayannan çıxıb, Hacı bizim dükana təşrif gətirib.

– Hə... hə, əcəb camalın, özün bilirsən ki, xərcə düşənlər sənin dükanına gələr də... oğul evləndirənlər, qız köçürənlər...

– İndi de görüm, sən hansındansan, köçürənnənsən, ya evləndirənnən?

– Ay Hacı, bu xeyir səninçün də olsun, evləndirənəm.

– Çox mübarək, çox mübarək, Hacı, and olsun Allaha, halalzada adamsan. Bu gün mənimçün taza mal gəlib, hələ de görüm düyürdü istəyirsən, yekşəbə istəyirsən, ya ədyal istəyirsən? Bax, bu düyürdü, rəngi qırmızıdır, sarıdır, göydür, bir də çəhrayı... O ki, qaldı yekşəbəyə, o ipəkdir. Bu da ki, ədyal örpəkdir. Örpək bunların ikisindən də yaxşı şeydir. Qiyməti də bahadır. Sonra pirkeşiyə dönərək:

– Adə, onların üçündən də gətir, Hacı baxsın!

Hacı üçünə də baxdıqdan sonra, ədyal örpəyi bəyənib alır. Dükan sahibi ilə xudahafizləşib, Bakıda Böyükbazarda çox məşhur, şamaxılı, özü də şair olan qənnadıçı Ələkbərin dükanına gedir. Ələkbərdən on girvənkə noğul, nabat, püstə, badam alır, oradan keçib İtotaran Daşdəmirin oğlu Naqqal Feyzulladan iki kisə əla xına alıb evə qayıdır.

Kəblə Xeyransa xanım oğlu üçün toy bazarlığını gördükdə, şadlığından gözü yaşarmış halda kişinin qabağına gəlir, fındıqça çalaraq oxuyur:

Gözün aydın olsun, oğul anası
İyirmi yaşına çatıb onun balası.
Oğlum olsun yeddi oğul atası
Əziz oğlum, toyun mübarək olsun.
Ata-ana çəkər oğul cəfasın,
Qocalanda görər onun səfasın,
Əziz oğlum, toyun mübarək olsun.



Mahnıdan sonra: "Çox mübarək... çox mübarək, ölmədik oğlumuzun toyunu gördük", – deyə Kəblə Xeyransa bazarlığı kişinin əlindən alıb sahmanlayır.

Cümə günü axşam Hacı Abtalıb, qohum-qardaşını başına cəm eləyib, xəlfə xır-xır Hacı Haşımı çağırıb, aynanı onun əlinə verir və xonça əllərində yola düşürlər. Bəzilərinin əlində fanar, yolları işıqlandıraraq Hacı Fərəcullagil tərəfə gedirlər.

O dövrdə İçərişəhər abad deyildi. Küçələr palçıq, səkilərin qabağı nohur olurdu. Qalan yerlər isə adi torpaqdan ibarət idi. Küçədə fanarlar çox az olurdu. Ağac başına qoyulmuş ağ neft ilə yanan lampalar olurdu. Onları gecə külək əsib söndürərdi. Bəzən küləkli gecələrdə bu lampaların heç biri yanmazdı.

Hacı Abtalıb gedib fanarlarla yolu yoxladıqdan sonra yeriyərdilər. Hacı Abtalıb:

– Ay Kəblə Novruzqulu, qabağımızda deyəsən çala var. Meylini bir az divar dibinə ver.

– Ə, gözüm görür a... gözüm görür...

Kəblə Gəncum:

– Hacı, deyəsən bu küçə deyil, biz səhv gəlmişik, gərək Əzim Mütəllibin qapısının qabağından gedəydik. Budur ey, Qazmaq nəvəsi Ağabalanın evi.

Xəlfə cavab verir:

– Ə kişi, onların evi Cəlo Süleymanın evi ilə üzbəüzdür.

Qonaqlardan biri:

– Balam... Bu Qıçımçıxdı nəvəsi Məmmədqulunun evi deyil?

O biri:

– Elə özüdür ki var, düz gedirik...

O gün qız evində də ciddi hazırlıq görülərdi. Gündüzdən arvad əhəng isladıb həyəti, evi, eyvanı ağardır, evin həsir-hüsürlərini təzədən çırpıb döşəyir, üstdən təzə bir xəli salır, evin dörd dövrəsinə süzəni döşəyir, ləmədəki təzə boşqabların tozunu silir, taxçaları, camaxatanları və üstlərinin pərdəsini sahmanlayır, mis manqallarda kömür odu qoyurdu. Evin ortasında düzülmüş iki, doxsanlıq lampa işığı evi daha gur işıqlandırırdı.

Ağca xanım abı, pəncə-pəncə zərli donunu, döşü baftalı, qırmızı tafta köynəyini, cənnəti qanovuzdan qırağı zəncirəli tumanını geyib, ördəkboyun kəlağayısını başına çalma vurub, əli-qolu çirməli cici-

bacısını, qonum-qonşusunun arvadlarını başına yığıb, mətbəxdə plov bişirməkdədir.

Kəblə Fərəculla evin qapı tərəfində, altında döşək, dalında püştü, Ərdəbil kürkünə bürünüb tək oyləşmiş və qapının döyülməsini gözləyir. Ağtüklü Həştərxan pişiyi üsulluca qapını açıb kandarda dayanır, otağı bir qədər seyr etdikdən sonra Kəbleyiyə yaxınlaşıb xoruldayır və boynunu onun böyrünə sürtərək xumarlanmağa başlayır. Arabir başını yuxarı qaldırıb üsulluca miyoldayır. Kəbleyi əlilə onun peysərindən quyruğunun axırınadək tumarlamağa başlayır.

Bu halda qapı döyülür, evin sakitliyi pozulur. Kəbleyi yuxudan ayılmış kimi, canharay qalxıb qapını açmağa getdikdə, pişiyi tapdalayır, pişik bərkdən qiyyə çəkir, Kəbleyi səksənir. Qapıya gedib gələn qonaqları evə dəvət edir:

– Buyurun, buyurun, xoş gəlmisiz, xoş gəlmisiz, subaylarıvuzçun olsun.

Qonaqlar içəri keçib Kəbleyiyə salam verərək:

– Mübarək olsun, Kəbleyi. Mübarək olsun, – deyəndən sonra Kəbleyi qonaqlara yer göstərir, qonaqlar yerbəyer olduqdan və ara bir qədər sakitləşdikdən sonra Kəbleyinin işarəsilə çay verilərdi. Xəlfə gətirilən xonçaları evin ortasında açıb qəndləri doğramağa başlardı və boşqablara qənddən, noğuldan, nabatdan qoyub, payladıqdan sonra şirnini və kəllə qəndləri pəncərəyə yığardılar. Gətirilən ağ duvaqla üzüyü üsulluca qızın dayısına verər, hamısı "mübarək olsun" dedikdən sonra, qələmkar süfrə ortalığa salınardı. Plov gəlməmiş xəlfə mətbəxdən bürünc aftafa-ləyən (misdən də olardı) gətirib əlsuyu verər, bəzilərinin əli dəstəmazlı olduğundan salavat çevirərdi, xəlfə dərhal başa düşərdi ki, onun əlləri dəstəmazlıdır, əlsuyuna ehtiyacı yoxdur, əlləri təmizdir.

Xəlfə gözaltı məclisdəki adamları sayar, əlsuyu verildikdən sonra, üsulluca qızın dayısına işarə ilə adamların sayını bildirərdi. Süfrəyə on məcməyi gətirilərdi (iki adama bir məcməyi). Hər məcməyinin içində bir nimçə plov, onun üstündə bir toyuq, toyuğun içində yağla qovrulmuş kişmiş, axta olardı. Plovun üstündə bir mis sərpuş, yanında da bir boşqabın içində üstü qatıqlı dörd yarpaq dolması, bir boşqabda da bir turşu-xiyar və ya bir baş sirkə-sarımsaq qoyulardı. Bir kasada şərbət, içində balaca stəkan qoyulardı. Ona ovşala deyərdilər. Dövlətli evlərində taxtadan ovşala qaşıqları olardı. Mömin məşədilər Məkkədən, Mədinədən həm ziyarət, həm ticarətdən qayıtdıqda, bu ovşala fincanlarını oradan gətirərdilər. Kasıb evlərdə isə bu dəsgah olmazdı. Olsa da fincanlar əvəzinə adi xırda armudu stəkan qoyardılar.



Ovşala qaşıqlarının ördək bədəninə oxşar gövdəsi olardı. Dəstəsi müxtəlif ərəb naxışları ilə bəzənmiş olardı. Balacalığına baxmayaraq, o böyük bir stəkan qədər şərbət tutardı. Məcməyilər paylandıqdan sonra xəlfə bərkdən deyərdi:

– Həzarat, buyurun.

Plov yedikdən sonra hərə öz yanındakı ilə söhbətə başlardı. Mətbəxdən qadınlar qapının arasından, pəncərənin dalından gələn qonaqları xəlvəti seyr edərdilər. Hacı Abtalıb işarə ilə getmək vaxtı olduğunu xəlfəyə başa salardı. Bundan sonra qonaqlar ayağa qalxar və xudahafizləşərək gedərdilər.

Gecədən bir az keçmiş şəhərin küçələrində iki rus soldatı və bir müsəlman yasavulu abxod edərdilər. Küçədə Kəblə Fərəcullagildən gələn qonaqlar abxoda rast gələrdilər.

Birinci soldat: – Ey, postoyte!

İkinci soldat: – Viş ti, otkuda?

Qonaqlar rus dilini başa düşmədiklərindən mat-məəttəl qalardılar. Bu halda yasavul Əlirza soldatları başa salardı ki, bunlar toydan qayıdırlar. Ziyankar adamlar deyillər: – Zərər neçəvo, puskay paydum damoy.

Yasavul Əlirza çox məşhur idi. Ona çənbərəkəndli Vəlioğlu Əlirza deyərdilər.

Soldatlar: – Nu skorey, – deyə üz döndərmək istəyərkən xəlfə cibinə tökdüyü noğul-nabatdan soldatların və Əlirzanın ovcuna basardı. Bundan sonra hərə öz evinə gedərdi.

Bir neçə həftədən sonra hər iki tərəfin (oğlan və qız evinin) vəkilləri məhəllə mollasının yanına gedib kəbin kəsdirərdi. Kəbin, hallı-halına görə idi: 51, 101, 201, 301, 501, 1001, 2001 qızıla qədər olardı. Bəzən qudalar bunun üstündə düzəlişməzdilər. İş pozular, üzüyü və duvağı geri qaytarardılar və sonra bir neçə məhəllə mötəbərlərinin iştirakı ilə iş düzələrdi. Kəbin kəsilib qurtarardı. Bəzən belə bir söhbət də olardı:

– Əvvəl kəbin kəsdirim, sonra paltar getsin.

Qız evi buna razı olmazdı.

– Kəbindən sonra bəlkə sən mənim üçün bez gətirəcəksən. Kəbindən sonra mənim əlim heç yerə çatmaz. Əvvəl de görüm nə gətirəcəksən? Kəbin kəsildi, qız olar kişinin halal malı, sonra mən paltar üçün danışa bilmərəm.

– A kişi, ya bez, ya zər, sizə nə? Nə gətirdi öz evinə aparacaq. Sənin evində ki qoymayacaq.

– Hay-hay, zəhmət çəkmişəm, qız böyüdüb boya-başa çatdırmışam. Uşağımdan bezar ki deyiləm. Qoçun buynuzu qoça ağırlıq eləməz. Mən istəyən paltar, qızıl gəlməsə kəbin kəsilməyəcək. Uşağım əlimdə, ağlım başımda.

– Yaxşı bir de görüm nə istəyirsən? Sən bəlkə elə şey istəyəcəksən ki, bizim gücümüz çatmayacaq?

– Gücünüz çatmayacaq mənim qapıma nə üçün gəlmisiz? Sarban ilə dost olanın darvazası gen gərək. Qız alan kişinin paltara da gücü çatar.

– Yaxşı, indi ki, belə oldu, bir de görək nə istəyirsən?

– Deyim də: bir dəst al məxmər, bir dəst zərri, 2 dəst ipək, 4 dəst də şal, rəngbərəng bir yekşəvə, bir ədyal, bir də naz-naz örpək.

– Yaxşı, sonra?

– Sonra ərz eləyim ağanın qulluğuna: bir dəst alın qızılı, bir üstü minalı çutquqabağı, bir minagülü, silsilə, cərgəgül, boğazaltı, belbağı, iki dəst qızıl qolbaq, on dəst üzük, bir dəst həmail imperial, 10 dənə qızıl qoza.

Bu danışığın üstündə iş ya pozulardı, ya da oğlan evinin boynuna düşərdi, borcla ya xərclə bunları göndərib, kəbin kəsdirib toy edərdilər. Sonra biçarə qızın gününü qara edərdilər. Qohumluq ədavətə çevrilərdi. Qız yazıq qüssədən vərəmləyib ölərdi və ya özünü öldürərdi, ya da ki, qızın atası-anası güclü çıxar, qızı oğurlayıb evə aparardılar. Çox vaxt yazıq qız müsibətə davam gətirməyib hamam və qonşu bəhanəsilə ata evinə qaçar və axırda "kəbinim halal, canım azad" deyərək canını bəladan qurtarardı. Oğlan evinin də boynuna düşərdi, qızın talağını verməzdi, iş ölüb-öldürməyə çıxardı. Onlar divanxanalara düşərdilər.

Azərbaycan qızları və qadınları inqilabdan qabaq belə acınacaqlı, hüquqsuz, məzlum vəziyyətdə yaşayır, vəhşi və cahil ərlər tərəfindən əzilir, insanlıq hüququndan məhrum edilir, dörd divar arasında ölməyə və məhv olmağa məhkum edilirdilər.

Qərəz, Kəblə Fərəcullanın qızının kəbini kəsilir. Qız evi təklif edir:

– Bəşərta bir il adaxlı saxlanacaq.

– O nə üçün?

– Mənim də özümə görə adım, sanım var. Beş kişi içində bir kişiyəm, ürəyim istədiyi şeyləri alıb qızıma qoşacağam. Arzu-kamım çoxdur.

Axır razılaşırlar. Qız evi cehiz hazırlığına başlayır. Qız üçün güləbətinli tirmə araqçın, saatqabı, ipək parçadan güləbətinli daraqqabı, əbrim şaldan canamaz, yüsür təsbeh, müxtəlif rəngli ipək tumanbağılar, zərxaradan tənbəki və pul kisələri, güləbətinli pərdə bağı, başı qotazlı gümüş kərənaylar, üstü yumru süngərəbənzər qara ayaqdaşı alınardı. Bu sayılanların hərəsindən bir neçə ədəd hazırlardılar. Sonra bəy üçün fitə, qətfə boğçası, ipək ağ köynək, qayın və baldız üçün, qayınana və qayınata üçün, xəlfə və yengə üçün də xələt alınardı. Qərəz, bu bir ilin müddətində bayramlar, yay, bahar, payız dönüşü, Novruz bayramında qız üçün bayram xələti, nübar meyvə, yemiş, habelə Qurban bayramında qoyun alıb göndərərdilər. Oğlan evinin borcu idi ki, qız nə qədər atası evindədir, onun paltarını alıb göndərsin. Habelə yay zamanı qız evi bağa köçsəydi, oğlan evi "bağbaşı" aparmalı idi.

Şorqoğal, şəkərbura, şəkərçörəyi, qənd, çay, qız üçün yay paltarı, əla əkülə düyüsü hazırlayıb gəlinlərini görmək üçün bağa gedərdilər. Buna "bağbaşı" deyərdilər. Burada qadınlar iştirak edə bilərdi. Daha sonra oğlan evində şəkərbura, şəkərçörəyi, bəyimçörəyi, şorqoğal hazırlayıb xonçalara yığaraq təntənə ilə qız evinə göndərərdilər. Buna da "vəzöürd" deyərdilər.

Bir ildən sonra oğlan evi qız üçün paltar hazırlayıb qırmızı xonçalara qoyar və qız evinə aparardı. Buna da "paltarkəsdi" deyərdilər. Sonra oğlan və qız evində toy başlanardı. Varlılar 7 gün 7 gecə cibidolu, başıboşlara, din dəllallarına toyuqplov verərdilər.

**Kasıb toyu.** *Kasıbların toyu varlıların toylarına bənzəmirdi.* Kasıbın toyuna imtiyazlılar, mənsəb və sərvət sahibləri çağırılmazdı. Əgər çağırılsaydı da, onlar kasıb evinə getməyi özlərinə layiq bilməzdilər, bunu böyük bir alçaqlıq hesab edərdilər. Kasıbın qapısı da ürəyi kimi geniş olardı. Oraya istəyənlər gələ bilərdilər.

Toy gecəsinə çox adam gələrdi. Bunun üçün böyük bina olmalı idi. O, məhəllədə dövlətli qonşunun evini böyük bir minnət və təvəqqe ilə iki gecəlik alardı. Əgər mümkün olmasaydı, toy məclisi köhnə kazarmalarda, böyük dükanlarda və ya geniş tay anbarlarında qurulardı.

Kasıb toyu çox vaxt qışda olardı. Toyxananı süpürüb təmizləyərdilər. Qonşulardan xalça-palaz yığıb səliqə ilə divara vurar, yerə döşərdilər. Divarın dibində taxtadan dövrə skamya qoyub üstünə xalça-palaz salardılar ki, gözə yaxşı çarpsın. Axşamdan bir saat keçdikdə qonşulardan birovuz alınmış əlvan lampalara ağ neft töküb dirəklərdən asardılar. Toyxananın qapısında məşəl yandırardılar. İçəri girdikdə aşağı başdan, yainki yandan sazandalar üçün döşək salınardı. Qabaq-

larına isə dəf, dumbulu qızdırmaq üçün iki-üç manqal qoyulardı. Dəfçalan, zurnaçı, balabançı, mütrüb də manqalın başında otururdu. Zaqafqaziya və Azərbaycanda mütrüb olmamışdır. Mütrüb və dümbəkçi İrandan gələrdi.

Gənc, gözəl bir oğlanın başının tükünü çiyninədək uzadardılar, onun alnına çətir kəsərdilər. Qaşının axırından bir az aşağıyadək ikinci bir saç uzadardılar, ona da bala birçək deyərdilər. Başında qazamatı papaq, əynində darbüzməli atlaz don, qara mahuddan daram şalvar, ayağında isə dikdaban şibrit olardı. Barmaqları (ancaq dırnaqları) xınalı, belində gümüş belbağı, boynunda həmail və gümüş zəncir olardı.

Zurnaçı yavaş-yavaş "Seydabası" havasını çalardı. Camaat da yığılmağa başlardı. Arabir diringə (oyun havası) çalınanda mütrüb oynamağa başlardı. Toya gələn cahıllar başlarında dallayı papaq, əyinlərində müxtəlif rəngli atlaz tafta don, bellərində əlvan rəngli qurşaq, ləzgi şalından və ya dəvə yunundan boz rəngli dördgah, dağıstanı çuxanın altından quzu kürkü geyərdilər. Çuxanın altından xəncər və dayandoldurum bağlardılar.

Bir parasında başmaq, bir parasında da cığ-cığ çəkmə, bir qismi heydərili kəkilli, bir qismi isə birçəkli, xətbaşılı olardı.

Camaat cəm olanda mütrüb oynayıb məclisi qızışdırmağa başlardı. Məhəllənin nüfuzlu köhnə cahıllarından bir-ikisi çubuq çəkərək qapı yanında oturardı. Onlar şuluqluq salmaqdan çəkinərdilər. Bir qədər çalıb-oxuyandan sonra mütrüb kəmərçin (qadın tumanı) geyib, baş barmağı ilə şəhadət barmağına zəng keçirib başına bir kəlağayı salıb "xalabacı" oynardı. Cavanlar özləri ilə toyxanaya alma, portağal, şamama, qənfet, püstə, badam gətirərdilər. Mütrüb oynayan zaman onu çağırıb mütrüblə bu başdan o başa öz dostlarına almadan, portağaldan, qənfetdən göndərər və belə sifarişlər edərdilər: "Abbasa deyinən ki, axşamı xeyir olsun, bunu Mirzəbala göndərdi". O biri tərəfdən bağırardılar:

– Ay balam, bu başa da gəl də! Bizim də qabağımızda oyna da! Bizim pulumuz qəlp deyil ki?!

Mütrüb oynayaraq o biri başa gedərdi. Bu zaman o, əlini cibinə salıb cibindəki pulu bir qədər cınqıldadır, ikişahılıq, bir abbasılıq çıxarıb mütrübün alnına, yanaqlarına yapışdırardı. Bəzən üzlü gənclər mütrübü dizləri üstə oturdub öz cibinin ipək yaylığı ilə onun tərini silərdi və dübarə cibinə qoyardı. Sonra belə cahıllar arasında: – Mən bununla tərlanın tərini silmişəm, – deyə fəxr edərdilər. Bəzən yerbəyerdən mütrübü çağırardılar. Şuluqluq başlanardı.





*Kasıb evində toy*

Qapı ağzında oturan nüfuzlu cahıl işin şuluq olduğunu və qalmaqal düşəcəyini görüb mütrübün oyununu saxlardı. Xanəndə yastı balabanla oxuyub gecəyə xitam verərdi. Bəzən toyda mütrüb üstündə dava düşərdi, adamlar yaralanar və ölərdi.

Toyun ikinci gecəsi qonaqlar toya gəlməzdən əvvəl xalası, dayısı, əmisi və bibisi oğlanlarına "mən bu gecə toya gedirəm, mənim üçün xonça göndərin", – deyə tapşırardı. Toyxanaya adamlar yığışdıqda, hər kəs üçün bir kiçik məcməyidə püstə, badam, alma, qənfet, noğul və nabat göndərilərdi. Dövrəsində əlvan şamlar yanan bu xonçaları mütrübə verərdilər. Mütrüb də gətirib onu haman adamın qabağına qoyub deyərdi: – Bunu sənin üçün filankəs göndərib.

O gecə toyxanaya o qədər əlvan xonça gətirilərdi ki, toyxana doğrudan da bir çıraqban olardı. Uzaqdan bu mənzərəni seyr edən adam, qədim, ekzotik Şərqin bir parçasını görmüş kimi olardı.

Toy iki cür olardı: pullu, bir də pulsuz. Pullu toyda gənclərdən yaxşı rəqs edə bilənlərin qollarından tutub ortaya çəkərdilər. "Təkçalama", "Uzundərə", "Keçiməməsi" havası ilə gənclər rəqs edəndə yoldaşları onların başına kağız pul (əsginas) şabaş tökərdilər. Şabaşı mütrüblə sazandalara bağışlardılar. Nüfuzlu və hörmətli məhəllə cahıllarından təvəqqe edərdilər ki, onlar gəlib sazandaların yanında otursunlar, onlar qabaqlarına ağ dəsmal salardılar, xəlfə pul yığmağa başlardı. Əvvəlcə bəyin qohum-qardaşları pul verərdi. Qardaşı 50 manat, əmisi oğlu 25 manat, dayısı 40 manat, yaxın dostları 10 manat, 5 manat verərdilər. Bu məbləğ 5, 4, 3, 2 və 1 manata qədər enərdi. Pul yığılıb qurtarandan sonra hamı yığılmış pulun məbləği ilə maraqlanardı. Orta hesabla 500 manat, 700 manat, çox zaman 1000 manat pul yığılardı.

Belə ki, toy eləyən kasıb oğlanın bu pulla vəziyyəti bir qədər düzələrdi.

**Dövlətli toyu.** Dövlətlilərin toyu 7 gün, 7 gecə davam edərdi. Toyun birinci gecəsində məhəllənin cahılları ixtilat edər, ikinci gecəsində plov yeyərdilər. Üçüncü və dördüncü gecələrdə məhəllənin ağsaqqalları və cahıllarını çağırıb onlara da eyni qayda ilə plov verərdilər. Beşinci, altıncı gecələrdə tanış, dost-aşna yığılıb ixtilat edər və yenə plov yeyərdilər. Yeddinci gecə isə mollaları və ağsaqqalları çağırıb plov verərdilər. Bəzən toyun axırında "Şahsevən" oyunu da oynardılar. Toy gecələrini idarə edənə "sərpayı" deyərdilər.





*Varlı evində toy*

Bir ipək və ya geci qurşağı, fındığı cəşərdilər. Buna turna deyərdilər. Əlində turna olan şəxs cərgə ilə oturanların birinin qabağına turnanın bir ucunu atıb ortaya çəkərdi. Bu çağırış işarəsi idi. Çağırılan şəxs ortaya gəlib sallağı əyləşər, əlini turna olan şəxsə doğru açardı.

O şəxs onun əlinə turna ilə vurub, turnanı ona verərdi. Vurulan da bu qayda ilə o birini çağırardı. Bu qayda ilə oyun uzun sürərdi. Bir qədər oynadıqdan sonra camaat evə getmək üçün ayağa qalxardı və oyun qurtarardı. Oyun qurtaran zaman bir gəncin əlində turna qalmış olsaydı və o, oyunu davam etdirə bilməsəydi bərk inciyərdi. Toyxanada bunun üstündə dava düşər və dəstəbazlıq baş verərdi.

Adamlar dağılandan sonra toy sahibinin yaxın adamları qalıb meyxana deyərdilər. Toyun ikinci gecəsində ev sahibinin yaxın adamları, qohumları meyxana demək, toyda iştirak edən şair təbiətli adamları meydana çəkərək məclisin ortasında əyləşdirər, əlinə bir qaval verərdilər. Bəzən qavalı başqa birisi çalardı. Meyxana deyənlər bir nəfər deyil, iki nəfər olmalı idi. Bunlar bir-birilə deyişməli idilər. Onların sözlərinin nəqəratı toplananlar tərəfindən xorla təkrar edilməli idi.

Toylarda "Xan-xan" oyunu oynamaq da adət idi. "Xan"ı belə seçərdilər: xəlfə bir maçanı cərgə ilə əyləşmiş qonaqların qabağında muşqurardı. Kimin qabağında maça alçı dursaydı, onu "xan" seçərdilər. Bu oyun ciddi davam edərdi. "Xan"ın da iki yasavulu olardı. "Xan" toydakılardan istədiyini hüzuruna çağırardı. Onlar da gəlib onun qarşısında ədəblə dayanaraq deyərdilər: "Xan"ın əmri nədir?

Xan:

– İki gecədir sən toya gəlirsən?
– Bəli, xan, qurbanın olum, gəlirəm.
– Bilirsən ki, kimin toyudur?
– Bəli, xan, qurbanın olum, bilirəm.
– Mən əmr edirəm ki, bu saat məclisə layiq xonça gətirəsən!
– Baş üstə xan! Əmrin gözüm üstə.

On dəqiqədən sonra xonça gətirilib "xan"ın qabağında qoyulardı. Bu qayda ilə "xan" adamları çağırıb, birini qoyunla, birini iki dəst xələtlə və sairə ilə cərimələyərdi. Bir çoxunu məclisdə turna ilə döydürərdi.

Çox vaxt "xan" məhəllənin tacirlərindən, hacılarından birini hüzuruna çağırıb cərimə edərdi. Həmin adam cəriməyə çox ciddi yanaşıb itaət edərdi. Hər kəs olursa-olsun əmri o saat yerinə yetirməli idi. Bəzən "xan" mötəbər bir hacının oğlunu yuxudan qaldırıb toyda oynatdırardı. Oğlanın atası bu işdən xeyli acıqlanardı. Ürəyində "xan" seçilmiş adama qarşı ədavət bəsləməyə başlardı. Başqa bir toyda bu hacının adamlarından biri "xan" olur. Həmin "xan" da hacının tapşırığı ilə onun oğlunu oynadan adamı "dar ağacına" çəkdirir. Bunun üstündə böyük ədavət törəyər, çox adam tələf olardı.

Toyun üçüncü gecəsinin səhəri bəyi hamama aparardılar. Bəyin yaxın adamlarından biri hamamı bir günlüyə alardı. Camaat hamamda bəylə yuyunandan sonra qız evindən gələn fitə, qətfə, köynək-tuman səkinin üstündə bəy üçün açılardı. Bəyi hamamdan çıxarıb yerində oturdardılar. Bəy qətfələndikdən sonra xəlfə ipək köynəyi açıb əlində tutaraq dua oxuyardı və köynəyi bəyin başına salardı. Bu növ ilə bəy toy paltarını geyinməyə başlardı. Sonra şərbət paylanar və zurna, balaban çalınardı. Bəyin sağdışı və soldışı onu bayıra çıxarmaq istəyəndə hamam işçiləri, camadar və dəllək bəyin qabağını tutub xələt istərdi. Bəyin yaxın adamlarının biri onlara ya orada pul verərdi və ya da xələt boyun olardı. Bəyi böyük bir şadlıqla, mütrüb oyunu ilə kos-nağara və şən sədalarla hamamdan çıxarardılar. Məhəllənin balaca uşaqları dəstəyə qoşulub "urra" deyərək təntənə ilə bəyi evə gətirərdilər. Həyətə girdikdə bəyin nənəsindən, xalasından, yaxın qonşu arvadlarından biri onun qabağına çıxar, biri başına pul atar, biri şirniyyat səpər, bəziləri də bəyin qabağında "at göbəyim" oynardı:

At göbəyim, at,
Yorulmusan yat.
Gəlsin gömümat,
Versin göy manat.

Bu sözləri oxuyaraq fındıqça çalardılar. Gecə növbə məhəllə cahıllarının və mollalarının idi. Bir də məhəllənin köhnə cahıllarını çağıraraq plov verərdilər.

**Qız evinin toyu.** Qohum-əqrəba qızları və qadınlarından başqa, məhəllənin cəmi gəlinlərini, qızlarını qız evinə toya çağırardılar. Bir gün qabaq həyətdə böyük ocaqlar qurulub böyük qazanlar asılardı. Qazanlarda iki kisə düyü qaynadardılar. 70 toyuq kəsilərdi. Qızın nənəsi, dayısı arvadı, qoca qonşu arvadlar qollarını çırmayıb plov bişirməklə məşğul olardılar. Cavan gəlin və qızlar evdə böyük teştin içində xına isladar, dəf, dumbulun çalğısı ilə gəlini gətirib oturdardılar. Başına və əl-aya-

ğına xına yaxardılar. O gecəni səhərədək dəf, dumbul çalar, oynayıb şadlıq edərdilər. Oynayanların başına şabaş atardılar. Yengə şabaşı alar, kimdən olduğunu öyrənib deyərdi:

– Gəlin anası, gəlin başına 5 manat, şabaş, ay şabaş...

Bu qayda ilə gəlinin qohumları və tanış-bilişləri tərəfindən verilən şabaşları yengə ucadan elan edərdi. Şabaş pulları yengəyə və qavalçıya çatardı. Sonra qadın mahnıları başlardı. Təvəqqe və xahişlə gəlinin anasını gətirər və ona: "Ay balam, qızının toyudur, gəl bir az oxu", – deyə yalvarardılar.

Qızın anası:

– Çoxdandır heç oxumamışam, yadımdan çıxıb, – deyə boyun qaçırmağa çalışardı. Xeyli yalvarışdan sonra əzilib büzülərək, utana-utana oxumağa başlardı:

Bir maralı qova-qova gətirdim.
Gətiribən mənzilgaha yetirdim.
Duman oldu, çiskin oldu, itirdim.
Bu dağda bir maral nə yaman ağlar.
Dağların başında lalələr bitər.
Qırılar qolbağım danəsi itər.
Yarımdan ayrılmaq ölümdən betər,
Qadaların mənə, nə edim sənə.

Qadınlar:

– Ay sağ ol, ay sağ ol, – deyə onu alqışlardılar. Bir başqası onun ağzından alardı:

Həştərxana getcək alırsan ciyər,
Yığılar kanpulad kababın yiyər.
Vaxt başa gələndə muzdur zəng döyər,
Əs gilovar, gəl qadasın aldığım.

Səslər:

– Ay sağ ol, ay sağ ol...

– Əyninə geyibdir humayın ağı.
Belinə bağlayıb gümüş belbağı.
Belbağıya dəyər saatın bağı.
Bu gözümün sağı, gül Məmmədtağı.





Arvad toyu

Yenə də səslər:

– Ay sağ ol, ay sağ ol, – deyə oxuyanı alqışlardı.

Toya çağırılmış qızlar və qadınlar hamısı gərək xonça gətirəydilər. Qadınlar qızlardan və qızlar gəlinlərdən nə ilə seçilərdilər? Qızların paltarları ipəkdən olardı. Amma çox sadə geyinərdilər. Boyunlarında, başlarında və barmaqlarında qızıl zinət və süs olmazdı. Saçlarını iki qaşlarının arasından tağ ayırardılar və hörüb arxalarına atardılar. Başlarında təkcə kəlağayı olardı. Gəlinlərin və kübar arvadların çətiri, bala birçəyi, həmaili, çutquqabağısı, ağ qızılı olardı. Yaşlı qadınlar abı, qəhvəyi, göy və tünd rəngli xaralardan paltar geyib başlarına da dügürd kəlağayıdan çalma çalardılar.

Gəlin və çağırılan qonaqlar xına yaxıb səhərisi hamama gedərdilər.

O günün axşamı ağsaqqallar, mollalar gəlib bozbaş, ya plov yeyər və gəlini aparmağa hazırlaşardılar. Gecənin yarısı bozonmiş gəlin, yengəsi yanında ikən oğlan evinin adamlarını gözlərdi, küçədə uzaqdan zurna-balaban və balaca uşaqların "urra" səsləri eşidilərdi. O saat qızın atası, qardaşı və ya dayısı xəlfəyə işarə edərdi ki, camaatın qabağına çıxmaq lazımdır. Dərhal xəlfə ağ qalaylanmış mis satıllarda şərbət, əlində gülabzən, camaat ilə bir yerdə küçəyə çıxardı. Gələnlərə gülab, şərbət verib hər iki dəstə "Allah mübarək eləsin" sözləri ilə bir-birini təbrik edərdi. Uşaqların "urra" səsləri, adamların qışqırıqları, çalğı səsləri, məşəllərin güclü şöləsi qaranlıq küçədə qəribə bir mənzərə yaradardı. Qayda belə idi ki, kəbin kağızı ya oğlanın dayısında, ya da əmisində olardı. O, gəlib üsulluca qızın dayısına yaxınlaşar və kəbin kağızını ona təqdim edərdi. Kəbin kağızını almamış gəlini bayıra çıxarmazdılar. Kişilər küçədə dayanar, oğlan evindən gələn qadınlar gəlin olan otağa gedərdilər. Xoş-beş, dil-ağız və bir az çalıb-oynayandan sonra oğlan evindən gələn bir uşağın əlinə bir qurşaq verərdilər.

Anam, bacım qız gəlin
Əli, ayağı düz gəlin,
Yeddi oğul istərəm
Bircə dənə qız gəlin –

deyib əlindəki qurşağı gəlinin belinə bağlardı. Qızın anası o uşağın başına bir təzə araqçın qoyardı. Oğlan evinin adamı qız evindən ev müxəlləfatından nə isə bir şey oğurlamalı idi. Fəqət ev sahibi görməməli idi, ev sahibləri isə göz-qulaq olardılar ki, oğlan evindən gələn adamlar bir



şey apara bilməsinlər. Qızın anası balaca uşağın başına araqçın qoyduqdan sonra, üzünü oğlan evindən gələnlərə tutub deyərdi:

– Bax, saçlı-birçəkli, boylu-buxunlu, ədəb-ərkanlı, gözəl-göyçək qız bəsləmişəm. Mənim qızım qapıdan, pəncərədən baxan deyil. Ağır evdən gedir. Mənim balamı yaxşı saxlayın.

– Ay ana! Bu nə sözdür danışırsan? Sənin balan bizim balamızdır. Nə təfavütü var? Elə gəlin saxlayaq ki, aləm mərhəba desin.

Qızın atası içəri girərək:

– Kişiləri məəttəl eləməyin! – deyib qızının yanına gəlir.

Başını sığallayır, onu qucaqlayıb ağlayır:

– Get, qızım, get!.. Xoşbəxt olasan. Bilmirəm gələcəyin necə olacaq, qəza sənin başına nə gətirəcək?

Qızın başında al duvaq, sağdışı və soldışı yanında, əllərində ağ kartof şamlar yana-yana gəlini ağ miçətkənin altında küçəyə çıxarıb faytona mindirərdilər. Miçətkəni isə faytonun üstünə salardılar.

– Hə! Allah xeyir versin. Cahıllarıvuzçun olsun, sür bala!

Fayton oğlan evi tərəfə hərəkət edərdi.

Gəlini gətirməyə gedəndə oğlan da (bəy) gedərdi. Bəylə birgə sağdış-soldış da gedərdi ki, bəyi qorusunlar. Bəyin papağını gəlin gələn gecə götürüb qaçmaq qayda idi və aparılan papaq qız evinə verilərdi, əvəzində bir araqçın və ya tafta köynək boxşiş alınardı. Səhərisi sağdış və soldışın sərvaxt olmayıb bəyin papağının oğurlatdıqları barədə məhəllədə danışılardı.

Qədimdə belə bir qayda vardı: gəlin aparan zaman o məhəllənin cahılları faytonun qabağını kəsərdilər. Onlar oğlan adamından xələt almayınca, gəlini aparmağa qoymazdılar. Bu adətin adına "Qazaqyana" deyərdilər. Əgər qız evində toy olan zaman məhəllə cahıllarının yarısını çağırıb, yarısını çağırmasaydılar, onlar da sözü bir yerə qoyub deyərdilər:

– "Qazaqyana" almamış gəlin buraxdı yoxdur.

Həmin o cahıllar gəlib atların başından bərk yapışardılar.

– Sürmə!

Oğlan adamları faytonçuya müraciət edərək:

– A balam, sürsənə! Nə üçün məəttəlsən?

– Ay əmioğlu, məhəllə cahıllarıdır... özün bilirsən də, daha nə deyim?

Oğlan adamının başçıları dil anlayan olsaydı, burnuna şam iyi dəymiş olsaydı:

– Hə, hə, başa düşdüm, deyə cibindən bir iyirmi beşlik çıxarıb cavanlara bağışlardı; ya da ki, ucadan:

– Cahıllara bir qoyun verildi!

Onun sözü veksel kimi idi. Odur ki, ona inanardılar.

– Allah mübarək eləsin! Allah xeyir versin! – deyib əl çəkərdilər. Məsələ bununla bitərdi.

Bəzən oğlan adamları da tərs olar və boyunlarına düşərdi:

– Biz heç bir şey verməyəcəyik. Sür adə!

– Biz də buraxmayacağıq, aparın görək necə aparırsınız?! Siz vurandan qan, biz vurandan su çıxmayacaqdır. Biz də atın başını buraxmarıq.

– Bu məhəllədə kişi zad yoxdur bəgəm?! Verən də belə-belə olsun, almayan da belə-belə olsun. Alın görək necə alırsız.

– Adə... adə!.. O kimdir? Yetim Məhəmməd döyül? Mənə Bahadır oğlu Xanbaba deyərlər, qoymaram ayağıvuzi ayağıvuzun üstündən götürəsüz, hamıvuzi xingal kimi doğraram!

– Adə, belə ağız-burun bəhəm eləmisən ki, mənim sözümün qabağında söz deyirsən. Mənə Şeytan Bağır deyərlər. Buyurun bu meydan, bu da süz.

– Mənə də Şırdan Ağadadaş deyərlər. Sibirin yolunu mən yaxşı öyrənmişəm.

– Sənə deyirəm, burax atın başını.

Balabançı oğlu Məhəmməd, Çopur Sayad oğlu Xalıq, Qaftan Bağır, Axmaq nəvəsi İsrafil, Pota Baxşəli, Mandırı Məmmədrəhim, Xır-xır Əzim, Tarta nəvəsi Kəblə Hüseyn, Cücə Nəcəfqulu, Hapış Məmmədəli, Palton Abasqulu, Pendiryeməz Zeynalabdin, İt Abtalıb, Qanlı Qədir, Part-part nəvəsi Hacağa, Yağsatan Yapdıməli, Qütkə Cəfər, Şonu oğlu Həsən, Oşar Həsən, Şombulum Ələkbər, Şır-şır Dadaş, Dəşdi oğlu Cabar, Gözü oğlu Ağabala, Başmaqçı oğlu Xalıq, Koxa oğlu Qasım, Qələbəyi Səməd, Dursun nəvəsi Əkbər, Burazay nəvəsi Baloppa, Nurcahan oğlu Rza, Yetim Məmməd, Xingal nəvəsi İsmayıl, Cum-cum Bağır, Mırıq Ağabala, Kafir Məmmədəli, Pişik Kazım, Qapçaq Cəfərqulu, Xostərəngi Məlik, Kosa Abasqulu, Malbaş Yusif, Dildil Qafar, Topal Məhəmməd, Tazı Hənifə, Qaragöz Abasqulu, Hoppataran nəvəsi, Xıdır nəvəsi Cəbrayıl, Şahgəldi nəvəsi Tağı, Çokçəki Süleyman, Çərə Süleyman və başqa bu kimi "qəhrəmanlar" bir-birilə əlbəyaxa olub əvvəl yumruqla, sonra zoğal ağacları ilə vuruşa başlardılar. Nəhayət, bunlardan da heç bir şey çıxmazdı, qəddarələr və xəncərlər



işə düşərdi. Siyirməxəncərlə bir-birini doğramağa başlardılar. Qızın adamları gəlini faytondan düşürüb atası evinə aparardılar. Abxod qalmaqal səsinə gəlib vəziyyəti qorxulu gördükdə polis idarəsinə, polis idarəsi də polismeysterə, o da qubernatora xəbər verərdi. Qubernator da əmr edərdi ki, bir rota soldat gəlsin, afitser görür ki, işlər xarabdır, camaat bir-birini doğrayır. Əmr edərdi, havaya güllə atsınlar ki, vuruşanlar qorxub qaçsın. Havaya bir-iki zalp atardılar. Fəqət afitser görərdi ki, dava yaman qızışıb, bunların heç birinin vecinə gəlmir. Əmr edərdi ki, vuruşanları gülləyə bassınlar. Tüfənglərin ağızları bir-birini didən adamlara çevrilərdi. Bir neçəsinə güllə dəyib yıxıldıqdan sonra həzəratın başı-gözü yaralı, əli-ayağı qanlı, üstü-başı cırıq, kimi börkünü, kimi xəncərini, kimi çuxasını qoyub qaçar, evlərə soxular, damdan dama qaçıb gizlənərdilər. Çox adama güllə dəyib ölərdi və meyitləri səhərə qədər küçədə qalardı. Səhəri geniş xalq kütlələrinin həyatı, məişətilə qəti surətdə maraqlanmayan, onlar arasına bu yolla ədavət və qanlılıq salan, xalqı vəhşiliyə sürükləyən çar hökuməti rüşvətxorları gəlib istintaqa başlayardılar. Hər kəs gəlib öz ölüsünü aparardı. Davadan bir həftə sonraya qədər şəhərdə kimin əl-ayağında yara görsəydilər, dərhal tutardılar ki, sən davada iştirak eləmisən.

İçərişəhərdə Qasım bəy hamamının yanında Qəzvinli oğlu Kəblə Abasqulunun qızı Hacı Qayıb üstünə[1] Əbdüddəyyanın qardaşı üçün gəlin gedərkən belə bir hadisə baş vermiş və onlarca adamların qanı axıdılmışdı. Bu gəlin "Qanlı gəlin" adı ilə məşhurdur.

Gəlinin qarşısına adam çıxmasa idi və ya cahıllar xələt alıb onu xoşluqla buraxsaydılar, "urra" ilə onu oğlan evinə gətirərdilər. Küçə qapısının ağzında bir qoyun qurban kəsərdilər. Onu məhəllə cahılları çırpışdırardı. Camaat həyətə girərdi, ev qapısının ağzında yengə gəlini saxlayardı:

– Hanı gəlinin qayınatası?

Gəlinin qayınatası evdən çıxar, gəlin baş əyərdi.

Yengə:

– Hacı ağa, gəlinin sənə salam verir, ona nə bağışlayırsan?

Qayınata da ona ya 10 imperial, ya bir bağ, ya bir ev, ya da bir uşqun (iki dorlu yelkən gəmisi) bağışlardı. Gəlin ikinci dəfə baş əydikdən sonra onu evə aparardılar. Gəlinin başında çörək parçalardılar. Onun başına

[1] Yer adıdır (*red.*)

qənfet, pul atardılar. Dəf, dumbulu qızışdırıb gəlini pərdə dalına aparar, taxtın üstündə oturdardılar.

Taxt belə düzələrdi: evin yuxarı başında küncdə iki qalın, qırmızı, üzü zərli döşək, kəllədən yumru böyük mütəkkələr, onun üstündən böyük bir püştü olardı. Sağ divardan sol divara bir mıx çalıb, gəlinin ipək çarşabını o ipin üstünə atardılar. Bu, bəy ilə gəlin üçün bir guşə təşkil edərdi. Gəlin pərdənin dalında qalardı.

Kəndlərdə pərdə aparmaq dəb idi. O belə olardı: kənddə gəlini gündüz aparardılar. Bu kənddən o biri kəndə və ya şəhərə gəlin gətirəndə, gəlini çıxarıb faytona oturdardılar. İyirmi, otuz nəfər atlı olardı. Gəlin yola düşdükdən sonra pərdəni atlılardan birinə verərdilər, onlar da atlarını çapmağa başlardılar. Kim qabağa düşsəydi, pərdəni o birindən alardı. Bunlar çapa-çapa bir-birindən pərdəni alardılar. Axırda, əvvəlcə oğlan evinin qapısına hansı atlı çatsa idi, o atlıya xələt bağışlardılar və atın da alnına bir yumurta çırpardılar. Yolda çox atların nəfəsi kəsilib bağrı çatlardı və ya yarı yolda ölərdi.

Bəyin anası əyninə misqalı tirmədən don geyərdi. Başına tirməşal salardı. Qonaqları o biri otağa dəvət edərdilər. Evdə yaxın qohum-əqrəba qalardı. Gedənlər də çıxıb gedərdi. Birisi əlində ağ dəsmal, mis aftafa-ləyən, canamaz (caym namaz) içəri girib evin bir tərəfinə gətirdiklərini qoyar, lampaların bir-ikisini aparardı. Evin işığı birə-iki azalardı. Bəy qapını açıb gəlin olan otağa daxil olardı.

Bəy gəlinə dil-ağız etdikdən sonra, onun üzünü görmək istərdi. Gəlin iki əlilə üzünü bərk tutub açmağa qoymazdı. Gəlini öyrədərdilər ki, bəy gələndə sağ ayağını ondan qabaq onun ayağının üstünə qoysun, onda həmişə gəlinin sözü onun yanında kəsərli olarmış. Gəlin ayağını bəyin ayağının üstə qoyduqda, bəy də başa düşərdi ki, gəlin ondan üzgörümcəyi istəyir. O zaman oğlan əlini cibinə salıb qıza ya bir qızıl saat, ya qızıl zəncir, ya bir bacaqlı, ya da ki, üzük bağışlardı. Bəxşiş gəlinin halal malı hesab edilərdi. Bu dəqiqədə iki cavanın düşüncəsini, bir-birini görməmiş, tanımamış, bir-birinə qərib və yabançı olan iki gənc könülün çırpıntısını ifadə etmək çətindir. Qız: "Görəsən mən oğlanın xoşuna gələcəyəmmi və ya oğlan mənim xoşuma gələcəkmi?"; oğlan: "Görəsən qız mənim xoşuma gələcəkmi və ya mən qızın xoşuna gələcəyəmmi?" – deyə düşünərdilər. Gənclərin bu dəqiqələri onların gələcəkdə quracaqları həyatın ilk saniyələridir. Burada ya keçmiş zamana məxsus adi, yeknəsəq, rövnəqsiz bir həyat təməli qurular və ya inqilabdan qabaq Azərbaycan xalqını fəlakətlərə və uçurumlara sürükləmək istəyən çar üsuli-idarəsinin murdar niyyətlərilə xalq arasında intişar etdirilən cəhalət və avamlıqdan doğan qanlı faciələrin ilk dəqiqələri başlanardı. Çünki evlənən bədbəxtlər əvvəldən öz düşüncə və mühakimələrilə iş görməyə imkan tapmamışlar. Çünki bunları ata-ana almış və ata-ana satmışdır. Bunlar mənfur adətlərin əsiri olmuşlar.

Qız utana-utana üzünü açıb oğlana göstərir. Bundan sonra söhbət və tanışlıq başlayır.

Oğlanın atasını təbrik edirlər ki, oğlu kürəkən olmuşdur və qız atasına xəbər verirlər ki, qızı tapşırıldı.

Bir neçə vaxtdan sonra oğlan evdən soyumağa başlardı. Qız qayınqudanın, qayınatanın, baldızın, qayınananın hökmünə əsir olar, onların dedi-qodusuna düşərdi. Qızın gününü göy əsgiyə düyünlərdilər. Belə ki, təzəgəlin üst-başı cırıq, çətir balabirçəyi üzünə tökülmüş, başı kilkə, qönçə dodaqları gül kimi solmuş, üzü saralmış zavallı bir şəklə düşən qulluqçuya dönərdi. Əri qızı bu halda gördükdə, ondan daha da soyuyardı. Yazıq qızın ata-anasını onun yanına qoymazdılar, özünü də atası evinə buraxmazdılar. Qohumluq düşmənçiliyə və ədavətə çevrilərdi. Ata-anasını görcək qız həyatından şikayətə başlardı. Cavabında isə zavallı qız atadan və anadan bu sözləri eşidərdi:

– Qızım, səbir elə, ər ki var arvadın ikinci Allahıdır, ev sözsüz, gor əzabsız olmaz. Sən ər evindən gorа gedəcəksən, papaq deyilsən ki, başdan-başa qoyulasan.

Bir azdan sonra kişi bu yazığın üstünə ikinci bir arvad alardı. İki günün arasında böyük mübarizə başlanardı. Bəzən bunlar bir-birini zəhərləyib öldürərdilər. Atadan-anadan, qohum-qardaşdan bir kömək olmazdı. Kənardan küpəgirən, işsiz, peşəsiz, avam və cahil qarılar meydanı daha da qızışdırardılar. Gəlin bir gün fürsət tapıb özünün ağ-qızılını yığıb, evi alt-üst qoyub küçələrə düşər, ya özünü boğar, zəhərləyər, yandırar, yaxud da səfalətin murdar ağuşuna və caynaqlarına atılardı. Orada onun gənc ömrü puç olardı. Bu xəbəri eşidən el və əqrəba "bu qız bizim papağımızı yerə soxdu", – deyə həyəcana gələrdi; şəhərdə bu ailəyə düşmən olanlar və gözü götürməyənlər istehza etməyə başlardılar. Dəliqanlılar coşardılar. Qızın qardaşından, əmisi və ya dayısı oğlundan biri gedib zavallı qızı doğrayardı. Öz çürük əsrinin acı meyvəsi olan bu zavallı gəlinin ömrünə son qoyulardı. Bundan sonra hər iki tərəfin peşəsi divanxanalar qapısında vəkil tutmaq və rüşvət vermək olardı. Var-yoxdan çıxardılar, nəticədə isə qatil ya qurtarardı, ya da ki, sürgün edilər, cavan ömrü Sibirdə çürüyərdi.



*Qaynana və gəlin*

Qız, oğlan evinə gedən günün səhərisi, adəti üzrə qızın ata-anasına muştuluğa gedərdilər ki, qızın ağbəxt oldu. Gəlin qayınananın xoşuna gələrdi. Qayınana qudaları qonaq edərdi. Bir müddətdən sonra yeni xoşbəxtlik üz verərdi. *Gəlin hamilə olar və ağrı çəkərdi.* O saat xəbər göndərib İçərişəhərdə, Xıdır dalanının altında, Qara Nəcəfqulunun anası, əldəqayrılma küçə mamaçası Amad xalanı çağırardılar. Amad xala dəm-dəsgahını yığışdırıb, gecə yarısı balağını çəkə-çəkə gələrdi.

– Ay xala, balandan görəsən.

– Bilirəm balam, bilirəm, mənim əlim yüngüldür, inşallah salamatlıqdır.

Amad xala əlini-qolunu çırmalayıb evin bir tərəfinin palaz-parçasını yığar, iki böyük qazanı ağzı üstə bir-birinin yanına qoyub onun üstünə də köhnə şəlpə-şülpədən bir şey salar, iki qazanın arasına da kül tökərdi. Bunun adına çala deyərdilər. Sonra hamilənin qoltuğuna girib onu evdə gəzdirməyə başlardı. Nəhayət, onu çala üstünə çıxarardılar. Hamilə hər bir qıçını qazanın birinin üstünə qoyub sallağı oturardı.

– Anam, güc elə, ya Xıdır Nəbi, Xıdır Niyaz bəndəni bəndədən xilas elə.

Bu dəmdə gəlinin anası içəri girib, piri, peyğəmbəri, Allahı, imamı yığıb bu evə tökər, səs-küy salar, ağız deyəni qulaq eşitməzdi. İş çətinə düşərkən:

– A balam gedin, çolaq Səlimin dükanı ilə üzbəüz evdə yaşayan mamaça Mələknisəni çağırın.

Mələknisə gələrdi. Çatan kimi xəstəyə baxmamış:

– A, nöşün dayanmısuz, gedin bir səhəng gətirin zahıya verin, piləsin.

– Anam pilə, bacım pilə, pilə bunu!

Zahı yazıq sancının qorxusundan nə desəydilər onu edər və səhəngi alıb var qüvvəsi ilə piləməyə başlardı. Bundan da bir şey çıxmazdı. İki mamaça bir-birilə höcət eləməyə başlardılar. Zahının nəfəsi kəsilər, ürəyi gedər, nəhayət, çalanın üstündən yerə yumbalanardı. Beləliklə, yazıq arvadı həlak edərdilər. Bəziləri iki-üç mamaça gətirərdilər, ancaq bundan da bir şey çıxmazdı. Qızın anası bir qədər anlaqlı olsa idi:

– Yüyür bir urus mamaçasını çağır, – deyə yalvarardı. Buna çətinliklə razı olardılar. Rus mamaçası gələn kimi evdəki qadınların hamısını otaqdan qovar, əlini-ayağını təmiz yuyub qayda ilə işə başlardı. Evdəki qadınların əlləri hər bir şeydən üzüləndən sonra, canamazı açıb qabaqlarına qoyardılar, Quran oxuyar, Allaha dua etməyə başlardılar.

Yevdokiya İvanovna bunlara əhəmiyyət verməyib, gəlini əziyyətdən xilas edib, lazımi tapşırıqlar verdikdən sonra çıxıb gedərdi. Yenə meydan əldəqayrılma mamaçalara qalardı.

– A balam, gəlin evi möhr eləyək.

Bir kabab şişinə üç soğan keçirib, şişin ucunu otağın dörd bir divarına sürtərək aparıb xəstənin başı üstündə qoyardılar. Zahıya deyərdilər ki, yatma, yatsan al anası gələr, ciyərini çıxarar.

O biri mamaça sözə başlardı.

– A balam, xəbərüvüz var ki, İtotaran Daşdəmirin qızının başına nə gəlib?! Doğub, salıblar kürsüyə. İsti kürsü, arvadı yuxu aparıb, al anası da gəlib əlini salıb, arvadın ciyərini çıxarıb, arvad da ölüb.

– Ay yazıq! Ay yazıq!

– Bunların hamısı yazıdı, a başuva dönüm! Adamın alnına nə yazılıb, başına o gələcək.

Birinci mamaça yeni bir yalan toxumağa başlardı:

– A...a...a... qarageymiş... heç xəbərüvüz var ki... a, bizim kənddə Kəblə Qayxanım doğub, yatıb kürsüdə... deyir ki, elə məni huş aparaaparmaya, gördüm ki, bir hündür, yekədöşlü arvad dayandı qapının ağzında, astanada. Gördü ki, ara xəlvətdir, üsulluca girdi içəri. Birdən yadıma düşdü ki, ey dili-qafil, bu al anasıdır. Özümü itirmədim, dedim: "Hə, gəlsənə, nə istəyirsən?" Gördüm bu yazıq özünü itirdi və dedi: "Hə, bəs mən süzün qonşuvuz Qaradəniz xalayam da. Məni tanımırsan?" Mənə o kürsüdən bir parça od ver. Dedim ki, gəl kürsüdən götür, apar. O gəlib yorğanı qalxızıb başını kürsüyə soxanda əlüstü mən durdum ayağa. Yaxamdan iynəni çıxartdım, onun yaxasına sancdım və dedim: "Kafir, sən al anasısan, gəlmisən mənim ciyərimi çıxardasan, Allahın izni ilə mən səni əsir elədim". O başladı mənə yalvarmağa: "Allah xatırına məni bağışla, məni öldürmə, mən sənə qulluqçu olaram, iynəni mənim yaxamdan çıxart".

Belə deyirlər ki, al anasının döşündə nə qədər o iynə var, o heç yerə gedə bilməz, özü də iynədən qorxduğu üçün onu döşündən çıxara bilməz. O adam axtarardı ki, iynəni öz döşündən çıxartdırsın. Əgər balaca qız və ya oğlan uşağından görsəydi, iynəni döşündən çıxartdırıb qaçardı.

Bu kimi yalan və uydurmalar danışmaqla mamaçalar qadınların gözlərini bağlar, öz etibarlarını möhkəm saxlamağa çalışardılar.

Məlumdur ki, qadın doğduqdan sonra bütün damarları boşalır və əzələlər zəifləyir, o zaman onu yatmağa qoymazlar. Çünki yatsa, onu



qan aparar və ölər. Ona qəhvə verər, kamfora vurarlar ki, yuxusu qaçsın. Küçə mamaçaları isə bunlardan bixəbər idilər.

Səhərisi yenə rus mamaçası gələr, zahıya baxıb lazımi tapşırıq və dərmanlar verər, şişi-zadı yığıb evdən tullardı. Zahı xəstəlikdən durduqdan sonra Yevdokiya İvanovnanın pulunu və xələtini artıqlaması ilə verər və hörmətlə yola salardılar.

Mamaça gedəndən sonra yenə qapı köhnə daban üstə işlərdi. Avam qadınlar yenə yazıq qadının başına yığılıb kişinin köhnə donunu, çuxasını parçalayıb çirkinə, pasağına baxmayaraq, uşaq üçün əsgi qayırardılar. Əsgiləri uşağın altına sərdikdən sonra onun üstündən bir parça brezent qoyar, brezentə əlif yağı çəkərdilər ki, su buraxmasın. Ona müşəmbə deyərdilər. Sonra uşağı yorğançaya büküb, əlini, ayağını yorğanın altına salıb, uzun bələk bağı ilə möhkəm sarıyardılar. Uşağın yeri həmişə yaş olardı. Əsginin çirki və rütubəti uşağı incidər və zavallı ağlamağa başlardı. Avam ana, uşağın yerinin narahat olduğunu anlamazdı. Qonum-qonşular cürbəcür məsləhətlər görərdilər.

– Ay bala, qonşumuz Gülmirzənin də uşağı yatmırdı, ona xügəri verərdilər, sən də ver, yuxusu gəlsin.

Əttar Molla Məhəmmədin dükanından xaş-xaş qabığı alardılar, onu qaynadar, onun suyundan bir-iki qaşıq uşağın boğazına tökərdilər. Əgər bu da kömək eləməsəydi tiryək isladıb uşağın boğazına tökərdilər. Səhər uşağın bələyini açanda görərdilər ki, onun qıçlarını rütubət yandırıb. Uşağın əndamına quru xına sürtməyə başlardılar. Uşağın zərif bədəni xügəriyə, tiryəkə, xınaya davam gətirməzdi. Uşaq naxoşlardı. Uşağı həkimə göstərməzdilər, avam qadınlar bir yerə yığılıb cürbəcür ağılsız mühakimələr yürütməyə başlardılar:

– Uşaq çiləyə düşüb, onu kəmənddən keçirmək lazımdır.

Uşağı hamam külxanına aparıb külxançıya deyərdilər ki, o, əlindəki hisdən uşağın üzünə yaxsın. O da əlini hisə batırıb uşağın üzgözünü qaralardı.

O biri arvad deyərdi:

– Yox, bunu boyaqxana küpünün üstünə aparmaq lazımdır.

Uşağı boyaqxanaya gətirib, boyaqxanaçıya onun üz-gözünü boyatdırardılar. Nəhayət, uşaq üçün fala baxdırıb tas qurdurar və dua yazdırardılar. Yüzlərcə sağlam uşaqlar avam qadınların əlində bu yollarla həlak olub gedərdi. Əzaba və işgəncəyə tab gətirən uşaq, min bir əzabla böyüyərdi. Onun boynundan dua, qulağından heydəri sırğa asardılar.

Bəzən uşağı tərəzinin bir gözünə qoyub, o birisinə də uşağın ağırlığı qədər ət qoyub çəkərdilər. Sonra əti aparıb qəbiristanda basdırardılar. Bununla uşağın ömrünün uzun olacağını qət edərdilər. Bu adətin adına "əqiqi" deyərdilər. Bəzən qadınların ağzından – "filankəs öz uşağını "əqiqi" eləyib, onun ömrü uzun olar" – sözlərini eşitmək olardı.

8-9 yaşına çatan uşaq, necə deyərlər, yetənə yetər, yetməyənə daş atardı. Söyüş söyər, üst-başını cırardı, evdə qab-qacaq sındırardı, ancaq onun xətrinə dəyməzdilər, ərköyün böyüdərdilər. Uşağı aparıb məhəllə mollasının yanında dərsə qoyar və belə deyərdilər:

– Molla əmi! Bu uşağın əti sənin, sümüyü mənim.

Bu cür tərbiyə ilə böyümüş uşaq mollaxanada da nadinclik edərdi, o biri uşaqlara sataşardı, molla da bunun ayaqlarını falaqqaya salıb çubuqla döyərdi. Sonra uşaq molladan qaçardı. Uşaqlar da bunu hər yerdə görsəydilər, mahnı oxuyub əl çalmağa və onu ələ salmağa başlardılar:

– At nalı, eşşək nalı, molladan qaçan Hüseynalı.

Uşaq ağlaya-ağlaya anasının üstünə gedərdi. Anası da qapıya çıxar, uşaqları söyər və qarğış edərdi. Bunun söyüşünü eşidən bir başqa qonşu arvad gəlib qapı ağzında dayanar və ona cavab verməyə başlardı:

– Uşağun molladan qaçıb, mənim uşağımın təqsiri nədir söyürsən? Canı çıxsun qaçmasun.

– A... a... kül başuva Şərif, hamamçı səndən pul istəyir. Kül başuva xindi! Başuva milçəklər qondi!

– Ağız! Sənin danışmağa dilin də var. Ay filan-filan şüdə!.. Açma mənim gül ağzımı, açaram sandığı, tökərəm pambığı, dəli Şirinin nəvəsi deyilsən?! Dünənəcən qapılarda qulluqçuluq etmirdün? Ay yazıq.

Bu qalmaqala arvadların kişiləri gəlib çıxardı. Əvvəlcə ağız işi, daha sonra yumruq bazarı başlardı. Məhəllə adamları yığılıb hərəsi bir söz deyərdi.

– Ay Kəblə Fərəculla salavat çevir. Allah şeytana lənət eləsin.

– Ay Məşədi Balaqədəş! Arvad-uşaq işinə qarışmayın, uşaqdırlar, indi dava edib, yarım saatdan sonra barışarlar.

– Əşi, eyibdir qonşuluqda. Hövsələnizi basın.

– Maçaxar haramzadalar, həşturabların sir-süfətinə bir baxın. Gəlin barışın! – deyib uşaqları barışdırardılar. Uşaqlar da bir-birinə əl verib hırıldaya-hırıldaya barışardılar. Guya aralarında heç bir şey olmamışdır.

Mollaxananın adamın beynini zəhərləyən küt, yaramaz mühitindən, falaqqa əzabından qaçan uşaqları palçıqçılığa, xarratlığa, malakeşliyə,



dəmirçiliyə, papaqçılığa, zərgərliyə, kababçı və çayçı şəyirdliyinə qoyardılar. Bir neçəsi alış-verişə başlar, bir neçəsi də nökər dayanardı. Başqa çarələri yox idi.

Oğlundan bezar olmuş kişi kənddən və ya şəhərdən öz oğlunu aparıb dövlətli bir tacirə nökərçiliyə verərdi. Bunların şərti belə olardı:

Uşaq bir il gərək havayı qulluq edəydi. Uşağın yatan yeri mətbəx və ya qaranlıq anbarlar olardı. Ev sahibinin süfrəsindən qalan tör-töküntünü yeyərdi. Qışın soyuğunda ayaqyalın su daşıyardı. Yayın istisində tərləyə-tərləyə həyəti süpürər, bulaşıq qabları yuyar, gedib ağasının dükanının qabağını süpürər, sulayardı. Bazardan ağası undan, qənddən, çaydan, düyüdən, kömürdən, odundan alıb, onun belinə yüklər və evə göndərərdi. Onun sənəti evə şey daşımaq olardı. Bir il bu yazıq uşaq qoyulmuş şərtlə işləyəndən sonra onun atası xozeyinin yanına gələrdi. Xozeyin isə: "Sənin uşağın təmizkar deyil. Natəmizlikdən və murdarlıqdan başına yara düşüb. Yaxşı qulluq eləmir", – deyib fırıldaqla uşağın əmək haqqını kəsər, öz vəhşi istismarını bir neçə il də davam etdirməyə səy edərdi. Bədbəxt ata xozeyinin sözünə inanıb uşağın üstünə düşərdi. Yazıq uşağın çarəsi kəsilər, ya hamballıq edər, ya da fəhləliyə qurşanardı. Çox zaman gedib tövlə nökəri olardı. Bir az böyüdükdən sonra təngə gəlib oğurluğa başlardı. Ya öldürərdilər, ya da yazığı Sibirə göndərərdilər. Fəhləliyə gedən azyaşlı uşaqlara xozeyinləri istirahət günü verməzdilər. Onlar ac-yalavac, dilənçi kökündə yaşayar, gecə-gündüz insan qüvvəsindən xaric işləyərdilər. Keçmişdə Bakıda və onun kəndlərində maarif, mədəniyyət ocaqları olmadığından gənclər boş vaxtlarında çayçı dükanına, dəllək dükanlarına yığışardılar. O zaman çayçı dükanları ən pis, ən murdar işlərin yuvası idi.

Hər məhəllədə bir qoçu, hər qoçunun da bir çayçı dükanı olardı. Çayçı dükanının dal tərəfində qumarxana olardı. Məşhur qoçu Ağakərimin dükanı Quba meydanında idi. Ağakərimin özündən başqa iki qardaşı vardı. Birinin adı Əli, o birinin adı Hüseynqulu idi. Əli ilə Hüseynqulunun kababçı dükanları var idi. Onlar Quba meydanının allahı idilər. Quba meydanına tərəf kəndlərdən nə qədər meyvə gəlsəydi, gərək Ağakərimin əli ilə satılaydı. Ona "bığyağı" düşəydi. Ondan izn almamış heç bir kəndli Quba meydanında malını sata bilməzdi. Yaxşı yadımdadır, 1890-cı ildə, bir gün səhər erkən meydana getmişdim. Ağakərimin Əli adlı qardaşı əllərini belinə vurub bir qocanı söyürdü. Qoca isə ağlayırdı.

– Köpək oğlu, sən gərək bu meydandan çıxasan!

Sonra irəli gəlib bu kişinin kabab manqalına təpik vurdu. Manqal çevrilib üzərindəki şişə çəkilmiş ciyər kababının tikələrinin hərəsi bir yana dağıldı. Zavallı qoca ağlaya-ağlaya:

– Əli qardaş! Bu gün axşam mən sənin qulluğuna gələcəkdim.

Əli etina etməyib getdi. Mən o kişiyə yanaşaraq məsələnin nə yerdə olduğunu soruşdum. O isə mənə nağıl etdi:

– Ay qardaşoğlu, mənim səkkiz baş külfətim var. Mən hər gün ciyər kababı bişirib şişi iki qəpiyə satıram və onunla başımı girləyirəm. Mən gərək manata iki qəpik hər axşam aparıb Əliyə verəm. Keçən gün vermədiyim üçün bu gün məni, burada kasıbçılığımı etməyə qoymur.

Mən təəccüb edib soruşdum.

– Ay əmi, məgər burada polis idarəsi yoxdur, qaradovoy yoxdur?

– Ay qardaşoğlu, nə qoyub nə axtarırsan? Hər yerə gedirəm, heç kəs qulaq asmır. Hamısı əlbirdir. Bax, o qaradovoyu görürsən? Bir az bundan əvvəl burada idi. Əli məni söyməyə başlayanda, özünü bilməməzliyə vurub bizdən uzaqlaşdı.

Qoçuların peşəsi gündüz xərc yemək, gecələr isə qumardan şətəl yığmaq idi.

Çayçı dükanlarında əxlaqsızlıq, qumarbazlıq belə başlardı: əvvəlcə qoltuqsazı çalıb şikəstə oxuyardılar. Bir azdan sonra "fincan" və "gül" oyunu başlanardı. "Fincan" oyunu qurtardıqdan sonra həzərat qumara yığışardı. Qumar "qəhrəmanları" gözəşirin bir gənci əhatə edib min cür hiylə ilə qumara qoşardılar. Əvvəlcə onun pulunu udardılar. Sonra qumar mütəxəssislərindən biri mehribanlıqla ona deyərdi:

– Bacıoğlu! Pul istəyirsən sənə verim? Qorxma, indi baxtı gətirənlərin hamısını çər eylərsən, ancaq dilxor olma.

Bir üçlük çıxarıb onun qabağına qoyardılar. O biri qumar "qəhrəmanları" isə bu pulu da ondan udardılar. Hərifler yenə də bir üçlük çıxarıb verərdilər:

– Udduğuna, uduzduğuna şərikəm. Nə olacaq, dünya malı dünyada qalacaq.

Qumar qurtardıqdan sonra oğlan bu adamların hərəsinə on, on iki manat borclu qalardı. Qumar "qəhrəmanları":

– Bacıoğlu! Eybi yoxdur, sonra verərsən, – deyib ayrılardılar. Bir az keçdikdən sonra gəncə:

– Məndən qumar üstə pul almısan, nöşün vermirsən? – deyə hədələyərdilər.



Gedib gəncin qorxduğu adama və böyüyünə deyəcəklərini söylərdilər.

Zavallı cavan oğlan da atasından, yaxud böyüyündən qorxardı və belə düşünərdi: "Bilsə, yəqin ki, məni öldürəcək". Bu kimi yollarla lotular gənci ələ gətirib əxlaqını pozardılar. Həman gecə evdən və ailədən qaçaq düşərdi. Qohum-əqrəba da Ağakərimin qorxusundan bir söz deyə bilməzdi. Bu gəncin belinə tapança bağlayıb, üst-başını təzələyib cibinə pul töküb evini yıxardılar və onu da özləri kimi qoçu edərdilər. O da yavaş-yavaş əvvəlcə birisini söyərdi, sonra döyərdi, o birinin üstünə tapança çəkərdi.

Qorxudan heç kəs danışa bilməzdi. Çünki bilirdilər ki, Ağakərimin adamıdır. Nəhayət, gənc böyük qoçuların da üzünə ağ olmağa başlardı. Bir gün eşidərdin ki, küçələrin birinə bir meyit atmışlar. Meyitə baxdıqda onun həmin cavan oğlan olduğunu görərdilər. Ağakərimin dükanına gələn gənclərdən ikisini mən şəxsən tanıyırdım. Birinin adı Ağakişi, o birinin adı isə Babakişi idi. Kiçik qardaşı Ağakərim ələ gətirə bilməyib öldürtdürdü. Onun mafəsi qapıya qoyulmuşdu ki, aparıb dəfn etsinlər. Camaat da oraya cəm olmuşdu.

Yuxarı küçədən bir güllə səsi eşidildi. Camaat xəbər üçün o səmtə yüyürdü. Ölənin qohumlarından bir nəfəri də gəlib dəfn ediləcək adamın anasına dedi:

– Ay bədbəxt! Böyük oğlunu da vurdular.

Arvad bunu eşidəndə rəngi qaraldı. Üzünü göyə tutub dedi:

– Ay Allah! Əgər varsansa bəs divanını elə də. Ağakərimi görüm arxası yerə gəlsün, balalarım yolu yollansun.

Məlum oldu ki, bunu da Ağakərim vurdurub. Sabahı gün bir qapıdan iki cəhalət qurbanı aparılardı. Bir həftə çəkməzdi ki, bədbəxt oğlanların faciəsinə davam gətirməyən ana da dərd-qüssədən ölərdi. Beləliklə, Ağakərim tək bir ailənin qapısını deyil, yüzlərcə əlsiz-ayaqsızların, yoxsulların, çarəsizlərin evini qıfıllayıb çırağını söndürüb, açarını dama tullardı.

Məhəllənin baş cahılı olduğu üçün Ağakərimi qonşuya ehsana çağırardılar. O da öz adamlarını başına cəm edib deyərdi:

– Gərək filankəs ölsün. Mən sabah gecə ehsandayam. Məhəllənin mötəbər adamları orada olacaqlar. Mən də oradayam, sərpayıyam (ehsanda süfrə döşəyib, çay paylayan adamlara sərpayı deyərdilər). Siz də onu güdərsiniz. Hansı küçədə və harada olduğunu mənə xəbər verərsiniz. Dəxi sizin işiniz yoxdur.

Bu qayda ilə Ağakərimə xəbər verərdilər. O gecə Ağakərim hiylə ilə məclisdən çıxardı, gedib həmin adamın başını batırar, dübarə qayıdar, öz çayını paylayardı və özünün orada olduğunu camaatın nəzərinə çarpdırardı. Ölənin adamları polis idarəsinə məlumat verərdilər ki, bizim qanlımız Ağakərimdir. O da cavab verərdi ki, mən filan gecə filan yerdəydim. Məhəllənin bütün ağsaqqalları, mollaları, mötəbər adamları hamısı orada idi. İnanmırsınız çağırın, onlardan soruşun.

Pristava 1-2 yüz manat "bığyağı" verdikdən sonra Ağakərim evinə gələrdi. Polis idarəsi göstərilən adamlardan çağırıb soruşardı. Onlar da şahidlik edib deyərdilər:

– Bəli, bəli o gecə filankəs orada idi. Biz də gördük, onun heç bir təqsiri yoxdur.

Beləliklə də nahaq qanlar batardı.

Köhnə Bakıda Ağakərimlər tək deyildi. Hər məhəllənin özünün qoçuları vardı. Bunların hər birisinin öz hökmü vardı. Belə cani və qatillərdən biri də qoçu Kəblə Heybət idi. Onun çox gülünc görkəmi vardı. Başında qablama qazanaoxşar Buxara dərisindən qara, təpəsi mahud, dallayı papaq, əynində qara atlaz, döşü ilmə-düyməli büzmə don, belində qəhvəyi enli ipək qurşaq, qıçında qara mahuddan enli lifəli, genbalaqlı şalvar, ayağında püstəyi rəngdə sarı başmaq var idi. Bəzən yanı rezinli jığ-jığ şiblit də geyərdi, xoşuna gəlməyən adamların kürəyinin ortasını "sığallamaq" üçün əlində daim tatarı gəzdirərdi. Belində, çuxanın altından xəncər və tapança bağlamış olardı. Onlar iki qardaş idilər. İkinci qardaşın adı Kəblə Məcid idi.

Keçmiş Salyan kazarmasından aşağı, hasara alınmış bir parça yer vardı. Ətraf kəndlərdən nə qədər mal gəlsəydi, orada satılardı. Bunlar birdən-birə qoçu olmamışdılar. Əvvəlcə həyasızlıqla bütün həmin meydanı əllərinə almışdılar. Ora gələn mal-qaranın hamısı onların əli ilə satılardı. Buna görə də onları bütün kürdlər, şahsevənlər və çodarlar tanıyırdılar. Sonralar qəssab bazarında bu iki qardaş iki qəssab dükanı açdılar və başlarına dəstə yığıb, hərəsi belinə bir tapança bağlayıb qoçu olmuşdular! Belə ki, Kəblə Məcid gəldi, Kəblə Heybət getdi, – deyə şəhərdə danışıq gedərdi. Bunlar yavaş-yavaş bazarın alış-verişini də öz əllərinə aldılar. Mal-qara, araba əldə etdilər. Kontor düzəltdilər. Məhəllədə cavanların biri bunlara ağır cavab versəydi, gecə onu öz evində ciyə ilə boğduqdan sonra nəşini itir-batır edərdilər. Axır vaxtlarda şahsevənlərin mallarını alıb özlərini gecə düşbərəyə, qutaba



qonaq çağırıb öldürərdilər. Sonralar əhali buna dözə bilməyib qonşuluqda olan cavan qəssab Cəfərqulu oğlu Səttarın başına yığıldılar. Ona yalvardılar:

– Sən bunların şərini bizim başımızdan rədd elə. Qorxma, biz sənə kömək edib qurtararıq.

Səttar qoçu qardaşlardan ət alıb pulunu verməməyə başlayır. Günlərin bir günü Kəblə Heybət etinasız gəlib Səttarın dükanının qabağında dayanır, ağzına gələn söyüşü Səttara yağdırmağa başlayır.

– Kəbleyi nöşün söyürsən? Buyur gəl içəri pullarını verim.

Kəbleyi içəri girib pul almaq istədikdə Səttar daxılı çəkir, tapançanı çıxarıb Kəblə Heybətin kürəyinə bir güllə çaxır. Sonra dükandakı ət baltasını gətirərək tərəzinin üstünə atıb qışqırığa başlayır ki; guya Kəblə Heybət onu balta ilə vurmaq istərkən, özünü xilas etmək üçün o güllə atmağa məcbur olmuşdur. O saat Səttarın adamları onu əhatə edib polisə aparır və orada onun təqsirsiz olduğunu sübut edirlər. Sonra Kəblə Məcid yığdığı dövləti qardaşının üstündə vəkilə, divanxanaya qoyub onun qanını almağa qalxır. Zülmlə qazanılmış kapital, zülm ilə də gedir.

Bakıda, Aşağıməhəllə adlanan yerdə Meyrinigar adlı bir əxlaqsız qadın yaşayırdı. Onun bir oğlu var idi: ona Meyrioğlu Yaqub deyərdilər. Belində həmişə tapança və xəncər olardı, o yetənə yetər, yetməyənə daş atardı. Divanı satın alardı.

Bu adam bütün Quba meydanı qoçularının gözünün odunu almışdı. Hamı ondan qorxardı. Yaqubun bir tazı küçüyü vardı. Onun qonşuluğunda qəssab Məhəmmədyusifin də tazısı vardı. Yaqub bir gün gəlib Məhəmmədyusifə deyir:

– İtini saxla, qoyma mənim küçüyümü çeynəsin.

Yaqub evə gedir. Tərs kimi küçük bayıra çıxır. Küçədə tazı bunu çeynəməyə başlayır. Yaqub bunu eşitcək cəld bayıra çıxır. Məhəmmədyusifin tazısına çatıb belindən bir xəncər vurur. İt iki parça olur. Yaqub üzünü Məhəmmədyusifə çevirib onu küçə söyüşləri ilə söyür və onu da iti kimi doğrayacağı ilə hədələyir. Məhəllə adamları birtəhər onu yumşaldıb evə aparırlar.

Bir dəfə Quba meydanında çayçı dükanının qabağından keçərkən, Yaqub görür ki, cəmi qoçular dükandadırlar. İrəli yeriyib əllərini qapının yanlarına qoyur, üzünü içəridəkilərə tutaraq hamısını biabırçı söyüşlərlə söyür, rüsvay edir və təklif edir ki, çıxın bayıra vuruşaq.

Dükanda heç kim yox imiş kimi bir adam cəsarət edib ona cavab verə bilmir. Yaqub daha da cəsarətlənir:

– Bilmirəm sizin nəyinizə qoçu deyirlər? – deyə onları təhqir edir.

Qoçular işi belə görüb sözbir olurlar. Bir nəfəri öyrədirlər ki, Yaqub gəlib keçəndə, onu vursun. Bir gün Yaqub bazardan keçərkən həman adam Yaqubun kürəyinin ortasından bir güllə vurub qaçır.

O, ağır yara ilə iki gün qalıb sonra ölür. Meyrioğlu Yaqub da belə gedir...

Aşağıməhəllədə Hacı Pirverdi məscidi var idi. Bu məscidin böyüyü Hacı Zərbəli oğlu Kəblə Abdulla idi. Hacı Zərbəli yaxşı ağac vurardı. İçərişəhərdəki məscidlər məhəlləsi kimi, Bayırşəhərdə də məscidlər məhəlləsi var idi. Onların məşhurları aşağıdakılar idi:

Qasım bəy məscidi məhəlləsi, Hacı Cavad məscidi məhəlləsi, Hacı Qurban məscidi məhəlləsi, Təzəpir məscidi məhəlləsi, Hacımamalı məscidi məhəlləsi.

Məscidlərdən başqa, təkyələr var idi. Şirvanlılar təkyəsi, qubalılar təkyəsi, iranlılar təkyəsi, qarabağlılar təkyəsi.

Məhərrəm ayının 1-dən 10-na qədər təkyələrdə və məscidlərdə, gecələr saat 11-ə kimi cavan uşaqlar sıra ilə oturub, avaz ilə mərsiyə deyər, sinə vurardılar. Bir qədər keçəndən sonra onlar soyunar, qurşaqdan yuxarı çılpaq olardılar. Ayaqüstə dayanıb cuşi mərsiyə deyərdilər və sinə vurardılar. Sonra təkyənin, ya məscidin yerinin xalça-palazlarını yığardılar. Camaat da dörd tərəfdə oturardı, şəbih göstərərdilər.

Şəbihlər teatr tamaşalarını xatırladırdı. Quruluş belə olardı: bir bürünc teştin içinə su tökər, gətirib ortalığa qoyardılar. Bir parça da ağac gətirib teştin dibinə sancardılar. Məlum olardı ki, bunlar Ərəbistanda Fərat çayının kənarını göstərirlər. Bir nəfər cavan oğlanın əyninə qalın paltar geyindirərdilər. O, Harisin arvadı olardı. 10-12 yaşında iki uşağı geyindirib başlarına ağ əmmamə, əyinlərinə də ərəbi köynək geyindirərdilər. Bunlar da Müslümün uşaqları olardı. Harisin arvadı onları məscidə gətirərdi. Guya ki, onlar tapılmışdır. Bunlarla söhbət başlardı. Nəticədə Müslümün uşaqları olduğunu bilib, onları Harisdən gizlətmək məqsədilə məscidin bir tərəfində yer salıb yatırdardı. Bu zaman birisi başında dəmir dəbilqə, əynində zirehli geyim, ayağında uzunboğaz çəkmə, başdan ayağadək yaraq və silahlı, arxasında bir yəhər meydana gələrdi. Həmin şəxs Harisin özü idi. O, arvadına söhbət edərdi ki, Müslümün uşaqları zindandan qaçıblar, onları axtarmamış yer qoymamışdır. Bu halda Müslümün uşaqları ayılıb yuxularını bir-birinə nağıl edər və ağlamağa başlayardılar. Haris arvadından soruşardı:



– Bu nə səsdir?

Arvad deyərdi:

– Qonşudan gəlir.

Haris qulaq asmayıb axtarar, uşaqları tapar və kəkillərindən yapışıb ortalığa çəkərdi, beybutu sıyırıb onları öldürmək istərdi. Uşaqlar ona yalvararaq oxuyardılar:

Haris, sən Tanrı bizi Qurana bağışla!
Öldürmə bizi, xaliqi-sübhana bağışla!
Gəl eylə mürəxxəs bizi, yol gözlər anamız,
Çün nuri-düeynik bizi çox istər anamız.
Olsa xəbəri başə tökər küllər anamız,
Çöllərdə dolanıb olub divanə, bağışla!

Avam camaat belə mənzərəni görüb, təpəsinə vurar, ağlamağa başlardı.

Bu cür şəbihlər keçmişdə Bakıda çox olardı. Belə ki, bir gecə Əli Əkbər şəbihi, o biri gecə Qasim şəbihi, sonra müxtəlif şəbihlər göstərərdilər. Məhərrəmin onuncu günü əlli, altmış nəfər adam əyinlərinə qara paltar geyər, əllərinə yanar şam alıb məhəllə məscidlərinə şamiqəribana gedərdilər.

Gəlmişik ey şiələr!
Şami-qəribana biz.
Verməyə baş sağlığı,
Zeynəbi-nalana biz.

Başqa məsciddən bunlara cavab olaraq deyərdilər:
– Xoş gəlmişsiniz, ey şami-qəribana gələnlər!
Bu tərəf təkrar cavab verərdi:

Qara geyib gəlmişik,
Şiə salamun əleyk.
Əsgərə su gətmişik,
Şiə salamun əleyk.

Bunlara:

– Göz üstə gəldüz, şühəda nökər! – deyə cavab verərdilər. Bu sözləri ucadan və sürətlə söylərdilər. Lampalar sönərdi, ara qarışıb məzhəb itərdi. Çox adam qəşş edib yıxılar və olduqca gülünc bir mənzərə yaranardı. Gündüzlər isə ağköynəklilər bir tərəfdə toplaşardılar. Onların qabağında tuğ, səllə və bəzəkli Qasim otağı olardı. Məhəllənin balaca qızlarına ərəb paltarları geyindirib, saçlarını dağınıq hala salar, Qasim otağına oturdardılar. Qabaqlarına saman tökərdilər. Qızlar samanı başlarına sovuraraq, başlarına və döşlərinə döyəcləyərdilər. Bir nəfər də 30-35 yaşlarında Qasim otağının damında ayaqüstə "möhtəşəm" deyərdi (minacat çəkərdi). Bir atı bəzər, yəhərinin üstünə qırmızı boyalı bir ağ salardılar. O, İmam Hüseynin Zülcanah adlı atıdır. Yenə başqa bir atın üstünə birisi oturub əyninə qolsuz ağ köynək geyərdi. Köynək qırmızı ləkəli olardı. Həmin şəxsin dişinə tutmağa bir xəncər verərdilər. Bir qılınc da başının diametri üzrə əyib, başına qoyardılar. Bu hal camaata qılıncın başı yarıb içəri keçdiyini bildirərdi. Haman adam başını qılıncın üstündən əmmamə ilə və ya qırmızı parça ilə elə bağlardı ki, qalan yerləri camaata görünməsin və qılıncın baş üzərində əyildiyini camaat duymasın. Həmin adam Əlinin qəzəb oğlu Əbülfəz, yəni Həzrət Abbas idi. Onun altındakı at "Üqab" idi. Bunun mərsiyəsi vardı. Qaraköynəkli uşaqlar yığılıb mərsiyə deyərdilər.

Bunlardan əlavə, nəş bəzərdilər. Bezdən bir adam müqəvvası tikib içinə həşəm doldurardılar. Ayaqlarına uzunboğaz çəkmə geydirərdilər. Onu bir taxtanın üstünə uzadıb dövrəsinə də ayağı bağlı ağ göyərçinlər bağlardılar. Nəşi və göyərçinləri qırmızı rəngə boyayardılar.

Birisini axşamdan bir yerdə oturdub qurşaqdan yuxarı soyundurar, əndamını ova-ova dəhşətli mərsiyələr oxuyardılar ki, onu həyəcanlandırsınlar.

Mərsiyəni oxuyaraq, onun sinəsinə iki tərəfdən çalım-çarpaz iki xəncər sancardılar. İkisini də arxasından, kürəyinin aşağı qulunclarının üstündən sancardılar. Çiynindən, döşündən, arxasından qıfıl, ağac, ox, lampa, güzgü və bu kimi xırda-xuruş da taxardılar. Bunlarla kifayətlənməyib çiynindən bir ağır zəncir də asardılar. Əlinə də bir iti xəncər verərdilər. Həmin adam ağ köynəklilərin qabağına düşüb gedərdi.

Bu, vəhşiliyin, cahilliyin, avamlığın ən dəhşətli mənzərələrindən biri idi. Bu bədbəxtlərə baxırkən, çarizmin və onun əlaltıları olan vicdansız ruhanilərin əməkçi xalqı nə kimi uçurumlu və qorxulu yollara apardığı göz önündə canlanırdı.





Ətinə ağac və zəncir keçirən zavallılarla bir sırada bir dəstə də zəncir vuran olardı. Onların əynində qara köynək olardı. Fəqət köynəyin kürək tərəfləri açıq olardı. Əllərində dəstəli, küt xırda zəncir topası olardı. Onlar zənciri sinəzən deyərək, uzun zaman kürəklərinə çırpardılar. Bir çoxlarının kürəklərinin piyi çıxar, qanı tökülərdi. Bəzən heç qan da çıxmazdı. Qapqara qaralardı. Bu ayin sinəzən ritmi altında müntəzəm ifa edilərdi.

Dini ayinlər əvvəlcə müxtəlif məscidlərin həyətlərində hazırlanar və sonra küçələrdə nümayiş etdirilərdi. Saydığımız məhəllələrin baş yaran, sinə vuranlar dəstəsi biri digərinə rast gələndə hər dəstə özünü qabağa salmağa çalışar, dəstələr toqquşardı. Əvvəl ağac davası başlanardı. Hər "qəhrəman" çuxasını çıxarıb sol əlinə dolar və sağ əlinə yekə çomaq alardı. Onların başında ikiüzlü qalın motal papaq olardı ki, ağac dəydikdə kar eləməsin. Əllərindəki çomaqlar da şümşad, palıd və zoğal ağaclarından olardı. Ağacları bir-birinin təpəsinə vurmağa başlardılar. Necə deyərlər, ara qarışıb məzhəb itərdi... "Nənəm mənə kor dedi, hər yetəni vur dedi...". Damlardan məhəllə arvadları özgə məhəllə camaatının başına iri dümağzələr yağdırardılar. Yaralanan kim idi, yıxılan kim idi. Bəzən dava o qədər qızğın olardı ki, hökumət tərəfindən bir rota soldat gələrdi. Əvvəl gülləni havaya atardılar ki, camaat qorxub qaçsın. Lakin din xadimləri camaatı qızışdırardılar. Onlar çəkilməzdilər. O zaman soldatlar Hacı Pirverdi məscidini gülləyə basardılar. Hökumət "tədbirilə" göndərilmiş qoşun güllə gücünə, qan bahasına aranı sakitləşdirər və hər kəsi öz məscidinə qaytarardı.

1885-ci ilin məhərrəm ayında bir şaxsey-vaxseyçi dəstə vağzaldan başlamış, Bayıl enişinə qədər bütün məsafəni tutmuşdu. Eşitdiyimə görə, qubernatorun qızı eyvana çıxıb izdihamın böyüklüyünü görərək qorxmuşdu. Dəstə başçıları bu iş üçün öz cəzalarını çəkmiş və o ildən sonra hökumət həmin işi şəhər daxilində görməyi qadağan etmiş və bunların şəhərdən kənarda keçirilməsi üçün əmr vermişdi.

Dəstələrin hamısı çölə gedərdi. Orada əvvəl ağköynəklər xəncər vurardı, sonra ümumi şəbih başlanardı.

Dairə ip çəkərdilər. Əhali ipdən çəkilmiş hasarın dövrəsində tamaşaya dayanardı. Dairənin içində iki dəstə olardı. Bir cəbhədə "bəni Üməyyə", yəni Yezidin qoşunu durardı. Qoşun qan rəngində paltar geyər, Ömər Səd üçün qayrılmış taxtın qabağında yerləşərdilər. Sərkərdələr səndəl üstündə əyləşər, qoşun isə səf çəkib dayanardı. Yezidin ələmi (bayrağı) onların başı üzərində yellənərdi. O biri cəbhə "bəni Haşim övladı", yəni İmam Hüseyn və 72 şühədadan ibarət idi. Meydanda çadırlar qurular, onların içində Üsərə əyləşərdi. Meydanın ortasından bu başdan o başa böyük xəndək qazılar, içərisi su ilə doldurulardı. O, Fərat çayının əvəzi idi. Ayin belə başlanardı:

Həzrət Zeynəb balaca Səkinənin əlindən tutub Həzrət Abbasın çadırının qabağına aparar (qadın rollarını kişilər oynardı) və uşağın susuzluqdan əziyyət çəkdiyini ona bildirərdi. Həzrət Abbas da qəzəblənib su qabını çiyninə alar və çaya doğru gedərdi. O biri tərəf çaydan su götürməyə mane olardı və müharibə başlanardı. Həzrət Abbas bunlarla tək müharibə edərdi. Həzrət Qasim xəbər tutardı ki, əmisi Fərata su gətirməyə getmişdir. Gəlib İmam Hüseyndən izin alıb müharibəyə gedərdi. Əzrəqi öldürəndə İmam Hüseyn bu mənzərəyə tamaşa edib görərdi ki, Qasim Əzrəqin kəmərindən yapışıb qaldırır və başının üstündən yerə vurmağa hazırlaşır, bu zaman İmam Hüseyn deyərdi:

Yerə vur, çıxar düşmənin canını,
Al oğlan, Əli Əkbərin qanını.

Daha sonra əshabələr xəbər tutur ki, yoldaşları davadadırlar. Onlar da gecikməyib izin alar və cəbhəyə gedərdilər. Davada Həzrət Abbasın qolunu salardılar. 72 şühəda hamısı qırılardı. Nəhayət, İmam Hüseynə növbə çatardı. İmam bütün bədəni yaralı meydanda yıxılıb qalardı. Olduqca gülünc vəziyyət yaranardı. Cinni Cəfər "qoşunu" meydana girərdi. Qoşun kiçik uşaqlardan təşkil edilər və öyrədilərdi. Uşaqlara kömürdən saqqal, bığ çəkərdilər. Qədim ərəb silahları daşıyar və uşaqlara paltarları geyərdilər. Onlar gəlib İmam Hüseynin qarşısında dayanar və davaya girişməyə izin istərdilər:

– Ya İmam Hüseyn, bizə izin ver bunlarla dava edək.

İmam Hüseyn izin verməzdi. Onlar kor-peşman olub qayıdardılar. Düşmən cəbhə İmam Hüseyni öldürərdi. Xiymələri yandırar, sağ qalanları əsir edərdilər. Bununla qətl tamaşası qurtarardı. Bu oyunbazlıq başqa dini ayinlər kimi camaatı cəhalət girdabına salıb boğmaq, soymaq, qanını sormaq üçün mollalar və axundlar tərəfindən qondarılmış uydurmalardan başqa bir şey deyildi. Bu ayinlər nə qədər qızğın və davamlı olsaydı, ruhanilər üçün bir o qədər qazanclı olardı.

Məhərrəm ayının 11, 12, 13-cü günlərinə imamın üçü deyərdilər. Bu günlər dövlətli evlərində plov bişərdi. Fırıldaqçı axundlara, tacir və baqqallara iri məcməyilərlə imam ehsanı göndərilərdi. Kimi halva-külçə, kimi şərbət göndərərdi.

Bu fırıldaq ruhanilər tərəfindən elə məharətlə qurulardı ki, yuxarıda göstərdiyimiz vəhşi dini ayinlərdə, bilavasitə bir nəfər də olsun dövlətli və molla iştirak etməzdi. Mərsiyə deyən kasıb, sinə vuran kasıb, zəncir vuran kasıb, baş yaran kasıb, vardan-yoxdan çıxan kasıb, ölən, yaralanan, şikəst olan, həbsə alınan da kasıb idi.

Qazan və nimçələrlə plovu, halvanı, külçələri həzmi-rabedən keçirən isə dövlətlilər və mollalar idi. Aydın məsələdir ki, bu da rus çarizminin müstəmləkə siyasətinə uyğun idi.

Bu cəhalət mərasimində də özünü "göstərənlər" olurdu. Meydan məhəllə qoçularının idi. Burada da cinayət, oğurluq, baş kəsmək, qan tökmək, arvada sataşmaq və ölüb-öldürmək geniş yer tuturdu.

Belə məclislərin "qəhrəmanlarından" biri də Hacı Zərbəli oğlu qoçu Kəblə Abdulla idi. Məhəllədə hər kəs bir az zirəklik göstərsəydi və ya cavab qaytarsa idi, qoçu Kəblə Abdulla dərhal onun başını batırardı. Onun cinayətləri olduqca çox idi. 1906-cı illərdə Hacı Yaqub oğlu Əli adlı birisi zirək və gözüaçıq olduğundan siyasətə və inqilabi məsələlərə çox qarışardı. Bundan xəbər tutan Kəblə Abdulla çox çəkmədi ki, onu günün günorta çağı öldürtdürdü. Kəblə Abdulla çox anaları oğulsuz, çox ailəni başsız qoymuşdu. 1875-ci ildə bu qatilin məhəlləsinə Hacı və Ağakərim adlı iki qardaş köçür. Onlar Kəblə Abdullanın işlərinə qarışmaz və ona qulaq asmazdılar. Hacı ilə Ağakərimi Kəblə Abdulla tezliklə öldürtdürdü. Bundan sonra onların anası və kiçik qardaşı Mirağa oradan İçərişəhərə köçdülər. Mirağa böyüyüb qəssab dükanı açdı. Xeyli ömür sürəndən sonra nəhayət, 1895-ci ildə, qardaşlarının ölümündən 20 il sonra Mirağa da Kəblə Abdulla tərəfindən vəhşicəsinə öldürüldü. Azğın cinayətkarın məqsədi bu idi ki, o nəsildən bir nişanə qalmasın.

Təkcə Bakı şəhəri deyil, Bakının ətraf kəndlərində də vəziyyət bundan daha dəhşətli idi. Camaatın halına yananların, onun dərdinə çarə axtaranların nəsli kəsilir, izi itirilirdi. Hökumət yuxarıda adını çəkdiyim canilərin, qatillərin, avantüristlərin, rüşvətxorların yaramaz əməllərinə göz yumurdu. Onların pozucu, təxribatçı vəhşi hərəkətləri ilə yoxsulların, əməkçilərin vəziyyəti gündən-günə daha da ağırlaşır, yurdları tar-mar edilir, özləri qırılıb məhv olur, ölkə xarabazara çevrilirdi.



1885-ci ildə Suraxanı kəndinə ilk dəfə gəlmiş olsaydınız, yəqin ki, kəndə qar yağdığını zənn edərdiniz, çünki kəndin yaxınlığında olan qazlı torpaqların alovunda yandırılan daş karxanasının xırda tozları Suraxanını əhəng yuvasına çevirmişdi. Bu səbəbdən kəndlilər evlərinin içini, bayırını, səkilərini, damlarını, bacalarını, hasarlarını və bütün gözə görünən yerlərini ağardardılar. Belə ki, kənd qar kimi uzaqdan ağarardı. Əhəng karxanasının qazlı torpaqlardan çıxan alovu qəribə bir mənzərə yaradırdı.

Suraxanı camaatının əl-qolunu bağlayan, onun müqəddəratını "həll" edən cani və qatillərin hər birinin belə bir karxanası var idi. Bu karxana qazanc mənbəyi olduğu kimi, həm də ən müdhiş cinayətləri də yuvası idi.

Suraxanı əməkçilərinə qan udduran "qəhrəmanlardan" biri də Əlibəndə oğlu Vəhşi olmuşdur. Əlibəndənin gəncliyindən sənəti kənddə əhəng yandırıb, ulağa yükləmək və gətirib şəhərdə satmaq idi. Onun 4 oğlu var idi. Uşaqlar da böyüyüb ataları kimi əhəng karxanası açmış, at-araba almış, şəhər tikintilərinə podratla əhəng satmağa başlamışdılar.

Suraxanıda bir ad iki adamda ola bilməzdi. Əgər olsaydı dərhal onlardan birini öldürərdilər. İş o yerə yetişmişdi ki, bir-birindən ad götürmək üstündə kənddə böyük ədavət törəyərdi. Suraxanıda əcaib-qəraib adlara rast gəlmək olardı: Əfi, Əlibəndə, Oruc, Namaz, Əhya, Savalan, Meydan, Şüşə, Gilabzan, Vəhşi, Qaraçı, Güllə və i.a.

Əlibəndə oğlunun adını əvvəlcə Qaraçı qoymuşdu. Lakin kənddə Qaraçı adında bir başqa oğlan olduğu üçün atası oğlunun adını dəyişib Vəhşi qoyur. Təsadüfən elə olur ki, Vəhşi ilə Qaraçı kənddə böyüyüb nəhayət dərəcədə dost olurlar. Onlar hələ uşaqlıqdan öz "məharətlərini", o zamankı tərbiyənin səmərəsini göstərməyə başlayırlar. Əhalinin mal-qarasını oğurlayaraq şəhərdə satardılar. Əlibəndənin qorxusundan onlara bir kəs söz deyə bilməzdi. Nəhayət, Qaraçını kənddə adaxlayırlar. Suraxanıda, ümumiyyətlə, Azərbaycanda evlənmək adətlərində belə bir dəb var idi ki, adaxlı oğlan axşamlar qızı görmək üçün adaxlıbazlığa gedər, onunla söhbət edər, görüşər, yaylıq, şirni, qoğal verər və qayıdardı. Əgər oğlan görüşə gəlməsəydi deyərdilər ki, oğlan qızı sevmir. Qaraçı Vəhşi ilə dost olduğu üçün adaxlıbazlığa gedən zaman Vəhşini də özü ilə göz-qulaq olmağa aparardı. Qaraçının adaxlısı çox gözəl idi. Bunu Vəhşi görür və qıza vurulur. Harada isə qıza əl atır... Qaraçı toy edir, məsələni anlayır və qıza deyir ki, sən mənə düzünü de, mən səni atan evinə göndərmərəm və işin üstünü açmaram. Ancaq bilim ki, bu iş kimin işidir.

Qız Vəhşinin adını verir. Qaraçı "qoçaq" da heç bir şey bilmir və heç bir şey olmamış kimi Vəhşi ilə əvvəlkindən daha yaxın dost olur. Qadın doğur. Qaraçı: "Uşaq məndən deyil. Onu tələf etmək lazımdır", – deyə düşünür. Gecə uşağın ağzına balış basıb boğur. Səhər qaraqışqırıq salır ki, gecə uşaq anasının altında qalıb boğulmuşdur. Günlərin birində Qaraçı Vəhşiyə deyir ki, kontordan qaş-daş oğurlamışam və "Usta-şəyirddən" aşağıdakı kühulda basdırmışam. Heç kəsə demə, gedib çıxaraq və bölüşək.

Daim yalançı tamahkarı aldadar. Gecəyarısı Qaraçı ilə Vəhşi kənddən qırağa çıxıb təyin olunmuş yerə gedirlər. Qaraçı Vəhşini qabağa salır və deyir ki, gir içəri, mən də dalınca gəlirəm. Vəhşi içəri girdikdə Qaraçı xəncəri dəstəsinədək Vəhşinin kürəyinə sancır. Vəhşi ölür. Beləliklə, Qaraçı səs-səmirsiz qayıdaraq, yatağına girib yatır. Səhərisi kəndə səs düşür ki, Əlibəndənin oğlu Vəhşi yoxa çıxmışdır. Qaraçını çağırıb soruşurlar. Qaraçı isə deyir:

– Axşamdan bəri yanımda idi, mənə dedi ki, bu gün evə tez gedəcəyəm.

Qaraçı ilə birlikdə Vəhşinin adamları onu üç gün axtarırlar. Ayrı kəndlərə adam göndərirlər. Bir çoban gəlib yerini xəbər verir. Gedib hərifin meyitini tapıb gətirirlər. Qaraçı meyitin üstündə ağlaya-ağlaya: "Qorxma qardaşım, sənin qanını yerdə qoymaram", – deyərək başına-gözünə vurub canfəşanlıq edir. Əlibəndə nə qədər axtarırsa, qanlısını tapa bilmir. Əlibəndənin kimə gümanı gəlirsə, əhəng yandırmaq bəhanəsilə gecə yarıdan keçmiş, onu boğub kürəsində yandırardı. Çoxusunu evdə boğardılar. Suraxanı kəndi xaraba qalır. Camaat arasına qanlılıq düşür. Əlibəndə oğlunun üstündə 117 nəfər adam yandırmış və boğdurmuşdu. Əlibəndənin qalan 3 oğlu özündən daha vəhşi və cəllad idi. Bütün Suraxanı və Sabunçunun buruqlarının qarovulu onların əlində idi. Onlarda pul hədsiz idi. Qorodovoydan pristavadək hər gecə onlarda qonaq idi. Kimi öldürmək istəsəydilər, qabaqca pul verib hər bir tədbiri görərdilər. Odur ki, təqsirsiz, yiyəsiz yoxsul camaatın da qanı batardı.

Əlibəndənin oğlanları "rəhmətlik" Vəhşidən geri qalmazdılar. Onun ortancıl oğlu Şıxının sənəti oğurluq, qumarbazlıq, arvadbazlıq, sərxoşluq idi. O, gündə bir fahişə ilə oturub durardı. Əmr edib çalan-oxuyan gətirdər, aşnasını rəqs etdirərdi. Yüzlükləri cırar, fahişəsinin başına fırlandırıb oda atar, yandırardı. Bir dəfə o, təzə bir tapança alır və onu sınaqdan çıxarmaq üçün Suraxanıya gedərkən, yolda kasıb bir



kəndliyə çatar-çatmaz tapança ilə zavallıya iki güllə vurur. Beləliklə, "bu alicənab" tapançasını yoxlayardı.

Sonralar, haradansa Qaraçının cinayətinin üstü açılmağa başlayır. Qaraçı bunu duyur, gecəyarı külfəti ilə Xorasana qaçır. Oradan məktub vasitəsilə bütün əhvalatı olduğu kimi Əlibəndəyə bildirir. Əlibəndənin iki-üç dəfə ürəyi gedir. Digər tərəfdən, qanlısını əlindən buraxdığı üçün halı daha da pisləşir. Tez bir zamanda qocalıb ölür. Onun meyitini yaxın qohumları camaatdan qorxub qəbiristanda deyil, öz həyətində basdırır və qəbirinin üstündə bir alabaş köpək bağlayır ki, meyiti aparıb yandırmasınlar.

Əlibəndə və onun kimilərinin axırı belə olardı. Bakının o biri kəndlərində də vəziyyət belə idi.

Zabrat kəndində 1901-ci ildə Hümmət və Qasım adlı iki qonşu kəndli yaşayırdı. Onlar şirin su quyularından su çəkib, yaxınlıqda olan neft mədənlərinə daşıyardılar. Yavaş-yavaş dövlətlənib bütün mədənin su təchizatını və alverini öz əllərinə alırlar. Hümmət Məkkəyə ziyarətə gedir. Qasım onun müştərilərini öz əlinə alıb ticarəti genişləndirir və təsərrüfatını böyüdür. Həmin sərmayədən bir motorlu un dəyirmanı tikdirir. Məkkədən qayıdan Hacı Hümmət övzayı (vəziyyəti) belə gördükdə həyasızlığa başlayır. Fəqət Qasım ona baş qoşmaq istəmir və Hümmətə su alverinə şərik olmağı təklif edir. Bir qədər alver edirlər. Bu dəfə Qasım ziyarətə gedir. İndi isə Hacı Hümmət onun bütün təsərrüfatını öz adına keçirir. Hacı Qasım qayıdanda ona heç bir hesab vermir. Fəqət Hacı Qasım yenə baş qoşmayıb, bu işə soyuq baxır. Motorlu dəyirmanın birini də artırır. Bunu görən Hacı Hümmət paxıllığa başlayıb dəyirmanları mənimsəmək istəyir. Aralarında çəkişmə başlanır. Hacı Hümmət Hacı Qasımın oğlunu öldürtdürür. Sonra Hacı Qasım onun böyük oğlunu öldürtdürür. Beləliklə, iki dəstə bir-birini tələf etməyə başlayır. Biri öz təsərrüfatını düzəldirsə, o biri xaraba qoyurdu. Beləliklə, hər iki tərəfdən ölən ölür, Sibirə göndərilən göndərilir. Bu surətlə bu iki nəfər kəndi xaraba qoyur. Bir neçə ildən sonra Hacı Hümmət və Hacı Qasımın sayəsində Zabrat kəndi bayquş yuvasına döndü. Kəndin küçələrində tapançalı adamlardan başqa bir insan görmək olmazdı. Adamlar həmişə qorxardılar ki, bu saat onlar atışacaq və arada yoldan keçən təqsirsiz adamlara güllə dəyəcək.

1900-cü ildə Maştağa kəndində camaat üç hissəyə ayrılmışdı: "Seyidlər məhəlləsi", "Xonxar məhəlləsi", "Keçəllər məhəlləsi".

Maştağanın bağı-bağatı başqa kəndlərə görə bir qədər abad idi. Şəhərə yaxın olduğundan, bağçılar Maştağa bağlarına çox köçərdilər. Maştağanın bəhərxırlarının çoxluğundan onların məhsulu bağa köçənlərə çatmırdı.

Maştağada, Naxır bulağının üstündə Buzovnaya gedən bir yol vardı. Ona Bənd üstü deyərdilər. Axşamçağı bütün bəhərxırlar oraya cəm olardılar. Həmin yer bulvar şəklini almışdı.

Kasıb kəndlilər ulaqlarını əlvan bəzəkli çulla çullayıb Bənd üstə gələrdi və bəhərxırların uşaqlarından pul alıb növbə ilə ulaq üstündə gəzdirərdilər. Maştağanın qəribə mənzərəsi vardı. Kəndin girəcəyində bir meydan vardı, ona Naxır bulağı deyərdilər. Bulağın dövrəsi və kəndin küçələri başdan-başa kustar və alverçi – bəzzaz, baqqal, tərəvəz, əllaf, qəssab, çayçı, kababçı, boyaqxana, ərəbəbənd, dərzi, papaqçı, başmaqçı, dəmirçi dükanları idi. Kənd bir şəhər şəklini almışdı. Buraya işsizlər toplaşar, bir məhəllə adamı o biri məhəllə adamını ələ salar, istehzaya qoyar və bu da narazılığa səbəb olardı. Narazılıq artar və ədavətə çevrilərdi. Məhəllənin başçıları: Seyidlərdən Mir Abtalıb, Xonxardan Əbdüləzim, Keçəllər məhəlləsindən Mürsəl bir-birilə toqquşmağa başlardı. Onların hamısından güclü Xonxar məhəlləsinin başçısı Əbdüləzim idi. Əbdüləzimin iki qaniçən oğlu vardı. Böyüyü Ağadadaş, kiçiyi ağzıəyri Əziz idi. Bu üç nəfər kənd əhalisinin başına olmazın oyunlar açardı. Onların şəhər yolu üstündə bir evi vardı. Evdə hər səhər qoyun kəsilər, səhər kabab, günorta da bozbaş qonaqlığı olardı. Evdə çalmaq, oxumaq, gecələr qumarbazlıq bir qayda halını almışdı. Qonaqlıqlarda kənd pristavının yeri daimi idi. Qonaqlığın xərci kəndlilərin kürəyindən çıxardı. Bağlarda, bostanlarda yetişdirdiyi məhsulu şəhərə satmağa aparan kəndlilər əvvəlcə Əbdüləzimin qapısında dayanıb ona "bığyağı" verməli idilər. Birinin yadından çıxıb verməsəydi, Əbdüləzim adam göndərib həmin şəxsin bağ-bostanını kor qoydurardı. Bir kəndlinin bostanının yaxşı məhsul verdiyini bilsəydi, o bostanın sahibini yanına çağırıb deyərdi:

– Sənin bostanına şərikəm, nə satsan yarısı sənin, yarısı mənim.

Kəndlilər nə divana, nə mollaya, nə ağsaqqal yanına gedə bilməzdi. Getsəydi də sözünə baxmazdılar. Kəndli əgər Əbdüləzimin təkliflərinə razı olmasaydı, şəhər yolunda Əbdüləzimin adamları onun başının üstünü alardılar. Qovununu, qarpızını arabadan yerə töküb doğrardılar. O, çox yan-bu yan etsəydi, özünü də öldürərdilər. Ya bir kəndlinin



köhlən atı olsaydı və Əbdüləzimin xoşuna gəlsəydi, yüklü arabanı saxlatdırardı. Atı açıb, belinə yəhər qoyar, minib çapardı. Yazıq kəndli başına vurub bir az ağladıqdan sonra yüklü arabanı Naxır bulağının üstünə çəkib, məhsulu dəyər-dəyməzinə satar, özü boş arabasını çəkə-çəkə evinə apardı. Bədbəxt kəndlinin bağda məhsulu əldən gedər, çürüyər, onu şəhərə daşımaq lazım gələrdisə də mümkün olmazdı. Onun qohumu, qardaşı yığılar, təvəqqe və vasitə ilə öz atlarını dübarə satın alardılar. Kəndlilər oğul evləndirəndə, qız köçürəndə, gərək Əbdüləzimin əli ilə iş görərdilər. Ona bir tulapayı çatmasaydı, işlər düzəlməzdi. Maştağada belə işlər üstündə Əbdüləzim çox nahaq qanlar tökmüşdü. Maştağa əhalisi bu üç dəstənin əlindən göz aça bilməzdi. Bir məhəllədən o biri məhəlləyə qorxu ilə keçərdi.

1906-cı ildə "Nicat" Maarif Cəmiyyəti Maştağa kəndində qiraətxana açmaq istəyirdi. Əvvəlcə komissiya seçilmişdi. Mən də o komissiyaya daxil idim. Biz gedib Maştağa kəndində Naxır bulağının üstündə Dövlət oğlu Əhmədin mülkündə bir otaq tutduq. O, çox maarifpərvər olduğundan bizə dedi:

– Siz gedin, iki gündən sonra gələrsiniz, lazımi şeylər gətirərsiniz. Mən də siz gələnə qədər kəndin ağsaqqalları ilə danışıb camaatı hazırlaram, birlikdə açılış edərik.

Biz də gedib vaxtında kəndə qayıtdıq. Qəzet və lazımi kitablar, stolun üstünə salmaq üçün yaxşı mahud gətirdik ki, indi qiraətxananı açacağıq. Nə qədər gözlədiksə, gələn olmadı. Əhmədə dedik ki, bəs hanı, sizin adamlardan heç gələn olmadı? Uzun-uzadı danışıqdan sonra başa düşdük ki, gərək Ağa Mir Qəninin bığının altından keçək. Onun iştirakı olmasa, bu qiraətxananı biz aça bilməyəcəyik. Çarəmiz kəsildi, gedib bir kəllə qənd, bir girvənkə çay alıb Ağa Mir Qəninin qulluğuna apardıq. Çox yalvarışdan sonra bizə dedi ki, gələrəm, bu şərtlə ki, Əbdüləzim də gəlsin. Gedib Əbdüləzimə də çox yalvarandan sonra, o, dalınca bir dəstə şişpapaqlılarla bir yerdə qiraətxanaya gəldi. Əbdüləzim öz adamlarından birini göndərdi ki, gedib Ağa Mir Qənini çağırsın. İki saatdan sonra Ağa Mir Qəni gəlib çıxdı. Qiraətxananı açdıq. Şad xürrəm geri qayıtdıq və əmin olduq ki, kənd camaatı gəlib qiraətxanada maariflənəcək. İki gündən sonra Əhməd bizə rast gəldikdə qiraətxananın halını xəbər aldıq. Əhməd cavabında dedi:

– Evinizi Allah yıxsın, məni siz xataya saldınız. Molla olan yerdə iş görmək olar? Kənddə qarışıqlıq düşüb.

– Nə üçün, nədən ötrü?

– Kəndin camaatı məhəllə mollası Ağa Mir Qənidən xəbər almışdır ki, şəriətlə qiraətxanaya gedib, o qəzetləri oxuya bilərik, ya oxuya bilmərik? Cavabında molla demişdir ki, "qəzet oxumağın yerinə qəza namazını qılın, qiraət öyrənin, şəriətlə biz müsəlmanlar Qurandan başqa bir şey oxumamalıyıq. Müsəlman olan şəxs heç bir başqa əcnəbi yazı-pozu ilə tanış olmamalıdır. Əgər olarsa, o kafirdir".

– O biri məhəllələrdə isə mollaların təşviqi ilə deyirlər ki, nə üçün qiraətxana bizim məhəllədə açılmamışdır? Kəndə ikitirəlik düşmüşdür. Eşitdiyimizə görə istəyirmişlər ki, gəlib bir-birinin acığına o binanı yandırsınlar. Bu təhər qaniçənlərlə bəyəm bir iş görmək olar?

Qiraətxana tezliklə bağlandı.

Bakı bağlarında iş o məqama çatmışdı ki, axşam saat səkkizdən sonra qapılar bağlanar və qorxudan bir kimsə bayıra çıxa bilməzdi. Şəhərdən bağa köçən əhalidən biri qonaqlıq eləsəydi və oranın qoçularını çağırmasaydı, onun ya özünə, yaxud da arvad-uşağına sataşardılar.

Şüvəlanda Bənd üstündə hər qoçunun bir qəssab dükanı vardı. Qalalı Hacıbala və Ağagülün dükanları orada idi. Hacıbalanın dükanının qabağından keçib Ağagüldən ət alan adamın işi yaman olardı. Hacıbalanın dəstəsindən birisi onun qabağını kəsib ağzına gələni deyərdi:

– Nöşün mənim dükanımın qabağından keçib əti özgədən alırsan? Məni bəyənmirsən? Bu sözləri cürbəcür alçaq hərəkətlər və təhqiramiz sözlər təqib edərdi.

Bir dəfə mən şəhərdən bağa gedirdim. Suraxanıda maşından (kukuşkadan) düşüb faytona minəndə bir kəndli mənə yoldaş oldu. Faytonda gedə-gedə o, mənə aşağıdakı əhvalatı nağıl etdi:

– Mənim dalımca çoxdandır Hacıbala adam salıb ki, məni vursunlar.

Mən soruşdum:

– Nə üçün?

O yenə sözə başladı:

– O nahaq yerə məni söyüb biabır edirdi. Mən ona dedim ki, ayıbdır, adam söyüş söyməz, vəssalam. Mənim təqsirim bu olmuşdur. Mən inanmadım ki, belə xırda şey üstündə ölüb-öldürmək olsun. Yol uzunu mən ona nəsihət verdim. Mərdəkana çatdıqda bir nəfər oğlan bizə əl elədi. Faytonçu faytonu saxladı. O, yaxınlaşıb yol yoldaşıma dedi ki, qabağa getmə. Bənd üstündə Hacıbalanın adamı dayanıb, səni vuracaq.



Yoldaşım cavabında ona dedi:

– Mən yolumdan qayıtmayacağam, onlar mənə heç nə edə bilməzlər.

Sonra üzünü mənə tutub dedi:

– Xalaoğlu sən düş, mənim oduma sən də yanarsan, mən tək gedəcəyəm. Mən nə qədər yalvardımsa, sözümə qulaq asmadı. Məni düşürtdü, özü tək getdi. Mən də qorxudan bir özgə faytona minib getdim. O fayton mənim qabağımca gedirdi. Mənim ürəyim döyünürdü ki, indi güllə atılacaq və bədbəxti vuracaqlar. Bənd üstə Hacıbala bağının yanında bir meydança vardı. Oradan daş çıxarılardı. Burada bir hamam vardı. Fayton ora çatmamış bir güllə açıldı. Bədbəxti vurdular. Mənim faytonum ora çatcaq saxlatdırdım, baxıb gördüm ki, bədbəxt yıxılıb can verir. Meydanda bir nəfər adam qalmamışdı. Hamı qaçmışdı. Görənləri şahid çəkəcəkdilər. Əgər bir nəfər adam vuranı hökumətə desəydi, sabahısı ikinci gülləni də ona vurardılar, bir gün bir gecə o bədbəxtin meyiti həmin meydançada qaldı.

O vaxt Bakıda neft firmaları vardı. Hər firmanın özünə görə mədənləri vardı. "Nobel", "Rotşild", "Zubalov" və başqaları. Azərbaycan əməkçilərinin qanını soran, Azərbaycan xalqının dövlətini Avropa banklarına axıdan neft dəllallarının mədənlərinin qaravulunu Sabunçu qoçuları çəkərdilər. O qoçular da buruqlarda dağıstanlıdan, iranlıdan qarovulçular qoyardılar. Firmaların qarovulu nə üçün qoçulara tapşırılardı? Çünki hamı qoçulardan qorxurdu.

Lotulardan birisi oğurluq etmək istədikdə o saat mədənin qarovulçusunu gözünün qabağına gətirər və qorxusundan o mədənə oğurluğa getməzdi. Lakin mədənçilər xırda oğrudan qurtarıb, böyük oğruya düçar olardılar. Hər mədənin yanında həmin qoçunun bir böyük neft dükanı vardı. Gündüz dükanın qabağındakı neft çənləri bomboş olardı. Gecə isə o çənlər ağızbaağız neftlə dolardı. Bəs necə olardı ki, o çənlər dolardı? O çənin yanlarından neft boruları çəkilmişdi. Gecə o borulardan birini deşib nefti öz çənlərinə axıdardılar. Çən dolduqdan sonra borunun deyişiyini tutar, üstünü torpaqlardılar. Qəflətən kontor işçilərindən və ya fəhlələrdən birisi oğurluğun üstünə çıxsa idi, o adamı gecə öldürüb neft çalalarına tullardılar. Onlara nə polis, nə hökumət bir söz deyə bilməzdi. Heç kəs də qorxusundan danışa bilməzdi, çünki qarovulçular polislə əlbir idilər. Əgər işi ağartsaydılar və qarovul sahibi (qoçu) tutulsaydı, bütün mədən yandırılardı, çünki mədənlərdə xozeyin

bir firma sahibi deyildi. Mədən və neft işlərində dərəbəylik hökm sürərdi. Bakı qoçularının arxasında Bakı kapitalistləri durmuşdular. Qoçulardan birini hökumət həbsə alsaydı, Bakı dövlətlilərindən birisi onun üçün çalışıb qazamatdan qurtarardı.

Əslində bu vəhşilərin həyatı qazamatda da pis keçmirdi. Çalmaq, oxumaq, oynamaq, yemək, içmək onların peşəsi idi. Tanış-bilişlərdən kimin gücü nəyə çatsaydı, aparıb o qoçunun könlünü alardı. Qazamata o qədər kəlləqənd, sini-sini plov, papiros göndərilərdi ki, yeyib-içməklə və işlətməklə qurtarmazdı. Qazamat qulluqçuları onlardan qorxub adamlarını içəri sərbəst buraxardılar.

Dustaqxanaya oxuyan və çalan da aparardılar. Qazamat qulluqçularının da qarnı fisincan, turşu-qovurma və toyuqplov ilə yağlanardı. Qazamata düşmək belə adamlar üçün şan-şövkət olmuşdu. Dost-aşnalardan biri onun görüşünə gəlməsəydi, ona bir düşbərədən ya bir qutabdan bişirtdirib gətirməsəydi, həmin qoçu qazamatdan çıxdıqdan sonra o adamla görüşdükdə:

– Sənin üçün eyib deyil, mənim görüşümə niyə gəlmədin? – sözlərilə hədələyər və onu tezliklə cəzasına çatdırardı.

Belə adamlar qazamat qapısından bayıra çıxanda qoyun qurbanı kəsər, onu faytona mindirib təntənə və dəbdəbə ilə, zurna və balabanla evə gətirərdilər. İkinci qurbanı da evdə kəsərdilər.

Adam öldürüb qazamata düşmək lap moda halını almışdı. Hər lotu belinə bir tapança bağlar, başına bir şişpapaq qoyar, birisi ilə sözü çəp gələndə dərhal tapançalar beldən çəkilib işləyərdi. Kimin gülləsi qabaq dəydi, dəydi. Ölənin qayğısına qalmazdılar, vuranı tərif edərdilər:

– Pah atonnan adə, nə igid adamdır, tapançanı belindən çıxarması ilə hərifi yerə sərməyi bir oldu. Zalım oğlunun əli elə bil maşındır.

Bir başqası bu "igid" haqqında belə deyərdi:

– Adə! O filankəsin bacısı oğludur da... dayısı da... dayısı da igid adamdı... Məsəl var, deyərlər, yaxşı igid dayısına oxşar, yaxşı cavanəzən xalasına.

Keçmişdə Bakıda bir qalabəyi Qasım bəy vardı. Bu adam özü mülkədardı. Həm də böyük tacir və sözüötən adam idi. Bir dəfə orucluq zamanı bu cənab öz divanxanasının qabağında stul qoyub oturubmuş və camaatı tamaşa edirmiş. O vaxtdan yeni yetişmiş cavanlarından iki nəfərinin ayaqlarında dikdaban başmaq, qıçlarında xaçmazı şalvar, əyinlərində döşü düyməli hiro qədəyindən don, üstdən baftalı çuxa,



başlarında yanakı qazamatı papaq, barmaqlarında fındıqça xına (manikür kimi), əllərində üç arşın uzunluğunda bir yüsür təsbeh, iki cavan bir təsbehi çevirə-çevirə ctinasız bazarbaşı yuxarı gedirlərmiş. Səkilər dar olduğu üçün onlar camaatın gediş-gəlişinə bir qədər mane olurmuşlar. Bu hadisə Qasım bəyin nəzərini cəlb edir. Yasavulunu göndərib, cavanların hər ikisini öz hüzuruna çağırtdırır. Onları başdan-ayağa gözucu süzdükdən sonra birisini tanıyıb soruşur:

– Kimin oğlusan, adə?!

Bu gənc atasının adını deməyib, dayısının adını deyir:

– Gülünün bacısı oğluyam.

Gülü o zamanın məşhur qoçularından idi. Bu iş Qasım bəyin acığına gəlir. O, ayağa qalxaraq:

– Adə, köpək oğlu, mən səndən atanın adını soruşuram, sən mənə dayının adını deyirsən? Mən sənin dayından qorxacağam, adə! Sən Dildilinin oğlu deyilsən? Atanın adını niyə demirsən? İndi ki sən Gülünün bacısı oğlusan, mən də sənə tənbeh edəcəyəm, – deyib ona yağlı bir şillə ilişdirir. Yasavuluna əmr edir ki, aparıb onu damlasın.

Qalabəyi şilləni elə bərk vurur ki, yazıq uşağın qulağı şillənin zərbindən bir həftə batır.

İçərişəhərdə Prator adlı bir pristav vardı. Onun aylıq maaşı 80 manat ancaq olardı. O, indiki Çkalov küçəsinin[1] yuxarısında, keçmiş "İttihad" məktəbilə yanaşı, dörd mərtəbəli bir ev tikdirmişdi. Məlumdur ki, bu ev ayda 80 manatın işi deyildi. Bu, bir-birini qıran bədbəxt camaatın qanının batırılması pulları idi. O zaman kim çox pul versəydi, cinayəti nə qədər dəhşətli olursa olsun, onun işi yeriyərdi. Pulu olmayanın haqq sözü nahaq olar və qanı batardı. Zavallının çarəsi kəsilər, axırda "mollalar, axund və üləmalar Allah bəndəsidirlər, bəlkə onlardan bir çarə oldu" – deyə üləma yanına gedərdi ki, dərdini desin. Ancaq çox təəssüf ki, avam camaat bu vicdansızlardan ən alçaq hərəkətlər, ən vəhşi münasibət, ən nalayiq sözlər eşidərdilər.

O zaman bu müftəxorların işi, peşəsi olmazdı. Məhəllənin gözə görünən adamları obalı-qəbalı, ağzıdualı qocaları gündə bir yerə yığılıb qiraət oxuyub, "məğzubi" deyib, həmd-surə düzəldib şəkki səhv öyrənərdilər. Dərdini demək üçün buraya gələn əlsiz-ayaqsız və yoxsulları ələ salıb onlara gülərdilər və onlara belə deyərdilər:

[1] Niyazi küçəsi (*red.*)

– A kişi, səbir eylə, üsuli-din bilirsən? Bilmirsən gərək öyrənəsən. Gərək qiraət öyrənəsən. Səbir eylə! Allah səbir eləyənləri dost tutar. Allahın bir adı səbir idi, Kərbəlada seyyidi-şübhədanın başına nələr gətirmədilər?

Bundan sonra o boşboğazlığa başlar, Kərbəla yanğısından danışmağa, yalan quraşdırmağa qədəm qoyardı. Məclis yasxanaya çevrilərdi. Bu kişi də ürəyi odlu olduğundan başına döyər və ağlar, məyus və məhzun, əli qoltuğunda evinə qayıdardı.

Hər yerdən əli üzülən bu avam, kimsəsiz adamlar, varlılardan kömək umaraq, onların qapısına gedərdilər. Cahıllar çayçı dükanlarına yığılan kimi, varlıların da yığıncağı otaqlarda olardı. Buraya yığılan yekəbaş, küt və xudpəsənd, boynuyoğunlar vaxtlarını yemək-içməklə, hiylə və fırıldaq işlətməklə, yalan danışmaqla, ikiüzlülük etməklə, nağıl danışmaqla keçirərdilər. İran lotularından birisi başında mövləvi əmmamə, əbanın qollarını geyib, qabağına da bir "Hüseyn-Kürd" kitabı qoyub nağıl danışar, camaat da diqqətlə qulaq asardı. Nağıldan sonra boş və mənasız mübahisə və höcətlər başlardı. Nağılçıya sual verərdilər:

– Mirzə, əsli var ki...a. Hüseyn kürd kəmərbəstə idi?

– Bəli, bəli! Həzrət Əli onun belinə qılınc bağlamışdı. Onun arxası yerə dəyməzdi.

– Necə yəni qılınc bağlamışdır? Bunu mən başa düşmürəm, kəmərbəstə nə olan şeydir?

– Ay kişi, onlara əl aparma.

– Necə əl aparma?! Bilmək günahdır? Bilmək istəyirəm də. – Sənin tarixdən xəbərin yoxdur.

– Əgər tarixi bilirsən cavab ver. Dəvənin ayağının altında yumurta qalsa, sınar, ya sınmaz?

– Mən qanmıram tarix nədir? Dəvənin ayağının altı nədir? Heç başa düşə bilmirəm ki, siz nə danışırsınız.

– A balam, Rüstəm-Zala nə sözün var! Oğlunu öldürdü, vətən yolunda kəmərbəstə olmasaydı, öldürməzdi ki.

Meydan qızışardı. Hərənin boş başından boş və axmaq bir mühakimə çıxardı. Ağız deyəni qulaq eşitməzdi. Axırda biri ayağa qalxıb bağırardı:

– Atam! Höcət nə üçün? Bu saat bir adam göndərək axunddan bu məsələni öyrənib gəlsin.



Adam göndərər, yalvarardılar ki, axund sabah bizə bu barədə söhbət eləsin. Axund gələrdi. Yalan-palanla avam başları doldurub gedərdi.

Kömək üçün varlıların yanına gələnlər ağızlarından vurulub buradan da qaytarılardı. Onlar kor-peşman evə qayıdardılar, əlləri hər yerdən üzülərdi, bıçaq sümüyə dayanardı, ev-eşikləri, sənətləri, vətənləri ilə vidalaşar, tüfənglərini götürüb, qanlılarını, özlərinə və özləri kimi yoxsul və çarəsizlərə zülm və əzab verənləri öldürüb qaçaq düşərdilər. Bu qayda ilə məcburən, zorla qaçaq olub çöllərə düşənlər keçmişdə çox idi. Bahadır oğlu Xanbala belə qaçaqlardan idi.

Xanbala 30 yaşında, arıq, qısaboylu, xırda və itigözlü, qaraqaş-qaragöz bir kəndli idi. Əynində qırmızı flaneldən, üstü qara xallı şalvara salınmış köynəyi, bunun da üstündən yun qurşağı və onun da üstündən meşin yarımpaltosu vardı. Xanbala cavanlıqda gəmidə muzdurluq edərkən, onunla həmin gəmidə bir cavan da çalışarmış. Günlərin birində gəmidə dava düşür. Gəmi işçiləri bu davada həmin oğlanı taqsırlandırır və hədələyirlər. Xanbala ona qahmar çıxır. Bu işdən sonra Xanbalanın özünü də hədələyirlər. Ancaq onlar birtəhər başlarını xilas edirlər. Gəmi gəlib Abşeron qabağına çatan zaman, Xanbala bu oğlanla suya düşür və üzərək gəlib sahilə çıxır. Mayak qarovulçusu onları tutub saxlayır. Gəmi də gəlib Abşerona çatır. Gəmidən su gətirməyə çıxanlar onları görüb mayak qarovulçusuna deyirlər ki, bunlar gərək divan əlinə verilsinlər. Çünki bizim gəmidən oğurluq edib qaçmışlar. Xanbala qazamata düşür. Lakin o, həbsxananın zülm və əziyyətinə davam gətirməyib qazamatdan qaçır. Bir az keçdikdən sonra onu tuturlar. O ikinci dəfə də qaçır. Bu dəfə qaçanda özü ilə bərabər bir dustağı da qaçırır. Bunlar uzun zaman Bakı kəndlərinin ətrafında dolanırlar. Onları təkrar tutub Quba meydanında çubuqla döyürlər. Hərəsinə 150 çubuq vururlar. Dustaq ağac altında ölür, Xanbalanı isə yarımcan qazamat xəstəxanasına aparırlar. O, bir qədər müalicədən sonra sağalır. Xanbala üçüncü dəfə qaçanda iki nəfər Nikolay soldatını da özü ilə aparmışdı. Şəhərə səs düşmüşdü ki, Xanbala qaçıb, özü ilə də iki soldat aparıb. Bunların dalınca çox gəzdilər. Nəhayət, bir gün xəbər çıxdı ki, Bahadır oğlu Xanbalanı yoldaşları ilə bərabər tutmuşlar. Qaçan zaman ətinin dərisi su yolunun divarlarında qalmışdı. Doğrudan da onları tutub qazamata salırlar. Lakin dördüncü dəfə o, yenə su yolu vasitəsilə qaçıb qurtarır. Bir qədər Bakı kəndlərində və ətrafda qaçaqlıq edir. Lakin bir dəfə

olsun soyğunçuluq və qarət etmir. Xalqın qabağını kəsib pul almaq ona ağır gəlir. Fəqət ac da qala bilmir. Çarəsiz qalıb İrana qaçır.

1884-cü illərdə Bakı ətrafında dolanan, ovçu Ağarəhim nəvəsi Sonqulu (Hüseynqulu – *red.*) adlı "qaçaq" da çox məşhur olmuşdu. Bu adam 40 yaşında, hündür, kök, enlikürək, uzunqollu, açıqalınlı, parlaq irigözlü, ağ-qırmızı sifətli, nazik qarasaqqallı, rəssam fırçasına layiq bir şəxs idi. O, ağırlığına baxmayaraq çox çevik idi. Üzündə xoş bir təbəssüm vardı. Keçə çuxa geyərdi və keçə şalvarı vardı. Ayağına şal-çarıq geyərdi. Qışda qara, uzun yapıncısını çiyninə salardı.

Sonqulu kənddən şəhərə gəlib, gəncliyində bir tacirə nökər durur. Onun birinci ağası yağlı dillərlə üç il qarınafətir işlədib pul verməmişdi. Sonqulunun mahirliyini və bacarığını görən başqa bir tacir onu öz yanında faytonçu durmağa dəvət edir və ona gözəl şərait təklif edir. Sonqulu həmin tacirin yanına getmək istədikdə, köhnə ağası ona nə məvacib verir, nə də azad edir. Nəhayət, Sonqulu özü qaçıb gedir və yeni ağasının yanında qulluğa başlayır. Bunu görən köhnə ağası paxıllıqdan Sonqulunun üstünə oğurluq atıb tutdurur. Yeni ağası pul qoyub onu qazamatdan xilas edir. O, yeni ağasının belə rəftarını görüb, dübarə onun yanına qayıdır və faytonçuluq edir. Bir qədərdən sonra köhnə ağası Sonqulunun yeni ağasının qapısını neftləyir (Bu təhqir işarəsi idi). Gecələr üstünə gedir və ona sataşmağa başlayırlar. Vəziyyəti belə görən Sonqulu köhnə ağasının yanına gəlib ona deyir:

– Mən aciz-avara adam deyiləm. Sən məni aldadıb üç il havayı işlətdin. Sonra mənim üstümə şər atıb tutdurdun. O kişi mənim üçün pul qoyub məni qurtardı. Qoy başımızı aşağı salıb kasıbçılığımızı eləyək. Bizdən əl çək və onu da bil ki, sən ona bir şey eləsən mən tək əlimlə sənə cavab verməyi bacararam. Yenə deyirəm ki, mənim boynuma təklif qoyma, mənim ağamdan əl çək.

Bunu dedikdən sonra Sonqulu qayıdır. Fəqət köhnə ağası olduqca qəzəblənir. Sonqulunun belə rəftarından xoşu gəlmir və onun yeni ağasının oğlunu öldürtdürür. Bu işdən sonra Sonqulu kimsəyə məsləhət etmədən, tüfəngini əlinə alıb gecə köhnə ağasının evinə girib onu öldürür, var-yoxunu yığıb-yığışdırıb şəhərdən kənara çıxır və qaçaqlığa başlayır.

Sonqulu bir qədərdən sonra şəhər naçalnikinə bir məktub yazır. Həmin məktubda əhvalat və macəranı olduğu kimi, təfsilatı ilə şəhər



naçalnikinə yazır: "Mənim ağamda təqsir yoxdur. Təqsir öləndə və məndədir. Onun başından bir tük əskik olsa, mən dinc dayanmaram və düşmənimi südəmər uşağınadək qıracağam".

Hökumət bu işi Qafqaz canişinliyinə yazır və oradan aşağıdakı məzmunda cavab gəlir: "Sonqulunu tutanadək işi dayandırın və iki düşmən tərəfi barışdırmağa çalışın".

Sonqulunu çox axtarırlar. Ancaq xəbər tuta bilmirlər. Bir qədərdən sonra Sonqulu titrətmə-qızdırmaya düşüb Bakıya xozeyingilə gəlir. Bir-iki gün orada qalır. Ağası ona, onun evində qalmağı təklif edir. Sonqulu düşünür ki, əgər məni tutsalar, sonra bunlara əziyyət olar. Razı olmayıb oradan Çənbərəkəndə, bir dostunun evinə gəlir. Ona yaxşı qulluq edirlər. O, bir-iki həftə qaldıqdan sonra, bir gün onu yenə bərk qızdırma tutur və dərin yuxuya gedir. Bu zaman onun köhnə "dostu", köhnə ağasının adamlarından 5-6 şahı almaq üçün gəlib divana xəbər verir. Polis gələrək Sonqulunu yataqda, qızdırmalı halda tutur. Sonqulu ayıldıqdan sonra özünü qazamat xəstəxanasında görür. Onu müalicə edib sağaldırlar. Tiflisdən adamlar gələrək onu mühakimə edirlər. Bütün şəhər o gün Sonqulunun tamaşasına çıxmışdı. 6 soldat arasında ayağında 17 girvənkəlik qandal, əynində uzun qazamatı şinel həbsxanadan çıxarkən, izdiham onun məğrurluğuna, ayağındakı qandalın cingiltisinə, qollarının ağır nəvazişinə təəccüb edirdi. Sonqulu üç gün istintaq olundu, əvvəlki sözləri olduğu kimi söylədi və yeni ağasını doğrultdu. Günahkar köhnə ağası və özü olduğunu göstərdi. Qanun nə tələb edirsə, o cür rəftar etməyi tələb edirdi. Sonquluya 10 il katorqa işi kəsildi. Əllərini bağlayıb saçının yarısını qırxdılar (bu, katorqaya sürgün olunanların nişanı idi). Sonqulunu Sibirə göndərirlər. O, yolda qaçır. Bir neçə il qaçaqlıq edib heç kəslə işi olmur, ancaq dövlətlilərə düşmən kəsilir. Qabağına dövlətli çıxanda dərhal göz açmağa qoymayıb soyur. Bütün qaçaqlığı müddətində Sonqulu ancaq bir nəfər adam öldürür ki, o da köhnə ağasıdır. Qaçaqlıq həyatı axırda onu təngə gətirir. O da qaçıb İrana gedir.

Mən 15 yaşında idim. İndiki kimi yadımdadır. Pirşağı bağlarına sərnişin daşıyan faytonlar Quba meydanından gedərdilər. Günortadan sonra saat iki-üç radələrində sərnişinlər yığıldı. Beş fayton, qabağında da dörd atlı dilcan bir yerdə yola düşdü. Mən o faytonların birinə əyləşdim və bağa yola düşdük.

Şəhərdən çıxıb Biləcəri qayasını endik. Binoqodinin ətəyindəki şorun o biri başına çatanda faytonlar dayandı, sərnişinlər bir-birinə:

– Nə olub, nə olub? – deyə ayağa qalxdılar və bir-birinin çiynindən qabağa baxır, bir-birinə: – A... a... Candadaş! Yaman yerdə axşamladıq. O bizi təmiz soyacaq.

Bir başqası:

– Soymaq yaxşıdır, əgər öldürməsə.

Candadaş da öz insanlıq haqqını tələb etmək üçün əlinə silah alıb çöllərə düşmüş və qaçaqçılığa məcbur edilmiş adamlardan idi. Çox çalışqan, əməksevən, namuslu, qeyrətli və igid bir oğlan idi. Soyğunçuluq eləməzdi. Varlıların və çar məmurlarının amansız düşməni idi.

Candadaş adını eşitdikdə, mən onu görmək üçün faytondan düşdüm. O, məni gördü və cəld mənə dedi:

– Qoçaq, əyləş faytona!

Qorxumdan heç bilmədim özümü faytona necə soxdum. Faytonun böyründən boylanırdım ki, bu adama baxım, onun mülayim tərzdə dediyi sözlərini eşitdim:

– Mən Candadaşam. Mənim üçün iş düşüb, qəza-qədər məni qaçaq eləyib. Elə xəyal eləməyin ki, Candadaş da adi bir qaçaqdır, sizin qabağınızı kəsib sizi soyur. Ola bilsin ki, bu faytondakılardan biri məni tanıyır. Soyğunçuluq, adam öldürmək mənim əlimdən gələr, ancaq mən bunu hər kəs üçün etmərəm. Yoldan keçən təqsirsiz və əlsiz-ayaqsız adamlara əziyyət verib incitmərəm. Ancaq indi sizdən təvəqqe edirəm, mənə bir az xərclik verəsiniz. Əgər bu xərcliyi mənə qorxudan verirsinizsə və gedib bağda camaata, "Candadaş bizi soydu" – deyə yayacaqsınızsa, onda mən heç nə istəmirəm.

Sərnişinlərdən birisi:

– Yaxşı sözdür, camaat eşitdiniz ki? Bu kişi bizi soymur. Kimin qulpundan nə çıxır, hər kişi hallı-halına görə ona xərclik versin, çıxaq gedək.

Bir başqası həyasızlığa salıb: – Bizə nə var qaçaqsan, acsan. Qaçaq olmayaydın, ac qalmayaydın. Biz sənə bir qəpik verən deyilik, – deyə mırıldandı. Sərnişinlər yer-yerdən onun üstünə düşdülər.

– Zalım oğlu, zalım, bizi qırğına vermək istəyirsən? Kişi bizdən təvəqqe edir. Sən vermirsən vermə, biz verərik.

Sərnişinlər Candadaşa müraciətlə bir ağızdan:

– Candadaş! Qadovu alım, bunun sözünə qulaq asma. İzin ver biri pulu yığsın, faytondan düşüb gətirib sənə versin.



Candadaş təmkinlə: – Eybi yoxdur, ancaq o adam qurban olsun sizə. Mən onun kim olduğunu da bilmək istəmirəm, onun pulu mənə lazım deyil, ancaq onu bağda əhali arasında mənim barəmdə artıq-əskik danışmağa qoymayasınız, – dedi.

Uşaq olduğum üçün məni pul yığmağa çağırdılar. Mən əlim, ayağım əsə-əsə, ürəyim titrəyə-titrəyə ayağa durdum. Faytondan düşüb pul yığmağa başladım. Faytonların birində bir qoca kişi vardı. Onun əlindəki bir səbətin içində alma-armud vardı. Onu mənə uzadıb dedi:

– Bunu da mən verirəm. Gücüm buna çatır və ana südü kimi halal edirəm.

Bir az əvvəl etiraz edən şəxs də pul vermək istədikdə Candadaş dedi:

– Xeyr! Xeyr! Sənin pulun mənə lazım deyil.

Mən də onun pulunu almadım. Pulu yığdım, səbət əlimdə faytondan bir qədər aralandım. Ona tərəf getdikdə səslədi:

– Bala, yaxın gəlmə, qoy yerə, siz gedəndən sonra mən götürərəm. Səbəti də apar yiyəsinə ver, o mənə ağırlıq elər. Çox sağ olun.

Pulu yerə qoydum, qayıdanda mən ona gözaltı baxırdım. Onun görkəmi, səmimi baxışı, gülümsəyən dodaqları nəcibliyini büruzə verirdi. Üzündən oxumaq olardı ki, bu adam, əlacsızlıqdan qaçaq olmuşdur.

Səbəti aparıb yiyəsinə verdim. Faytona mindim, hərəkət etdikdə uzaqdan:

– Sizdən çox təvəqqe edirəm ki, məni bağışlayasınız – sözləri eşidildi. Cavab olaraq sərnişinlər bir yerdə: – Allah bağışlasın! Bu nə sözdür, kaş hamı qaçaqlar sənin kimi olaydılar, – deyə cavab verdilər. Sonralar Candadaş düşmənlərinin dalınca gedib üç oğul və bir ata öldürdükdən sonra kəndə gəlib uzun illərdən bəri kimsəyə ərə getməyərək, onu gözləyən adaxlısı ilə görüşür və deyir:

– Mən özümü divan əlinə verib Sibirə gedəcəyəm, sən məndən ötrü qalıb özünü bədbəxt etmə, kimə istəyirsən get.

Adaxlısı isə cavabında:

– Candadaş! Mən ömrümün çoxunu keçirmişəm. İndi bütün ömrüm boyu sənin yolunu gözləyəcəyəm. Səndən sonra mən ərə getməyib gora gedərəm.

Nişanlısı ilə xudahafizləşib evdən çıxan Candadaş, bir baş divanxanaya gəlir və deyir:

– Mən Candadaşam, dörd adam öldürmüşəm, bu tüfəngim, bu da mən. İndi nə edirsiniz edin.

Ona iş kəsib Sibirə göndərirlər. Sibirə getdikdən sonra Candadaşdan bir xəbər gəlmir. Adaxlısı Zümrüd Candadaşın yolunu gözləyərək, saçını atası evində ağardıb ölür. Candadaşın isə öldüyü və qaldığı məlum olmur.

Qəddar və cinayətkar jandarmların, kapitalistlərin, tacirlərin, alverçi və ruhanilərin xəyanət, aldadıcılıq, cahillik, vicdansızlıq və ikiüzlülük tələb edən iyrənc mühitindən öz hüququnun müdafiə olunmayacağını görən və qaçaqlığa gedən adamlar təkcə burada söylədiklərimdən ibarət deyil.

Onlardan başqa Bakıda xırda qaçaqlar çox idi. O zamanlar Bakıda və Bakının ətraf kəndlərində tapançabazlıq, qoçubazlıq adət olmuşdu. Hər dövlətli başına beş-on qoçu yığıb, qan tökməklə, həyasızlıqla pul qazanıb ad çıxarar və məşhur olardı. O zaman kənddə və şəhərdə 100-dən artıq cinayətkar qoçu dəstəsi vardı. Qoçu Ağakərimin dəstəsi, Aşurovlar, Rəsulovlar, Teymur bəy, Qoçu Nəcəfqulu, Kəblə Abdulla, Şiruyə, Kürdəxanılı Adil, Türbət və başqaları. Şəhərin küçələri dava meydanına dönmüşdü. İki dəstə bir-birinə harada rast gəlsəydi, partapart başlanar, qaça-qaç düşər, camaat bir-birinə qarışardı. Atışma kəsildikdən sonra küçədə ancaq hambal, yoxsul, kəndli, qadın, uşaq, əlsiz-ayaqsız və kimsəsiz adamların meyitlərini görmək olardı.

Bakı əhalisinin vəziyyəti belə həşərat və müzür anarxistlərin, quldurların, qoçuların törətdiyi fırıldaqlar, cinayət və fəlakətlər nəticəsində faciə halını almışdı. Hər yerindən qalxan istədiyini edərdi. Bir özü və bir də tapançası bütün ixtiyarı onun əlinə vermişdi. Onların qarşısını nə polis, nə də divanxana kəsə bilirdi. Əksinə, çarizm üsuli-idarəsi, polis və çar məmurları bu cinayətlərin gündən-günə artmasına, xalqın bütün təbəqələrini əhatə etməsinə çalışırdılar. Xalqın cəhalət bataqlığında boğulması, din zəhəri ilə zəhərlənməsi, ədavət və qanlılıqla bir-birini qırıb məhv etməsi çar hökumətinə və onun müstəmləkəçilik siyasətinə kömək edirdi. Çar cəlladları eyni zamanda xalqın inqilabi əhval-ruhiyyəsini, sinfi kin və nifrətini öldürmək istəyirdilər; buna görə də belə bir vəziyyət getdikcə daha kəskin bir hal alırdı.

Bakıda yaşayan camaatın sinfi mənafeyi bütün çılpaqlığı ilə meydana çıxmağa başlayırdı. Çar üsuli-idarəsinin, burjuaziyanın qanlı hökmranlığı və özbaşınalığından ən çox zərər görən fəhlələr və əməkçi kütlələr idi. Kapitalizm quruluşundan onlar özlərinə heç bir ictimai və mənəvi dayaq və istinadgah tapa bilmirdilər.



Bakı proletariatının sarsılmaz sinfi mübarizəsi alovlanıb inqilab yanğınına çevrildi və nəticədə Azərbaycanı öz vəhşi caynaqları arasında əsrlərdən bəri uçurumlara sürükləyən düşmən siniflər – onların alçaq və xain niyyətləri daşa çırpılıb əzildi və məhv edildi.

Azərbaycan xalqı... məğrur azadlıq bayrağını göylərə ucaltdı.

İnqilabi Bakı zülm, istismar, cəhalət və mövhumat zəncirini qırıb yeni sevincli, gözəl, misli görünməmiş parlaq həyatın qoynuna atıldı. Bugünkü Bakı – sizə uzun-uzadı təsvir etdiyim, o keçmiş, zavallı, solğun bənizli, bədbəxt Bakıya oxşamır. Bu hələ on səkkiz yaşlı cavan Bakıdır. İyirmi səkkiz, otuz səkkiz, qırx səkkiz yaşlı Bakı, heç şübhəsiz, on səkkiz yaşlı Bakıya bənzəməyəcək. O zaman Bakı daha gözəl, daha şən, daha parlaq olacaqdır... Bakının... parlaq gələcəyi, xoşbəxt aqibəti var.

# KİTABIN İÇİNDƏKİLƏR

*İnstitutdan* . . . . . 4
*Ön söz* . . . . . 6

Bakı şəhəri . . . . . 13
Novruz bayramı . . . . . 19
Çərşənbə gecələri xonça düzəltmək, şam yandırmaq adəti . . . . . 20
Bayram günü evlərdə . . . . . 27
"Cızıq turnası" oyunu . . . . . 31
"Qələndər, ay qələndər" oyunu . . . . . 32
"Kosaldıqaç" oyunu . . . . . 34
"Gizlənpaç (gizlənqaç)" oyunu . . . . . 34
"Oğru-oğru" oyunu . . . . . 35
"Şumaqədər" oyunu . . . . . 35
"Aşıq-aşıq" oyunu . . . . . 35
"Qoz-qoz" oyunu . . . . . 37
"Pula-pula" oyunu . . . . . 37
Quran çıxma . . . . . 40
Məşq xəttatlıq . . . . . 40
Bildirçinbazlıq . . . . . 43
Bağa köçmə . . . . . 45
Bağ məşğələləri . . . . . 48
"Tağı külah, Nağı sər" oyunu . . . . . 50
"Habudu getdi, Şahbudu gəldi" oyunu . . . . . 51
"Usta-şəyird" oyunu . . . . . 52
"Yoldaş, səni kim apardı" oyunu . . . . . 52
"Bənövşə" oyunu . . . . . 53
"Al bunu" oyunu . . . . . 53



"Qundaq-qundaq" oyunu . . . . . 54
"Çumuruq-çumuruq" oyunu . . . . . 55
"Beş, onbeş" oyunu . . . . . 55
Qocaların bağ məşğələləri haqqında . . . . . 59
"Zorxana" oyunu . . . . . 68
"Sino" oyunu . . . . . 71
"Mil" oyunu . . . . . 71
"Fincan-fincan" oyunu . . . . . 72
Səməni bişirmə . . . . . 75
Qurban bayramı . . . . . 77
Qız bəyonmə . . . . . 77
Kasıb toyu . . . . . 93
Dövlətli toyu . . . . . 96
Qız evinin toyu . . . . . 99

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Nəşriyyat redaktoru: | *Əlişirin Şükürlü* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Rəvan Mürsəlov* |
| Korrektor: | *Elnaz Xəlilqızı* |

Yığılmağa verilmişdir 06.06.2006. Çapa imzalanmışdır 22.06.2006.
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 9. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 76.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.